AEM

e-ISSN: 2789-6919

# Elmi Tədqiqat

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

## ELM VƏ TƏHSİLİN ƏSASLARI
## XIII BEYNƏLXALQ ELMİ KONFRANS

## FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
## XIII INTERNATIONAL SCIENTIFIC CONFERENCE

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Elmi Jurnal**

---

**ELM VƏ TƏHSİLİN ƏSASLARI**

**XIII BEYNƏLXALQ ELMİ KONFRANS**

https://doi.org/10.36719/2789-6919/2025/XIII

# SCIENTIFIC RESEARCH

**International Scientific Journal**

---

**FUNDAMENTALS OF SCIENCE AND EDUCATION**

**XIII INTERNATIONAL SCIENTIFIC CONFERENCE**

**(01.05.2025)**

**Bakı – Baku**
**2025**

## Beynəlxalq indekslər / International Indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.az
© info@aem.az

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Elçin İBRAHİMOV**, Qarabağ Universiteti / Azərbaycan

## Sədr müavinləri

**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa

## Məsul katib

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A. A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya

**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Mehriban İMANOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səbinə TANRIVERDİYEVA,** Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA,** Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Elchin IBRAHIMOV,** Karabakh University / Azerbaijan

### Deputy chairmen

**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan

**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland

### Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan Science Center / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Karim SHUKUROV,** ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y. H. Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO,** First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Rufat RUSTAMOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia

**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Jeyran MAHMUDOVA,** Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nadir ILHAN,** Ahi Evran University / Turkey
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Maharram MAMMADLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Garib MURSHUDOV,** Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA,** Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 9-13**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 9-13**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Zemfira Abbasova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-2673-8634
zema.abbasova.aliyeva@mail.ru

# Xüsusi ad-onomastik vahid ictimai-tarixi inkişafın məhsulu kimi

***Açar sözlər:*** *antroponimlər, etnonimlər, toponimlər, hidronimlər, zoonimlər, kosmonimlər, ktematonimlər*
***Keywords:*** *anthroponyms, ethnonyms, toponyms, hydronyms, zoonyms, cosmonyms, ktematonyms*

Azərbaycan antroponimləri, etnonimləri, toponimləri, hidronimləri, zoonimləri, kosmonimləri, ktematonimlərini fundamental şəkildə tədqiq etmək üçün hələ qarşıda çox böyük vəzifələr durur. Bunun üçün həmin qrup onomastik vahidlər lüğət şəklində toplanıb nəşr olunmalıdır. Bildiyimiz kimi, onomastik vahidlər təkcə dil faktı deyil. O həm də xalqın tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, etnoqrafiyasına, ictimai-siyasi quruluşuna dair çox faydalı bilgilər verir. Buna görə də onomastik vahidlərin toplanıb lüğət halında nəşr olunması dilçiliyimizin başlıca vəzifələrindəndir. Artıq bu faydalı işə başlanmışdır. Azərbaycan Sovet Ensiklopediyası redaksiyası professor A.Qurbanovun redaktorluğu ilə 7 minə yaxın toponimlər lüğətini nəşrə hazırlayır. Müxtəlif illərdə və müxtəlif

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

müəlliflər tərəfindən Azərbaycan şəxs adları lüğəti də nəşr olunmuşdur. Lakin indiyədək Azərbaycan etnonimləri, familiyaları, ləqəbləri, zoonimləri, hidronimləri, kosmonimləri, ktematonimləri lüğətləri hazırlanmamışdır. Bunları yığıb toplamaq üçün ekspedisiyalar təşkil edib yerlərə getmək lazımdır. İş kabinetlərində və ya oxu zallarında oturub ancaq kitablardan xüsusi adların hamısını toplamaq mümkün deyil. Ən böyük mənbə xalqdır. Xalq danışığında xüsusi adların saysız-hesabsız nümunələri yaşayır.

Azərbaycan onomastikası möhkəm özül üzərində qurulmuş, onun düzgün istiqamət almış məktəbi yaranmışdır. İndi bu məktəbin geniş perspektivləri vardır.

Adlar, onların əlamət və xüsusiyyətlərinin tədqiqi müasir Azərbaycan dilçiliyində diqqəti ən çox cəlb edən vacib elmi-tədqiqat sahələrindəndir. Dildəki hər bir xüsusi ad-onomastik vahid ictimai-tarixi inkişafın məhsuludur. A.Qurbanovun özünün də qeyd etdiyi kimi, "Dilçiliyin üfüqlərini genişləndirmək, onun inkişafını hərtərəfli təmin etmək üçün onomastik tədqiqatın əhəmiyyəti olduqca böyükdür."

"Azərbaycan onomastikası" (1986) əsərində onomastika problemləri Azərbaycan dilçiliyində ilk dəfə olaraq ümumiləşdirilərək elmi-nəzəri aspektdə şərh olunur. Burada Azərbaycan onomastikasının öyrənilməsi tarixi, onomastik vahidlərin təsnifi, antroponim, etninim, toponim, hidronim, zoonim, kosmonim və ktematonimlərin spesifik xüsusiyyətləri xarakterik dil faktları əsasında araşdırılır. Əsərin giriş hissəsində müəllif yazır: "Şübhəsiz, əsərin yazılması müəyyən məqsəd və vəzifələrlə bağlıdır. Əsas məqsəd xüsusi ad nəzəriyyəsini, onomastik qanunauyğunluqları aydınlaşdırmaq, onomalogiya təliminin müasir vəziyyəti ilə tanış etmək, onomastik tədqiqata maraq və həvəs oyatmaq və onomaloji tədqiqat sahəsində dilçiliyimizin vəzifələrini müəyyənləşdirməkdən ibarətdir."

https://doi.org/10.36719/2789-6919/2025/XIII

A.Qurbanov Azərbaycan onomastikasının araşdırılması tarixini, onun tədqiqi vəziyyətini müəyyənləşdirmişdir. Məlumdur ki, keçmiş sovetlər birliyində də türkoloji dilçilikdə onomastika sahəsində də az nailiyyət əldə edilməmişdir. Türk dillərindən Azərbaycan, qazax, qırğız, başqırd, tatar, türkmən, özbək, qaraçay-balkar, altay və başqa dillərin onomastikasının bir sıra məsələləri öz elmi şərhini tapmışdır.

Azərbaycan onomastikası xüsusi linqvistik tədqiqata son illərdə cəlb olunmuşdur. Bir sıra alimlər onomastikanı dilçiliyin tədqiqat obyektindən ayırmağa, təcrid etməyə çalışmışlar. Əslində isə, onomastikanı dilçilikdən ayırmaq heç də məqsədəuyğun deyildir. Çünki onomastikanın mövzusu dilçiliyin ümumi obyektindən təcrid olunmayan və bilavasitə onunla möhkəm bağlı olan məsələlər və hadisələrdir.

Onomastik leksikanın ayrı-ayrı ünsürləri, xüsusilə, Azərbaycan toponimləri haqqında müxtəlif qeyd və məqalələrə ayrı-ayrı mənbə və məxəzlərdə rast gəlmək olur.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Qafqaz Albaniyasının bəzi toponimləri haqqında ilk məlumatlara hələ antik dövrün müəlliflərinin, xüsusilə yunan və roma yazıçılarının əsərlərində təsadüf edilir. A.Qurbanovun kitabında göstərilir ki, “Azərbaycan haqqında ətraflı məlumat verən ilk yunan tarixçisi və coğrafiyaşünası Strabon hələ iki min il qabaq Qaspi, Girkan, Araz, Kür, Alazan, Qapıq hidronimləri, Sakasen, Şəki, Qaspi, Uti, Kambusen vilayətləri, Ayılan (indiki Ağdam) şəhəri və digər toponimlərimiz barəsində məlumat vermiş, hətta “Azərbaycan” və “Kür” poleotoponimlərinin mənşəyini də şərh etməyə cəhd göstərmişdir. O, Strabonla yanaşı, görkəmli roma ensiklopedisti Böyük Plininin, yəhudu tarixçisi İosif Flavinin və məşhur yunan coğrafiyaşünası və astronomu, geosentrik nəzəriyyənin banisi Klavdi Ptolomeyi və onların oykonimlərimizlə bağlı fikirlərini xatırladır. A.Qurbanov burada erkən orta

https://doi.org/10.36719/2789-6919/2025/XIII

əsr, IX-XII əsrlərdə, XIX və XX əsrin əvvəllərində Azərbaycanın toponimləri ilə bağlı elmi və tarixi həqiqətləri araşdırmışdır. O, göstərir ki, yalnız 60-cı illərdən sonra bu sahədə aparılan tədqiqat daha sistemli xarakter daşıyır.

Azərbaycanda etnonimlər də xüsusi diqqət obyekti kimi A.Qurbanovun çox işlədiyi sahələrdəndir. O, A.Bakıxanov, M.Vəliyev, Ə.Dəmirçizadə, Z.Bünyadov, M.Seyidov, Y.Yusifov, Q.Qeybullayev, Ə.Hüseynzadə, Ə.Əliyev və digərlərinin əsərlərində etnonimləri araşdıraraq bunu əslində XIX əsrdən etibarən gələn ənənə hesab edirdi. M.Seyidovun “Ağqoyunlu və Qaraqoyunlu etnonimlərinin mənşəyi haqqında bəzi qeydlər”, T.Hacıyevin “Azərbaycanın qədim onomastikasına dair (gümanlar, fərziyyələr), Q.Qeybullayevin “Azərbaycanda qıpçaq mənşəli etnonimlər haqqında” məqalələrində “kəngər”, “sabir”, “ağxəzər”, “onoğur”, “Dışhun”, “Ağhun” və digər qədim Azərbaycan etnonimlərinin tarixi və mənşəyi ilə bağlı tarixi faktları araşdıraraq ortaya çıxarmışdır.

1968-ci ilin aprel ayında Moskvada antroponimika məsələlərinə həsr olunmuş ümumittifaq müşavirəsi keçirilmişdir. Müşavirədə hüquqşünas, tarixçi və dilçi alimlər iştirak etmişlər.

Azərbaycan dilçiliyində antroponimika məsələləri, demək olar ki, həmin müşavirədən sonra geniş şəkildə öyrənilməyə başlanılmışdır. Bu sahədə Ş.Sədiyev, M.Adilov, T.Hacıyev, Z.Sadıxov, M.Çobanov, H.Həsənov, H.Əliyev, Q.Dadaşova, A.Salahova, L.Quliyeva və başqaları xüsusi tədqiqat aparmış və ya elmi məqalələr yazmışlar. A.Qurbanov adlarını çəkdiyimiz müəlliflərin yazmış olduqları əsərləri araşdıraraq insan adlarının meydana çıxması, inkişafı, cəmiyyətdə əhəmiyyəti, şəxs adlarının keçmiş və müasir vəziyyəti kimi bir sıra əsas nəzəri-əməli məsələləri şərh etmişdir. Müəllif burada dilimizə məxsus olan bir sıra kişi və qadın adlarının mənasını izah etməyə nail olmuşdur.

https://doi.org/10.36719/2789-6919/2025/XIII

Azərbaycan dilçiliyinin onomastika sahəsində ən çox işlənən, tədqiq olunan toponimlərdir. Bu məsələ ilə əlqədər 350-dən çox məqalə və kitab nəşr olunmuşdur. Bunların bir qisminin müəllifi coğrafiyaçılar və tarixçilərdir. A.Qurbanov Azərbaycan dilçiliyində bu sahə üzərində işləyən Ə.Əliyev, S.Mollazadə kimi tədqiqatçıların elmi işlərini araşdıraraq Azərbaycanın böyük zonasının toponimik sistemini linqvistik baxımdan və toponimlərin leksik və qrammatik xüsusiyyətlərini, etimologiyasını zəngin dil faktları əsasında şərh etmişdir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Vahid Məmmədov**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-0614-8528
vahedmemmedli31@gmail.com

# Z.Bağırovun tar ilə simfonik orkestr üçün yazdığı konsert

***Açar sozlər:*** *Z.Bağırov, konsert, bəstəkar, musiqi, simfonik , orkestr*
***Keywords:*** *Z.Bagirov, concert, composer, music, symphony, orchestra*

Z.Bağırov yaratdığı bütün əsərlərində özündən əvvəlki sələflərinin bəstəkarlıq üslubuna sadiq qalmış, bir növ onların yaratdıqları musiqi irsini, bəstəkar yazı prinsipini öz prizması baxımından inkişaf etdirərək, bir novator bəstəkar kimi çıxış etmişdir. Onun yaradıcılığında fortepiano, kamera- instrument-tal, instrumental konsertlər və eyni zamanda, səhnə əsərləri milli musiqi ədəbiyyatında özünəməxsus layiqli yer tutmuşdur. Bəstəkarın instrumental konsert janrında yazdığı "Tar və orkestr üçün bəstələdiyi konserti"ni xüsusilə göstərmək lazımdır. Bəstəkar "bəstəkarlıq" sinfini Moskva şəhərində bitirsə də, milli xalq çalğı alətlərimizə üstünlük verərək, onların simfonik orkestrlə ortaq tembr çalarlarını tapmağa müvəffəq olmuşdur. Tar və kamança kimi milli musiqi alətlərimizi simfonik orkestrlə birlikdə istifadəsində bəstəkar bu alətlərin orkestrlə səslənmə uyğunluğunu göstərməyə çalışmışdır.

Müəllifin tar konserti, məşhur ifaçı Həmid Vəkilova ithaf olunmuşdur. Bəstəkar bu əsər üzərində işləyən zaman tar musiqi

https://doi.org/10.36719/2789-6919/2025/XIII

alətinin texniki imkanlarından istifadə prinsipi onun imkanlarını olduqca genişləndirmişdir. Tar üçün yazılmış konsert, milli musiqimizin tabeçiliyi əsasını təşkil edən muğam və lad-məqam prinsipinə əsaslandırılmışdır.

Konsertin I hissəsi rast və bayatı-şiraz intonasiyalarına əsaslanaraq Allegio agilato tempində 4/4 ölçüdə başlayır. Burada nəfəsli, zərb və simli alətlərin mp nüansında tremololarɪ səslənir. Tar alətinin solosu simli alətlərin pitsikato və arko ştrixləri ilə əvəzlənməsi müqayisəli şəkildə özünü göstərir. Burada, həmçinin, fleyta və klarnetlərin solo ilə sual-cavab şəklində qurulmuş melodik epizodlarına da rast gəlinir.

İntonasiyanın melodik quruluş prinsipi, əsasən muğamın intonasiya və eyni zamanda muğam-gəzişmə, improvizə imkanlarından çox zəngin şəkildə istifadə etmişdir.

II hissə - ənənəvi olaraq, lirik-oxunaqlı obraz əsasında qurulmuşdur. Bu hissə tarın solosu, violonçel və kontrabasların müşayiəti ilə başlanır. Bəstəkar bu hissə əsasında, müəyyən lirik (mahnıvari) obrazında öz yaradıcılığına xas olan melodik intonasiya özünü bariz şəkildə göstərmişdir.

II hissənin orkestrin müşayiəti prinsipində müəllif, simli alətlərin vasitəsi ilə polifonik xətt yaratmışdır. Burada müəyyən mahnıvari obraz, virtuoz melodik intonasiyanın keçidindən sonra, müəyyən kontrastlılığı təşkil edir. Bəstəkar bu hissədə tar alətinin səslənmə diapazonu və eyni zamanda, tembr xüsusiyyətindən ustalıqla istifadə etmişdir.

Konsertin III hissəsi Allegretto giocoso tempində, 6/8 ölçüdə ritmik, oynaq əhval-ruhiyyədə bəstələnmişdir. Əsərin bu hissəsi əvvəlki hissələrdən fərqli olaraq nisbət baxımından ritmik, melodik həll kimi müəyyənləşir.

Bəstəkar, konsertin III hissəsi kimi, onun final xüsusiyyəti kimi virtuoz xarakterə əsaslanır. Müəllif, konsertin ən geniş texniki həlli kimi, onun III hissəsində tarın virtual imkanlarından

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

olduqca geniş istifadə etmişdir.

III hissə rondo forması əsasında qurulmuşdur. Bu hissə, onun forma daxilində kontrastlığını təşkil edən rəngarəng obrazını təşkil edir. III hissə əsasında, özünü göstərən Andantino tematik mövzu əsasında lirik obrazları xarakterik şəkildə təsdiqləyir. Burada kiçik və böyük çanaqlarda ifa üsulu temp daxili kontrastlıq yaradır. Hissənin ardıcıllığı, özünü ilkin mövzu ətrafında yenidən təsdiqləyir.

Allegro grosso rast intonasiyalarına uyğundur. Burada mövzu virtuoz yeniliklərlə, özünü variantlı şəkildə inkişaf etdirmişdir. Konsertin III hissəsi müəyyən koda hissəsi ilə təsdiqlənmişdir.

Burada müəllif, mövzunun tematik həllini, bir növ təsdiqləyir və onun yekun melodik sonluğunu ifadə edir.

Bu musiqi özünün lirik xarakteri ilə hissənin daxilində kontrastlıq təşkil edir. Yenidən əsər özünün əvvəlki xarakterinə uyğun qayıdış xüsusiyyətləri ilə özünü biruzə verir. İfadəli musiqi özünün ilkin melodik xüsusiyyəti kimi davam edərək onu təsdiq edir. Hissənin sonundakı kodadan əvvəl solo tarın ifasında səslənən improvizasiya zabul intonasiyası üzərində III hissə ilə koda arasında bağlayıcı partiya rolunu oynayır.

İmprovizasiya davam edərək orkestrin müşayiəti ilə tarın ifasında ağ və sarı simdə səslənir və Andantino moestoso tempində sona çatır.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 17-19**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 17-19**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Dəyanət Ağayev**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-8721-9706
dayanat.aghayev@admiu.edu.az

# Birləşmiş Krallığın fərqli tələffüz edilən coğrafi adları

***Açar sözlər:*** *qlobal ingilis dili, Birləşmiş Krallıq, coğrafi adlar, tələffüz, fonetik çətinliklər*
***Keywords:*** *global English, the United Kingdom, geographical names, pronunciation, phonetic difficulties*

İngilis dilinin qloballığını tədqiq edən hind dilçisi Brac Kaçru (1932-2016) 1985-ci ildə ingilis dilinin 3 çevrəsi adlı model yaratdı. Model 3 çevrədən ibarətdir: daxili, kənar və genişlənən. Daxili çevrəyə ana dili ingilis dili olan dövlətlər daxildir: Birləşmiş Krallıq, İrlandiya, ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiya. Bu çevrə digər çevrələr üçün də norma təminedici funksiyasında çıxış edir. Kənar çevrəyə bir vaxtlar Britaniya müstəmləkəsinə daxil olan Hindistan, Sinqapur, Malayziya, Qana, Nigeriya, Keniya və digərlərini nümunə göstərmək olar. Bu çevrə norma inkişafetdirici funksiyasında çıxış edir. Genişlənən çevrəyə dünyanın digər dövlətləri daxildir. Bu dövlətlər normadan asılı olan funksiyası ilə daxili və xarici çevrənin normalarına baxaraq onlardan öyrənməsi və öz versiyalarını yaratmamaları ilə xarakterizə olunur.

Daxili çevrənin mərkəzində dayanan iki böyük norma təminedicilərdən biri Birləşmiş Krallıq, digəri isə ABŞ-dır (World Englishes (n.d.)). Dünyada ingilis dilinin 150 fərqli

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

ləhcələrini qeyd edirlər, təkcə onlardan 30-u ABŞ-ın payına düşür (English: 3, 2024). Bu səbəbdən ingilis dilini danışıb anlamaq ana dili ingilis dili olan milyonlarla insan üçün asan olmur. Bu cür çətinliklərdən biri də Birləşmiş Krallıqda mövcud olan coğrafi adlar, xüsusən də kənd, qəsəbə, şəhər adlarında gözlənilməz tələffüzlə bağlıdır. Fərqli tələffüz edilməsi ilə nəinki 2-ci və 3-cü çevrəyə daxil olan dil daşıyıcıları üçün çətinlik yaranır, hətta daxili çevrədə olanlar üçün də düzgün tələffüz problemə çevrilir. Hətta ən mükəmməl dilçilər üçün fonetika çaşqınlıq yaradan qaydalarla doludur, xüsusilə də yer adları barədə (UK place names, (n.d.)). Bir qayda olaraq səhv tələffüz edilən yer adlarının siyahısında (List of irregularly spelt places in the United Kingdom, (n.d.)) 400-ə yaxın nümunə verilsə də, daha çox nümunənin olmasını güman etmək olar.

Birləşmiş Krallığın coğrafi adlarında diqqət çəkən məqamlardan biri də eyniadlı yer adlarının müxtəlif qraflıqlarda yerləşməsi ilə müxtəlif tələffüzlərinin olmasıdır. “Acomb, North Yorkshire” /ˈjækəm/, “Acomb, Northumberland” isə /ˈjɛkəm/ kimi tələffüz olunur. Bəzən eyni yerdə müxtəlif variantlara da rast gəlmək olur: “Alresford, Essex” /ˈɒlsfərd/, “Alresford, Essex” /ˈeɪlsfərd/.

“Barugh, North Yorkshire /bɑːrf/, “Barugh, South Yorkshire” /ˈbɑːrk/,

“Burgh le Marsh” /ˈbʌrə/, “Burgh by Sands” /brʌf/.

Bir yer adının 3 fərqli yerdə olması 3 fərqli tələffüzə də səbəb ola bilir:

“Claughton, Lancaster” /ˈklæftən/, “Claughton, Merseyside” /ˈklɔːtən/ “Claughton-on-Brock” /ˈklaɪtən/.

Bu cür nümunələrin sayını daha da artırmaq olar:

“Hougham, Lincolnshire” /ˈhɒfəm/, “Hougham, Kent” /ˈhʌfəm/,

“Magdalen(e) College” /ˈmɔːdlɪn/, “Magdalen Hall” /mɔːn/,

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

“Mildenhall, Suffolk” /ˈmʌldənhɔːl/, “Mildenhall, Wiltshire” /ˈmaɪnəl/,

“Olney” /ˈɔːni/, “Olney” /ˈoʊlni/,

“Ravenstruther” /ˈrɛnstri/, “Ravenstruther” /reɪnstri/,

“Slaithwaite” /ˈslæ(ʊ)wɪt/, “Slaithwaite” /ˈslæθ.weɪt/,

“Snowshill” /ˈsnɒzəl/, “Snowshill” /ˈsnoʊzəl/,

“Uttoxeter” /juːˈtɒksɪtər/, “Uttoxeter” /ˈʊtʃɪtər/,

“Woolfardisworthy” /ˈwʊlzi/, “Woolfardisworthy” /ˈwʊlzəri/,

“Wybunbury” /ˈwɪmbri/, “Wybunbury” /ˈwɪnbəri/.

Tələffüz fərqlərinin olmasının başlıca səbəbi tarixi amildir. Belə ki, ana dili ingilis dili olan Birləşmiş Krallığın sakinləri özləri də bu cür yer adlarının niyə fonetik qaydalara uyğun olmayaraq gözlənilməz tələffüz edilməsinin səbəbini izah edə bilmirlər. Düzgün tələffüz etməyin bir yolu sadəcə yadda saxlamaq, digər yolu isə yerləşdikləri ölkəyə (İngiltərə, Şotlandiya, Uels, Şimali İrlandiya) uyğun olaraq qruplaşdırmaqdır.

## Ədəbiyyat

1. English: 3 Distinctly Different Dialects That Are Spoken in the United States. (2024). https://atlasls.com/english-3-different-dialects-spoken-united-states
2. List of irregularly spelt places in the United Kingdom. https://en.wikipedia.org/wiki/List_of_irregularly_spelt_places_in_the_United_Kingdom
3. UK place names commonly mispronounced. https://ielts.co.nz/newzealand/prepare/article-uk-place-names-commonly-mispronounced
4. World Englishes. (n.d.). https://www.studysmarter.co.uk/explanations/english/international-english/world-englishes/

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Nurlana Kazımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9383-567X
nurlana_kazimova67@mail.ru

# Müstəqilliyimizi və suverenliyimizi daimi edən lider

***Açar sözlər:*** *müstəqil Azərbaycan, Heydər Əliyev, vətən sevgisi, Ulu Öndər, Ümummilli lider*
***Keywords:*** *independent Azerbaijan, Heydar Aliyev, love of the homeland, Great Leader, National leader*

Bu gün kimliyindən asılı olmayaraq hər kəs Azərbaycanımızın belə sürətli inkişafına, xalqımızın dünyanın xoşbəxt xalqları sırasında yer almasına görə ümummilli liderə borclu olmalı, Onun düzgün müəyyənləşdirdiyi siyasətin nəticəsi olaraq dövrün, zamanın tələblərinə uyğun hədəflərin gerçəkləşməsinə öz davamlı töhfəsini verməlidir. Fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixin bizə bəxş etdiyi milli sərvətdir.

Müstəqilliyinin bərpasını arxada qoyan Azərbaycanın bu dövr ərzində keçdiyi yolu üç mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin 18 oktyabr tarixindən 1993-cü ilin iyun ayınadək olan dövrü, ikinci mərhələ 1993-2003-cü illəri, üçüncü mərhələ 2003-2021-ci illəri əhatə edir. 1991-ci il oktyabrın 18-də çətin şəraitdə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdi. O illərdə xaos, anarxiya, daxili çəkişmələr, Ermənistanın təcavüzü böyük çətinliklərə, faciələrə yol açaraq dövlət müstəqilliyimizin taleyini sual altına almışdı. Ulu Öndər Heydər

https://doi.org/10.36719/2789-6919/2025/XIII

Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaqdan xilas etdi. Dahi şəxsiyyətin bu günümüz və gələcəyimiz üçün səsləndirdiyi fikirlərə, tezislərə diqqət yetirdikdə onun torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu görürük. Ulu öndərin suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyinə, sarsılmaz həmrəyliyə çağırışlar etməsi də bu sevgisindən qaynaqlanırdı. O, müstəqillik yollarında ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələrdən bəhs edərkən bildirirdi ki, onun beynəlxalq aləmdə özünü təsdiqləməsi üçün xarici əlaqələrimizi gücləndirməyə böyük ehtiyac var. Bu fakt da inkaredilməzdir ki, Azərbaycanın müstəqilliyinin yenidən bərpasının ilk illərində informasiya blokadasında olmasının əsas səbəbi ölkəmiz haqqında məlumatsızlıq idi. Erməni yalanları Azərbaycan haqqında məlumatsızlıq fonunda ayaq tutub yeriyir, ermənilər xislətlərinə, yalan təbliğatlarına uyğun olaraq özlərini beynəlxalq ictimaiyyətə "əzilən, döyülən, məzlum" xalq, millət kimi qəbul etdirməyə çalışırdılar. Torpaqları işğal edilən, bir milyondan artıq əhalisi qaçqın və məcburi köçkün vəziyyətində yaşayan Azərbaycan olduğu halda, əksər dünya gücləri Ermənistanı işğala məruz qalan, Azərbaycanı isə işğalçı tərəf kimi qəbul edirdilər. 1992-ci ildə erməni diasporunun təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən ölkəmizə qarşı "Azadlığı Müdafiə Aktına" ədalətsiz 907-ci düzəlişin əlavə edilməsi də bunun bariz nümunəsi idi. Ermənilərin və erməni lobbisinin məqsədi bu qərarın qəbulu ilə Azərbaycanı iqtisadi cəhətdən zəiflətmək idi. Amma hadisələrin təhlili də göstərdi ki, Azərbaycan bu ədalətsiz qərarın tətbiqi şəraitində yaşasa da, nəinki iqtisadi cəhətdən zəifləmədi, əksinə, ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində daha qüdrətli, zəngin dövlətə

https://doi.org/10.36719/2789-6919/2025/XIII

çevrildi. Bu proseslər, eyni zamanda, hər bir ölkənin həyatında lider amilinin roluna işıq salır. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk gündən əsas fəaliyyət istiqamətlərindən biri Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılması oldu. Ümummilli liderin elə bir səfəri yox idi ki, bu gün artıq tarixə qovuşan "Dağlıq Qarabağ" münaqişəsindən bəhs olunmasın, erməni yalanları faktlar əsasında dünya ictimaiyyətinə çatdırılmasın. Diplomatik uğurlarımızın nəticəsində dünya siyasətində dəyişikliklər baş verməyə başladı.

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideyasının təbliğini prioritet məsələ kimi qarşıya qoydu. O bildirirdi ki, müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir. Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməlidir. Ulu öndər Heydər Əliyev dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımızın bir araya gəlməsini, vahid mərkəzdən idarə edilməsini təmin etmək üçün 2001-ci ilin mayında Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi təşəbbüsü ilə çıxış etdi. 2001-ci il noyabr ayının 9-10- da keçirilən Dünya Azərbaycanlılarının I qurultayı bir sıra tarixi məqamlarla yadda qaldı. Ümummilli liderin "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı üçün milli qürur rəmzinə çevrilib.

O da məlumdur ki, 1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul olunmuşdur. Həmin sessiyadakı çıxışında ulu öndər Heydər Əliyev qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq bildirmişdir: "Dünya Azərbaycan Türklərinin Milli Həmrəylik

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi soydaşlarımızın birliyi yolunda ilk addımdır."

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Səbinə Abbasova**
Babək rayonu İcra Hakimiyyəti
https://orcid.org/0000-0001-9286-5017
sebine.abbasova@hotmail

# Naxçıvan Muxtar Respublikasında Babək rayonunun tarixi abidələri

***Açar sözlər:*** *Azərbaycan, xalq, Babək, abidə, muzey*
***Keywords:*** *Azerbaijan, people, Babek, monument, museum*

Milli sərvətimizin tərkib hissəsi kimi muzey eksponatları və tarixi abidələr həm də milli dəyərlərimizə daxildir. Belə dəyərlərimizi qorumaq və təbliğ etmək, milli kimliyimizi və tariximizi hifz etmək, təbliğ etmək baxımından muzeylər mühüm əhəmiyyətə malikdir.

Zəngin tarixi-mədəni irsi və özünün artan nüfuzu ilə müstəqil Azərbaycan Respublikası çağdaş zəmanəmizin İslam dünyasının layiqli bir üzvü kimi diqqət mərkəzindədir. Ölkəmizdə iqtisadi inkişaf və sivil cəmiyyət quruculuğu istiqamətində həyata keçirilən bütün işlərdə sosial ədalət və humanizm prinsiplərinin ön planda tutulması, insan hüquq və azadlıqlarına, xalqlararası tolerant münasibətlərə verilən diqqət Azərbaycanın nüfuzunu təkcə İslam dünyasında deyil, eləcə də bütün beynəlxalq aləmdə artırıb.

Babək rayonunun ərazisi tarixi arxeoloji abidələrlə zəngindir. Buranın təbii coğrafi mövqeyi rayonda əkinçi-maldar tayfaların qədim dövrlərdən məskunlaşmasına və uzun müddət yaşamasına şərait yaratmışdır. I Kültəpə və II Kültəpə kimi dünya miqyaslı abidələr Babək rayonu ərazisindədir. I Kültəpə Babək rayon mərkəzindən 14 km şimalda, Kültəpə kəndi

https://doi.org/10.36719/2789-6919/2025/XIII

ərazisində, Naxçıvançayın sol sahilində yerləşir. Eneolit - ilk Dəmir dövrünə, eramızdan əvvəl IV minillik - eramızdan əvvəl I minilliyin əvvəlinə aid yaşayış yeridir. İlk dəfə 1904-cü ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış, əldə olunmuş materialların bir qismi 1905-ci ildə Tiflis Qafqaz muzeyinə verilmişdir. Qazıntılar sonralar davam etdirilmiş, 22,2 m qalınlığında 4 mədəni təbəqə öyrənilmişdir. Qalınlığı təqribən 9 m olan alt təbəqədən Eneolit dövrünə aid dairəvi planlı, bünövrəsi çay daşları və gil məhlulu, divarları möhrə palçıqla hörülmüş yaşayış binaları, təsərrüfat tikililəri, ocaq və qəbirlər aşkar edilmişdir. Burada tək, qoşa və kollektiv dəfn olunmuş qəbirlər aşkar edilmiş, qəbirlərdə məişət avadanlıqları, əmək alətləri, bəzək əşyaları tapılmışdır. Eyni zamanda Yaxın Şərq ölkələrindən gətirilmiş boyalı qablar tapılmış, 9,5 m qalınlığında olan iki təbəqədən Tunc dövrünə (eramızdan əvvəl III minillik) aid yaşayış binaları, alət və avadanlıqlar, yarma naxışlı və cızma bəzəkli cilalanmış boz və qara saxsı qablar, heyvan fiqurları, kömürlənmiş arpa, buğda, darı əldə edilmişdir. Qalınlığı 2 metr olan mədəni təbəqədən orta və son Tunc dövrünə aid materiallar əldə edilmiş, qalınlığı 1,5 metr olan 4-cü təbəqədən isə ilk Dəmir dövrünə aid nümunələr tapılmışdır. Bütün bu tapıntılar Kür-Araz mədəniyyəti üçün səciyyəvidir. Burada tapılmış Polixrom boyalı qablar bədii tərtibatına görə nəinki Azərbaycanın, eləcə də qədim dünyanın ən nadir incəsənət nümunələri sayıla bilər.

Babək rayonu ərazisində, rayon mərkəzindən 28 km şimal-qərb istiqamətində, Payız kəndi yaxınlığında, Cəhriçayın sağ sahilində, təbii cəhətdən əlverişli mövqedə, tunc dövrünə aid Çalxanqala abidəsi yerləşir. Qala hündür dağ üstündədir. Çalxanqala abidəsi böyük daş divarlarla əhatə olunmuşdur (Bağırov, 2006, s.13-14).

Bundan başqa, rayon ərazisində elmi əhəmiyyətə malik Eneolit, Tunc, Dəmir dövrünə və Antik dövrə aid arxeoloji abidələr, qədim duzdağ yatağı, orta əsrlərə aid yaşayış yerləri,

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

nekropollar, maddi mədəniyyət qalıqları və onlarla digər arxeoloji, tarixi, memarlıq abidəsi, zəngin materiallar aşkara çıxarılmış və tədqiq edilmişdir. Son illər rayonun Çeşməbasar kəndində “Heydər” məscidi, Nehrəm, Qahab, Zeynəddin, Cəhri, Sirab kəndlərində və Babək qəsəbəsində memarlıq baxımından gözəl məscidlər inşa edilmişdir (Əliyev, 1977, s.76). Rayonun mərkəzində Babəkin heykəli, şəhidlərin abidə kompleksi, Nehrəmdə şəhidlər abidə kompleksi, Çeşməbasarda Şəhid bulağı, Tumbulda Böyük Vətən müharibəsi iştirakçılarının xatirə abidəsi vardır. Son dövrlərdə rayonun ərazisində olan tarixi və memarlıq abidələrinin təmiri va bərpası istiqamətində müəyyən işlər görülmüşdür. Rayon mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılmışdır.

Qeyd edək ki, Naxçıvan MR-in regional tarix-diyarşünaslıq muzeylərindən biri Babək Tarix-Diyarşünaslıq Muzeyidir. 2003-cü ildən istifadəyə verilən muzey Babək rayonunda sayılıb-seçilən mədəniyyət ocaqlarındandır. Muzeyşünaslar qeyd edir ki, muzeydə müasir həyatımızla yanaşı, rayonun qədim tarixini əks etdirən 3500-dən çox eksponat var. Babək rayonu Azərbaycanın, o cümlədən Naxçıvanın tarixi abidələrlə zəngin ən qədim guşələrindən biridir. Bu rayonun ərazisində yerləşən I Kültəpə, II Kültəpə, Qızılburun, Çalxanqala, Vayxır, Çovurqala kimi abidələr yalnız Azərbaycanın tarixinin öyrənilməsi üçün deyil, həmçinin, Cənubi Qafqaz və Yaxın Şərq tarixi-mədəni proseslərinin öyrənilməsi üçün əhəmiyyətə malikdir.

Məlumatlara görə, muzeydə tunc dövrünə aid daş alətlər, II Kültəpə qazıntılarından tapılmış məişət əşyaları, orta əsrlərə aid tikinti və məişət keramikası, milli geyimlər, xalçaçılıq məmulatları, tikmələr, misgərlik məmulatları, gümüş bəzək əşyaları və digər eksponatlar tariximizin dərin qatlarına işıq tutur, həmin dövrlərin öyrənilməsində mühüm tarixi faktlar kimi diqqəti cəlb edir.

https://doi.org/10.36719/2789-6919/2025/XIII

## Ədəbiyyat

1. Bağırov, F. (2006). Babək rayonundakı ziyarətgahlar. *Mədəni-maarif*, Nəşr 7, s.13-14.
2. Əliyev, V. (1977). *Azərbaycanda tunc dövrünün Boyalı Qablar Mədəniyyəti*.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 28-32**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 28-32**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Vüqar Abdullayev**
Milli Azərbaycan Tarix Muzeyi
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4403-8778
abvugar@yahoo.de

# XX əsrin 30-cu illərində azərbaycanlı mühacirlərin siyasi – mədəni – humanitar fəaliyyəti

***Açar sözlər:*** *azərbaycanlı mühacirlər, siyasi əlaqələr, mədəni əlaqələr, humanitar əlaqələr*
***Keywords:*** *Azerbaijani immigrants, political relations, cultural relations, humanitarian relations*

XX əsrin 30-cu illərində Azərbaycanda geosiyasi cəhətdən böyük dəyişikliklər gedirdi. Rus İmperiyasının, bolşevizm ideologiyasının təsiri ilə ölkədə baş verən hadisələr: Cümhuriyyətin süqutu, onun tərəfdarlarının izlənərək həbslərə atılması, xalqın mübariz ruhunun sarsıdılmasına hesablanırdı.

Zaman-zaman azərbaycanlıların tarixi ata-baba torpaqlarından məcburi şəkildə köçürülməsi də İmperiya siyasətinin əsas hissələrindən biri idi. Qafqazda daimi konflikt vəziyyətinin yaradılması siyasəti də Rus İmperiyasının maraqlarına uyğun idi. Hələ 1920-ci ildən Almaniyaya mühacirət etmiş azərbaycanlıların ardınca, 30-cu illərin mühacirləri Azərbaycan torpağını yavaş-yavaş tərk edirdi. Həmin illərdə Almaniyada yaşayan həmyerlilərimizin bu ölkənin mədəni-humanitar həyatında böyük rolu olmuşdur. Onların bütün fəaliyyətinin məqsədi Azərbaycan xalqının mədəniyyəti, onun tarixinin qədimliyini, incəsənəti, musiqisinin təntənəsini təkcə alman xalqına deyil, bütün dünya ölkələrinə

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

çatdırmaq idi. Cümhuriyyətinin məğlubiyyətinin əsas səbəbkarı kimi SSRİ rejimini, onun puçluğunu göstərmək azərbaycanlı mühacirlərin ən ümdə vəzifəsi olmuşdur. Sözün əsl mənasında öz ölkəsinin vətəndaşı olan Almaniyada mühacir həyatı yaşayan Məmməd Əmin Rəsulzadə, Ceyhun Hacıbəyli, Ə.Düdənginski, F.Əmircan, Süleyman Təkinər, Fərman Məmmədov və başqaları Almaniyada nəşr olunan qəzet və jurnallarda Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün müxtəlif məqalələr dərc etdirmişlər.

Almaniyada Məmməd Əmin Rəsulzadə tərəfindən nəşr olunan "Azərbaycan jurnalı"nda çap olunan məqalələr Ceyhun Hacıbəyli tərəfindən fransız dilinə tərcümə olunaraq Fransada da nəşr olunurdu (Quliyev, 2001).

1932-ci ildə Berlində nəşr olunan "İstiqlal" qəzeti də M.Ə.Rəsulzadənin bilavasitə iştirakı ilə yerinə yetirilmişdir. Həmin illərdə Almaniyanın müxtəlif şəhərlərində mühacir həyatı yaşayan azərbaycanlılar məskunlaşdıqları yerlərdə qəzet və jurnallarda çap olunan məqalələr ilə alman xalqını maarifləndirməyə nail olurdular. Bu işdə 1934-cü ildə Almaniyada çap olunan "Qurtuluş" jurnalı da böyük rol oynamışdır. M.Ə.Rəsulzadənin 1936-cı ildə yazdığı və Berlində nəşrinə nail olduğu "Çağdaş Azərbaycan Ədəbiyyatı" və 1937-ci ildə alman dilində işıq üzü görən "Azərbaycan problemləri" əsərinin Azərbaycan mədəniyyətinin və onun siyasi həyatındakı problemlərin alman oxucularına çatdırılmasında əvəzolunmaz rolu olmuşdur (Yaqublu, 2014).

Hər iki əsər alman xalqının Azərbaycan adlı qüdrətli bir ölkənin həyatı, onun yaşadıqları ağrı-acılar, despotizmə qarşı apardığı milli mübarizə ruhunun yenilməzliyi, Rus imperiyası, onun bolşevizm siyasətinə qarşı barışmazlığı haqqında məlumat verməklə, həm də Azərbaycan xalqının nadir incəsənətə, incə ruha malik olması haqqında da cəmiyyəti maarifləndirirdi. Qeyd

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

etməliyik ki, bu əsərlər digər tərəfdən Almaniyada mühacir həyatı yaşayan azərbaycanlılara da yenilməz ruh verirdi.

Azərbaycanın mədəniyyəti, incəsənəti haqqındakı məlumatların alman xalqına çatdırılmasında, həyatı faciəli günlərlə və keşməkeşlərlə dolu Əsəd bəy Nisenbaum haqqında danışaraq, onun yaradıcılığını xüsusilə qeyd etmək lazımdır. 15 əsərin müəllifi olduğu və bu əsərlərin xüsusilə alman dilində yazıldığı vurğulanmalıdır.

Almaniyada mühacir ədəbiyyatının ən gözəl nümunələri Əsəd bəyin adı ilə bağlıdır. Onun Qurban Səid təxəllüsü ilə yazdığı "Əli və Nino" əsəri alman oxucularını "XX əsrin Azərbaycanı – Neft və Milyonlar səltənəti" ilə tanış edir, Bakı, onun qaynar həyatı, alman oxucularına Azərbaycan haqqındakı həqiqətləri olduğu kimi çatdırır. Məhəbbət mövzusuna həsr olunan əsər, əslində siyasi ruhda yazılmışdır. Əsərin əsas qəhrəmanı Əli Xan Şirvanşir neft milyonçusunun oğludur. Əli və gürcü qızı Ninonun məhəbbəti Şərq-Qərb qarşılaşması kimi nəzəri cəlb edir (Əhmədli, 2015).

Lakin qəhrəman ruhlu Əlinin öz Vətəninin azadlığı uğrunda yadellilərə qarşı apardığı mübarizədə Vətən sevgisini hər şeydən üstün tutması və onun Gəncə körpüsü üstündə vuruşaraq qəhrəmancasına həlak olması əsərin əsl leytmotivinə çevrilir.

Azərbaycanlı mühacirlərdən biri olan böyük şəxsiyyət Ceyhun Hacıbəyli mühacir illərinin çoxunu Fransada yaşasa da, Azərbaycan həqiqətlərinin alman xalqına çatdırılmasında xüsusi rolu olmuşdur. Məmməd Əmin Rəsulzadənin yaxın silahdaşı kimi bolşevizmə qarşı yenilməz mübariz Ceyhun Hacıbəyli Azərbaycanın və Azərbaycan tarixindən bəhs edən neçə-neçə məqalələrin müəllifi kimi alman xalqının mədəni-siyasi və humanitar həyatında böyük rol oynamışdır.

Almaniyanın mədəni həyatında öz əsərləri ilə seçilən xanım Ümbül-Banu (Banin) – neft milyonçusu Mirzə Əsədullayevin

https://doi.org/10.36719/2789-6919/2025/XIII

qızı, xüsusilə qeyd olunmalıdır. 11 bədii əsərin müəllifi olan xanım yazıçı, Almaniya və digər Avropa ölkələrində Banin təxəllüsü ilə fəaliyyət göstərmişdir. Cümhuriyyətin süqutundan sonra ailəsi ilə Almaniyaya mühacirət edən yazıçı dövrün çətinliklərini, Azərbaycan reallıqlarını alman oxuculara çatdırmaqda böyük rol oynamışdır. Həmyerlilərimiz A.Topçubaşov, A.Şeyxülislamov, A.Ağaoğlu, A.Hüseynzadə və digərləri Azərbaycanın, onun milli ruhunun, adət-ənənələrinin, Üzeyir bəy Hacıbəylinin “Arşın mal alan” operettasının Almaniya və digər Avropa ölkələrində tanınmasında danılmaz əhəmiyyət kəsb etmişlər.

Hələ Cümhuriyyət dövründə Azərbaycan dövləti tərəfindən Almaniyaya ali təhsil almaq üçün göndərilən tələbələrimiz, Cümhuriyyətin süqutundan sonra üzləşdikləri bütün çətinliklərə və məhrumiyyətlərə rəğmən, Almaniyanın mədəni və siyasi həyatına öz töhfələrini verə bilmişlər. Tələbələr təhsillərini başa vuraraq öz doğma vətəninə qayıtmaq istəsə də, Vətəndən gələn narahatedici xəbərlər onları sarsıtdığından çoxu geriyə dönməmiş və Almaniyada qalaraq fəaliyyətlərini davam etdirmişlər.

Azərbaycanlı tələbələrdən Əliyev Əşrəf, Axundov Səməndər, Ağasıbəyli Yusif, Hüseynzadə Bəhram və digərləri Azərbaycan-Almaniya əlaqələrinin yaranması və inkişafına öz töhfələrini vermişlər (Cəfərli, 2013).

M.Ə.Rəsulzadə ilə çiyin-çiyinə çalışan məsləkdaşlardan danışarkən mayor Fətəli bəy Düdənginskinin fəaliyyətini xüsusi ilə qeyd etməliyik. O, mükəmməl, yüksək təlim görmüş hərbçi, dərin siyasi biliyə malik bir şəxsiyyət olmaqla bərabər, həm də məharətli bir yazar idi. Onun Almaniyada çap olunan Azərbaycan jurnalının səhifələrində zaman-zaman nəşr etdirdiyi məqalələr və yazdığı kitablar bunu bir daha sübut edir. Onun böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyliyə həsr olunmuş

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

məqaləsi, Münxendə çap olunan Azərbaycan jurnalında oxucuların sevərək oxuduğu və Azərbaycan bəstəkarı haqqında məlumatlandırılmasını xüsusilə qeyd etmək lazımdır. Müəllif bu məqaləsində Şərqin və böyük türk dünyasının dahi bəstəkarına Sovet rejiminin göstərdiyi təzyiqlərə baxmayaraq onun dünyəvi şöhrətinə heç bir xələl gətirməyə nail ola bilməmələrini xüsusilə vurğulayırdı. O, öz yazılarında Stalinin sifarişi olan "Uydurma kommunizm xülyası"nı ciddi tənqid edirdi, onun "Kommunizm insanlara həyat təmin edə bilərmi" məqaləsi də despotizmə, diktaturaya hesablanmış bir qurumun gec-tez iflasa uğrayacağını göstərirdi. Ə.Fətəlibəyli bütün ömrünü bu rejimə qarşı mübarizəyə və Azərbaycan xalqının azadlığı uğrunda çalışmağa həsr etmişdir (Yaqublu, 2014).

Ə.Düdənginskinin Almaniyada alman dilində çap etdirdiyi məqalə və kitablarının Azərbaycan – Alman siyasi-mədəni və humanitar əlaqələrinin yaranması və təşəkkülündə mühüm rolu olmuşdur.

Beləliklə, XX əsrin 30-cu illərində azərbaycanlı mühacirlərin Almaniyada siyasi-mədəni və humanitar fəaliyyətinə nəzər yetirərkən, bu fəaliyyətin hələ Cümhuriyyət dövründə başladığını və bu sahədə Azərbaycanlı ziyalıların böyük rolunun olduğunu görürük. Bu gün də bu əlaqələr yüksələn xətt üzrə davam etməkdədir.

## Ədəbiyyat

1. Cafarli, M. (2003). *Politicheskiy terror i sudbi Azerbaydjanskix nemchov*.
2. Əhmədli, B. (2015). *Azərbaycan mühacirət ədəbiyyatı*.
3. Quliyev, Q. (2001). *Emiqrantskaya literatura Azerbaydjana*.
4. Yaqublu, N. (2014). *Məmməd Əmin Rəsulzadə*.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 33-37**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 33-37**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Maya Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9116-4331
maya0866@gmail.com

# Varislik prinsipi – fasiləsiz pedaqoji təhsilin təmin edilməsində zəruri şərtlərdən biri kimi

***Açar sözlər:*** *varislik prinsipi, pedaqoji proses, təhsildə fasiləsizlik, interferensiya qanunu*
***Keywords:*** *the principle of succession, the pedagogical process, continuity in education, the law of interference*

Cəmiyyətin sosial-iqtisadi cəhətdən sürətli inkişafı və müasir təhsil konsepsiyasının tətbiqi böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsinə fasiləsiz sistem kimi yanaşmağı, təhsilin pillələri arasında əlaqə və varisliyin gözlənilməsini tələb edir. Varislik uğurlu pedaqoji fəaliyyətin vacib şərti, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək məqsədilə təlim-tərbiyədə vahidliyi, bütövlüyü, sistemliliyi təmin edən pedaqoji prinsipdir. Təhsil pillələri arasında varislik ikitərəfli proses olub, bir tərəfdən uşaqların növbəti təhsil pilləsində təlimə hazırlanması, digər tərəfdən isə növbəti təhsil pilləsində konkret vəzifələrin yerinə yetirilməsi üçün əvvəlki pillə məzunlarının bilik və bacarıqlarından optimal şəkildə istifadə edilməsi deməkdir.

Varisliyin əsasında duran və inkişafın dialektik qanunu olan inkarı inkar qanunu dialektikanın digər qanunları ilə bağlı olub təbiət, cəmiyyət və təfəkkür hadisələrində inkişafın yeni mərhələsi ilə köhnə fazası arasında əlaqələri, tarixi varislik formalarını əks etdirir. Təlim prosesində inkar – köhnə bilik və

https://doi.org/10.36719/2789-6919/2025/XIII

təcrübənin atılması, rədd edilməsi deyil, yeninin özündən əvvəlki mərhələlərdə qazanılmış nəticələrin toplanması, yeni keyfiyyədə inkişaf etdirilməsi, məzmun və forması ilə varisliyin gözlənilməsi əsasında baş verməsidir. İnkar həm inkişafın əsası, həm də köhnə biliklə yeni arasında əlaqənin, varisliyin formasıdır. İnkişaf əvvəlkinin ən yaxşı cəhətlərinin qorunub saxlanması, prosesin sonrakı mərhələsində istifadə edilməsi nəticəsində baş verir. Bu zaman əvvəlki biliklər hərəkətə gətirilir, köhnə yeni ilə birləşərək əsas məqsədi reallaşdırır. "İnkar inkişafın əsasıdır" dedikdə inkar edənin inkar olunana nisbətən inkişafın daha yüksək mərhələsini təşkil etdiyi başa düşülməlidir.

İnkar köhnə biliklə yeninin dialektik vəhdəti olub köhnədən yeniyə keçid forması, onların xüsusi əlaqə vasitəsidir. İnkar prosesində köhnə bilik yeninin yaranması üçün şərtə çevrilir və qanunauyğun olaraq yeni bilik yoxdan deyil, köhnənin əsasında yaranır. Köhnənin müsbət, mütərəqqi istiqamətdə məzmunundan yeni formada istifadə inkişafın fasiləsiz davamını təmin edir. Lakin köhnə yeniyə olduğu kimi, mexaniki şəkildə deyil, yeninin qanunauyğunluqlarına tabe olaraq, onunla üzvi surətdə əlaqəyə girərək birləşir.

Azərbaycan pedaqoji fikir tarixində varisliyə birmənalı şəkildə – pedaqoji prinsiplərdən biri kimi yanaşılır. Ə.Paşayev, F.Rüstəmov təlim prosesində sistematiklik və ardıcıllığın gözlənilməsi zamanı riayət olunması vacib olan qaydalardan danışarkən bu sistemə təhsilin məzmunu və təlim metodlarında varisliyin təmin olunmasını, əvvəl mənimsənilmişlərin tez-tez yoxlanılması və təkmilləşdirilməsini, müntəzəm olaraq fənlərarası əlaqədən istifadə edilməsini, yeni materialın əvvəl keçilənlərlə əlaqələndirməsi və köhnə biliklərin yeni biliklərin içərisində təkrar edilməsini daxil edirlər (Paşayev, Rüstəmov, 2007, s.171-175).

https://doi.org/10.36719/2789-6919/2025/XIII

Azərbaycan dili tədrisində varisliyin gözlənilməsi problemi dilçi-metodist alimlər H.Balıyev və B.Əhmədov tərəfindən geniş araşdırılmışdır. Varislik prinsipinin nəzəri cəhətdən izahında dil təliminin obyektiv qanunlarına istinad edən metodist alimlər təbiəti etibarilə vəhdətdə olan bir şeyi vəhdətsiz öyrətməyin qanunauyğun hal olmadığını və bu səbəbdən lazımi nəticə verməyəcəyini vurğulamışlar. H.Balıyev varisliyin gözlənilməsinin bizdən asılı olmadan zəruri hal kimi mövcudluğunu dil təliminin obyektiv qanunu olan interferensiya (dil təlimində anlayışların qarşılaşması, uyğunlaşması və qarışması) əsasında izah edir. H.Balıyev fikirlərini belə ifadə edir: "Keçmişdə qazanılmış bilik və vərdişlər məlum kimi yeni məchulun öyrənilməsinə düzgün istiqamətdə müsbət təsir etməyə başlayır. Keçmiş biliklərin yeniyə oxşar cəhətlərinin seçilib müəyyənləşdirilməsi, yeninin spesifik xüsusiyyətlərinin göstərilməsi və bunların şüurlu surətdə müqayisəsi məfhumları dəqiq mənimsəməyə kömək edir" (Balıyev, 2003, s.115).

B.Əhmədov dilin nəzəri məsələlərinin şagirdin nitq praktikası zəminində tədrisi qanununu əsas tutaraq dilin mərhələli tədrisi prosesində həmin mərhələlər arasında əlaqə və varisliyin gözlənilməsinin obyektiv xarakter daşıdığını qeyd edir. Dilin nəzəriyyəsinin şagirdlərin nitq təcrübəsi əsasında öyrədilməsinin təlim əhəmiyyətini vurğulayan metodist alim yazır: "Uşaq dil açmağa başladığı gündən yaşlıların işlətdikləri dil vahidlərini eşidir, bu vahidlər uşaqda müəyyən ustanovka yaradır. Həmin ustanovka isə uşağın dildən istifadə etməsinin əsasını təşkil edir. Ona görə də uşaq məktəbə gələrkən artıq ana dilində danışa bilir, öz fikirlərini şifahi şəkildə ifadə edir. Deməli, müəllim ədəbi dilin normalarını öyrədərkən həmişə uşağın nitq praktikasına əsaslanmalıdır" (Əhmədov, 1974, s.69). Göründüyü kimi, alim dil tədrisi prosesində ibtidai və məktəbəqədər təhsil səviyyələri arasında varisliyin gözlənilməsi

https://doi.org/10.36719/2789-6919/2025/XIII

zərurətini önə çəkir, məktəbə qədəm qoyan uşaqların nitqində onlara öyrədiləcək sadə nəzəri məlumatlara uyğun praktik bacarıqlar olduğu üçün təlimin nitq-dil-ədəbi nitq sistemində qurulmasının vacibliyini vurğulayır.

Müasir dövrdə varisliyə inkişafetdirici təlim baxımından yanaşılma əsas götürülür. Bu istiqamətdə varislik təhsilin mərhələləri arasında əlaqənin və hər bir mərhələdə inkişafın əsası kimi qiymətləndirilir, inkişaf həm bir mərhələnin daxilində, həm də mərhələdən mərhələyə keçiddə nəzərə alınır. Varislik xarici cəhətlərə, inzibatçılığa deyil, təlim subyektlərinin daxili tələbatına, şüurluluq, müstəqillilik və inkişafa yaradılan əlverişli şəraitə əsaslanır. Bu zaman təlim materiallarının verilməsində ardıcıllıq və sistemlilik, təlim və tərbiyənin mərhələləri arasında əlaqə, öyrədilənlərin yeni biliklər zəminində şüurlu dərk olunması, köhnənin əsasında yeni bilik və bacarıqların genişləndirilməsi və dərinləşdirilməsi təlimin əsas prinsipləri kimi önə çəkilir.

Pedaqoji ədəbiyyatın təhlili göstərir ki, varisliyin mahiyyətinin qiymətləndirilməsində müxtəlif mövqelər mövcuddur. Belə ki, bəzi hallarda o, təlim prosesində fənlərarası əlaqə, bəzilərində yeni biliyin öyrədilməsi zamanı keçmiş biliklərə istinad, digərlərində isə müxtəlif təhsil pillələrində təhsilalanın inkişafına vahid tələblərlə yanaşma kimi başa düşülür. Lakin bu halların hamısında varisliyə, bir növ, əlaqə və ardıcıllıq kimi baxılır və onun məzmunu müəyyən dərəcədə məhdudlaşdırılır. Əslində, varislik daha geniş məzmun diapazonuna malikdir. Varisliyin mahiyyəti bütövün dəyişməsi prosesində onun əhəmiyyətli elementlərinin və ya ayrı-ayrı cəhətlərinin qorunması və saxlanmasıdır. Varislik bugünkünü dünənki və sabahkı ilə əlaqələndirərək, bütövün davamlılığını və uzun ömürlülüyünü təmin edir.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 33-37**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 33-37**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

## Ədəbiyyat

1. Balıyev, H.B. (2003). *Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası*. ADPU nəşri.
2. Əhmədov, B.A. (1974). *Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları*. Maarif.
3. Paşayev, Ə., Rüstəmov, F. (2007). *Pedaqogika*. Nurlan.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 38-39**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 38-39**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Banovsha Azizli**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0005-2073-4401
benovshe.rustemli@gmail.com

# Classification of Modal Verbs in English

***Keywords:*** *auxiliary verbs, modality, probability, obligation, ability, potential, function*
***Açar sözlər:*** *modal feillər, modallıq, ehtimal, məcburiyyət, bacarıq, potensial, funksiya*

Modal verbs are an integral part of the English languge used to indicate modality ,probability and attidute. With the help of modal verbs , speaker can convey their attitudes accurately. In English, the most common modal verbs include *can*, *could*, *may*, *might*, *must*, *should*, *would*, *will*, *shall*, *ought to*, and *need to*. Unlike regular verbs, modal verbs do not take inflections for tense (except for *will* and *would*), and they are always followed by the base form of the main verb. There are some common rules about the usage of modal verbs

1.Modal verbs do not change according to subject-verb agreement.

2. Most modal verbs do not inflect for tense, except for *will* (which becomes *would* in the past) and *can* (which becomes *could* in the past).

3. Modal verbs typically appear at the beginning of questions and are used with "not" in negations. For example, *Can you swim?* (question), *You should not smoke* (negation)

4. Modal verbs are used with the base form of the main verb

Modal verbs are a subset of auxiliary verbs which express various meanings such as ability, permission, possibility,

https://doi.org/10.36719/2789-6919/2025/XIII

necessity, and obligation. Each modal has more than one meaning or use, in order to express possibility *may*, *might*, *can*, and *could are used*. These modals suggest that an event is possible but not guaranteed. For example: *It may rain later* (possibility).

Modals like *must*, *have to*, *should*, and *ought to* which are commonly used to express necessity, obligation, advice, and suggestions are used to convey speaker's obligation. "Degree of certainty" refers to how sure the speaker is. As an example: *You must wear a seatbelt* (strong obligation). Must expresses a strong degree of certainty is still less than 100%

The modal verbs *can*, *could*, and *may* are all used to show different concepts such as ability, possibility, permission, and requests. But they show a weak degree of certainty. For example: *I can swim* (present ability).

*Should* and *ought to* are used for giving advice or recommendations. While should gives definite advice, ought to also has the same meaning. For example: *You should study harder* (advice).

In conclusion, modal verbs are a necessary element of English grammar that help express various meanings, such as ability, permission, obligation, possibility, and necessity. They serve to alter the main verb and offer extra information about the action or condition being described. Using modals while speaking or writing allows for greater flexibility in both written and spoken English, allowing for the expression of a wide variety of ideas and emotions more easily.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 40-43**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 40-43**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Kifayət Hüseynova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0004-9716-2459
nurv7487@gmail.com
**Aidə Novruzova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0007-1625-2770
aidenovruzova @mail.ru
**Nazirə Qənbərova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0005-8578-9016
nazireqenberli94@gmail.com

# Müasir cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial promlemlərinin psixoloji həlli

***Açar sözlər:*** *sosial, mənəvi, mühit, psixoloji, problem, xüsusi, stimullaşdırılma*
***Keywords:*** *social, moral, environment, psychological, problem, special, stimulation*

Müasir dövrdə hərəkət məhdudiyyəti olan bütün insanlar üçün bərabər imkanların yaradılması vacib məsələlərdən biridir. Hərəkət məhdudiyyəti olan insanların sosial statusundan, maddi təminat vəziyyətindən asılı olmayaraq daim dövlətin qayğısı ilə əhatə olunur. Uşaqlar dünyaya gələn gündən yetkinlik yaşına çatana qədər dövlətin müxtəlif sosial xidmətləri ilə təmin olunur. Kiçik uşaqlar arasında elələri var ki, dövlət onlara xüsusi münasibət göstərərək onları daha güclü diqqət və qayğı ilə əhatə edir. Onlar xüsusi qayğıya ehtiyacı olan uşaqlardır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara fiziki və əqli qüsuru olan, eyni zamanda valideyn himayəsindən məhrum olan uşaqlar aiddir. Məlum olduğu kimi, dünyanın ayrı-ayrı ölkələrinin təhsil

https://doi.org/10.36719/2789-6919/2025/XIII

sistemində xüsusi qayğıya ehtiyacı olan, yəni sağlamlıq imkanları məhdud olan uşaqlar yalnız xüsusi məktəblərə deyil, ümumtəhsil müəssisələrinə cəlb olunurlar. Belə bir formada təhsilin təşkili inklüziv təhsil adlanır.

Təhsil zamanı xüsusi qayğıya ehtiyacı olan uşaqlar məktəblərdə və uşaq bağçalarında sağlam uşaqlarla birgə təhsil alırlar. Təhsilin belə bir formada təşkili xüsusi qayğıya ehtiyacı olan, əqli və ya fiziki cəhətdən qüsurlu uşaqları cəmiyyətdən və yaşıdlarından təcrid olunmaqdan xilas edir.

Dövlətimiz tərəfindən sağlamlıq imkanları məhdud uşaqlara və sosial cəhətdən təhlükəli vəziyyətdə olan yetkinlik yaşına catmayan uşaqlara dövlət qayğısının ildən ilə artdığını müşahidə edirik. Azərbaycanda uşaqların rifahının yüksəlməsi daim diqqət mərkəzindədir. "Təhsil haqqında" qanunda da sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqlarının təmin edilməsi möhkəmləndirilmişdir. Burada qeyd olunur ki, dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir. Eyni zamanda təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, iqtisadi və sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı seçkiliyə yol verilməməsinə təminat verir (Əhmədov, 2016, s.79-90).

Dövlətimizin təhsil siyasətinin əsasını vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin edilməsi, həmçinin sağlamlıq imkanları məhdud uşaqların keyfiyyətli təhsil alması üçün bərabər imkanların yaradılması təşkil edir.

Məlumdur ki, hal-hazırda xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının, xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil və

https://doi.org/10.36719/2789-6919/2025/XIII

sosial adaptasiyası üçün imkanların təmin edilməsi məqsədilə optimal inklüziv təhsil modelinin tətbiq edilməsi günün vacib tələblərindən biridir.

Dövlət Tibbi-Sosial ekspertiza və Reabilitasiya xidmətinin xüsusi qayğıya ehtiyacı olan uşaqların Dövlət Reabilitasiya mərkəzi ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqlar üçün tibbi sosial reabilitasiya imkanlarının artırılmasına, bu sahədə yüksək standartlara uyğun infrastrukturun formalaşdırılmasına mühim töhfə olub. Müəssisədə uşaqlara dünya praktikasında özünü doğrultmuş qum terapiyası, habelə artterapiya üsullarından, müalicəvi vannalardan və s. istifadə şəraitində 15-dən çox növdə reabilitasiya xidmətləri göstərilir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri" və internat məktəblərinin inkişaf proqramına əsasən, ölkədə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı internat məktəbləri və uşaq evləri yenidən qurulmuş, əsaslı təmir işləri aparılmış, ən müasir avadanlıqla təchiz olunmuşdur. Bu müəssisələrdə kimsəsiz uşaqlar üçün ev şəraitinə yaxın mühit yaradılmışdır (İbrahimov, 2013, s.310-324).

Xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinin həlli hər zaman diqqət mərkəzində olmuşdur. Bununla bağlı dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi alternativ qayğı Proqramı xüsusi əhəmiyyət daşıyır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların ictimai həyatda aktiv iştirakına nail olmalıyıq. Son zamanlar inklüziv təhsillə bağlı irəliləyişlər bütün dünyada özünü göstərir. Tədqiqatlar göstərir ki, bu cür uşaqların fiziki cəhətdən sağlam uşaqlarla birlikdə eyni sinifdə dərs prosesində iştirakı onlara təhsil, sosial və psixoloji baxımdan çox fayda verir. Təhsil bu uşaqların öz güclərinə inamını daha da artırır. Müasir cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlər görülməsini tələb edir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla təlim keçən müəllimlər sinifdə adaptiv təlim mühitinin yaradılmasına, normal təhsil almağa mane ola biləcək fiziki və ya əqli çatışmazlıqlara fikir yönəltməyən şəraitin yaradılmasına, bu tip uşaqların dərs prosesinə qoşulmasına şərait yaratmağa məsul şəxsdir. Bu baxımdan xüsusi qayğıya ehtiyacı olan uşaqlarla dərs keçən müəllimin üzərinə aşağıda qeyd edilən vəzifələr düşür.

Bu cür sagirdləri cəmiyyətə bərabərhüquqlu şəxs kimi təqdim etməli, şagirdlərin daha çox maraq göstərdiyi fənlərlə əlaqəsini təmin etməli, məktəbdə təhsil alan hər bir şagirdin uğurları ilə bağlı müşahidələr aparmalı, şagirdlərin nəticələrinin diaqnostik, formativ və summativ qiymətləndirməsini aparmalı, şagirdin fərdi və qrup fəaliyyətinə cəlb olunmasına kömək etməli, məktəb psixoloqları ilə əməkdaşlıq edərək xüsusi qayğıya ehtiyacı olan uşaqların fərdi psixoloji xüsusiyyətlərini bilərək onlara yanaşmalıdır (Rüstəmova, 2007, s.24). Ölkəmizdə sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili üzrə hərtərəfli imkanlar mövcuddur. Azərbaycan Respublikasında həyata keçirilən bütün layihələr, uşaqların inkişafına layiqli tövfələr verəcək, ailələrimizin sosial bazasını möhkəmləndirəcəkdir.

## Ədəbiyyat

1. Əhmədov, H., Zeynalova, N. (2016). *Pedaqogika*.
2. İbrahimov, F., Hüseynova, N. (2013). *Pedaqogika*. I cild.
3. Rüstəmova, L.H., Hüseynova, N.T. (2007). *Xüsusi pedaqogika*.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Ranokhon Abdullaeva**
University of World Economy and Diplomacy
PhD student
https://orcid.org/0009-0003-1739-8916
abdullayevarano.2012@gmail.com

# The Ideas of Constructivism in the Formation of Relations Between Uzbekistan and Azerbaijan

***Keywords:*** *constructivism, Uzbekistan, Azerbaijan, relations, cultural cooperation*
***Açar sözlər:*** *konstruktivizm, Özbəkistan, Azərbaycan, əlaqələr, mədəni əməkdaşlıq*

In the process of studying interstate relations, it is important to consider and analyze all aspects of the relationship between the countries. In particular, in the co-operation relations between the states of Uzbekistan and Azerbaijan, the similarity of the identities and views of the two nations, as well as the proximity of their national values, have served as important factors influencing the idea of international co-operation.

The theoretical basis for this is reflected in the ideas of constructivism. N.Anof notes that language plays a leading role in the construction of international relations. He drew attention to the fact that our speech forms the basis of social reality, because through language people express their desires, translate them into goals, and then act in accordance with these goals (Azimov, 2015). On this basis, the Turkic linguistic factor linking the Uzbek and Azerbaijani peoples has a direct impact on the positive dynamics of relations. Another important point to note here is that, as post-Soviet states, the Russian language factor has also played a role in the positive development of relations.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Constructivism is based on the idea that international relations, regions, international organizations, states, people, nation, society and other concepts - human consciousness - are the product of thinking. Concepts are formed with the help of a certain sum of ideas, i.e. they are constructs. The formation of ideas is influenced by the identity (s) of a society (Gafarov, 2023). It is identity and social factors that strengthen the close relations between the Uzbek and Azerbaijani peoples. In our opinion, our cultural values formed as a product of human consciousness, transmitted from generation to generation over many years, the factor of Islam, traditions and customs rooted in the blood of the peoples, demonstrate the identity of the two nations.

This shows our cultural proximity and the commonality of our ideological views, which draw directly on the ideas of constructivism. International cooperation between countries with close identities will be relatively stable and long-lasting. This can be seen in the friendly relations between the peoples of the two countries, the warm and trusting dialogue between the heads of state, and the presence of promising potential in the relationship. This situation is clearly evident in the relations between Uzbekistan and Azerbaijan. Historically, the close ties between these two peoples have evolved from warm relations to a strategic partnership at the level of alliance.

At the same time, the idea of constructivism interprets that variability always exists and that processes, attitudes and even identities change over time as circumstances or situations demand. It is shaped over time, as are the interests of the state. In this context, constructivists also emphasize the fluidity of state interests, inter-state relations and issues of international cooperation over time and across time. The crisis relations between Uzbekistan and Azerbaijan in the early years of independence can serve as an example. The attitudes and views

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

of the first leaders who came to power in Azerbaijan (Ayaz Mutalibov in 1991-1992, Abulfaz Aliyev in 1992-1993) did not correspond to Uzbekistan's position and led to a change in the situation and the emergence of cold relations. This did not go too far and relations were resumed. There are two elements of constructivism here: one is a personal factor, i.e. the election of Heydar Aliyev as president and his good relations with Islam Karimov led to the resumption of bilateral cooperation. The second is the element of perception - A.Wendt - which is reflected in the fact that the leaders recognize and understand that the restructuring of relations is beneficial to both sides. As a result, the relations were restored, and diplomatic, economic, and cultural ties were established.

We have also achieved positive cooperation in the cultural and humanitarian spheres, as a result of which the cultural dialogue is forming developing conceptual ideas of Uzbek-Azerbaijani interethnic relations. These ideas, according to E.Nuriddinov, have a centuries-old history of their statehood, carry the ideas of humanism and tolerance inherent in their peoples for centuries, have a similar image of cultural and spiritual life, which clearly demonstrates the role of public diplomacy in strengthening interstate relations (Nuriddinov, 2024). Public diplomacy is based on social factors and directly contributes to the cultural rapprochement of peoples. In our opinion, it is through public diplomacy that mutual relations are strengthened, creating a foundation for the expansion of cooperation in various fields. A.Adigezalov also noted that cultural and humanitarian cooperation is the basis of strategic relations between the two countries (Adigezalov, 2019, p.66) The Uzbek-Azerbaijani Friendship Society, Azerbaijani cultural centers in Uzbekistan are of great importance in this regard. At the same time, the various events organized by them make it possible to get to know and understand better the cultures of the

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

two nations and contribute to the broad development of people-to-people diplomacy.

Based on the above considerations, we can conclude that interstate relations are formed on the basis of cooperation, and the transition to the level of alliance depends on the adaptability and flexibility of both internal and external policies to changing circumstances in time and space. At the same time, during the development stages of the relations between Uzbekistan and Azerbaijan, social factors played a leading role. This was reflected in the positive relationship and oversight of the heads of state, the close friendly ties between the peoples, the alignment of national values, and the proximity of views and positions on the international stage.

## References

1. Adigezalov, A. (2019). *Iz istorii stanovleniya kul'turno-gumanitarnogo sotrudnichestva narodov Uzbekistana i Azerbajdzhana v gody nezavisomogo razvitiya*. Monografiya. Hayot.
2. Azizov, U. (2015). *Konstruktivizm v mezhdunarodnyh otnosheniyah: interpretaciya Nikolasa Onufa, Fridriha Kratohvila i Aleksandra Vendta*. Aletejya.
3. Gafarov, I. (2023). Xalqaro munosabatlarni tadqiq qilishda konstruktivizm siyosiy nazariyasining asoslari, ahamiyati va oʻziga xos xususiyatlari. *“Global Challenges, Processes and Trends” (Collection of Articles)*, JIDU, b.10-22.
4. Nuriddinov, E. (2024). Millatlararo madaniyatlar muloqoti xalq diplomatiyasi rivojining muhim omilidir (Oʻzbekiston va Ozarbayjon misolida). *Tamaddun Nuri jurnali* 7, no.58, b.31-35.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 48-51**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 48-51**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Yusif Ələkbərli**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0008-8332-0806
yusif_elekberli.2002@mail.ru

# Bölüşdürücü logistikanın idarəetmə qərarlarının təkmilləşdirilməsi

***Açar sözlər:*** *bölüşdürücü logistika, idarəetmə qərarları, strateji planlaşdırma, logistika strategiyası, rəqabət*
***Keywords:*** *distribution logistics, management decisions, strategic planning, logistics strategy, competition*

Qlobal rəqabətin artması və bazarların dinamik dəyişməsi nəticəsində logistika sistemlərinin effektivliyi müəssisələrin strateji üstünlüyünü müəyyən edən əsas amillərdən birinə çevrilmişdir. Bu kontekstdə bölüşdürücü logistika, məhsulların istehsal məntəqəsindən son istifadəçiyə qədər çatdırılmasını təmin edən əsas funksiyalardan biri kimi çıxış edir. Bölüşdürücü logistikanın idarəetmə qərarları düzgün və elmi əsaslarla formalaşdırıldıqda, şirkətlərin əməliyyat səmərəliliyi və müştəri məmnuniyyəti əhəmiyyətli dərəcədə artır.

Bölüşdürücü logistika sistemində xərclərin əsas hissəsi malların və materialların paylanması prosesinin - dövriyyə altsisteminin payına düşür. Bu sahədə xərcləri azaltmaq üçün resursların axtarışı böyük diqqət cəlb edir. Tədqiqatlar göstərir ki, dövriyyə altsistemində xərclərin azaldılması yollarından biri müasir logistik vasitələrdən səmərəli istifadə və makro və mikro səviyyədə logistika sisteminin yaradılmasıdır. Böyük şirkətlər mövcud resursları optimallaşdıraraq, öz fəaliyyətlərində logistika konsepsiyalarını, sistemlərini və texnologiyalarını uğurla tətbiq edirlər. Paylayıcı logistika sistemi dövriyyə altsisteminin

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

vacib, dinamik inkişaf edən elementi hesab olunur. Bölüşdürücü logistika sistemində idarəetmə qərarlarının qəbulu üsullarının kifayət qədər dərindən işlənməməsi, differensiallaşdırılmış funksiyaları olan çoxlu sayda vasitəçilərin olması və onlar arasında zəif qarşılıqlı əlaqə, habelə inventarların hərəkətində uyğunsuzluq istehlakçıya çatdırılan məhsulların maya dəyərinin artmasına səbəb olur. Bu da öz növbəsində istehsalçının bazar strategiyasının həyata keçirilməsini çətinləşdirir, məhsulların rəqabət qabiliyyətini azaldır və digər mənfi nəticələrə gətirib çıxarır.

Müasir dövrdə distribyutor logistikasının mühüm problemlərindən biri logistika zəncirinin iştirakçılarının və vasitəçilərinin maksimum sərbəstliyə malik olduğu şəraitdə onun idarə edilməsi üçün yaxşı düşünülmüş mexanizmin olmamasıdır. Şirkətin malların paylanması ilə məşğul olan bölmələrinin və malların istehlakçıya çatdırıldığı logistika zəncirinin iştirakçılarının idarə edilməsi alt sistemi logistika vasitələri haqqında məlumatlara malik deyil, logistika modellərindən və paylama logistikasında iştirakçıların razılaşmalarını artırmaq və xərcləri azaltmaq üçün metodlardan istifadə etmir. Bu baxımdan, paylama logistikasında idarəetmə qərarlarının hazırlanması və həyata keçirilməsi üsulları ilə bağlı problemlər xüsusilə aktualdır və onların öyrənilməsinə böyük ehtiyac var. Ronald Ballou logistikanın klassik tədqiqatçılarından biridir və onun fikrincə, bölüşdürücü logistika məhsulun anbarlardan müştəriyə qədər hərəkətini planlaşdırmaq, həyata keçirmək və idarə etmək üçün tələb olunan fəaliyyətlər toplusudur. O, bu sahədə çatdırılma sürəti, xidmət səviyyəsi, daşıma xərcləri kimi amillərin əhəmiyyətini vurğulayır (Ballou, 2017).

Donald Boversoks və David Kloss logistikanın idarə edilməsində əsas simalardan sayılır və onların düşüncə tərzinə görə bölüşdürücü logistika istehsal edilən məhsulların bazara çatdırılmasında əsas rol oynayır. Onun düzgün idarə olunması

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

şirkətin bazar payını və müştəri məmnuniyyətini artırır (Bowersox, Closs, Cooper, 2012). Martin Kristofer daha çox təchizat zəncirinin idarə olunması sahəsində tanınır, lakin bölüşdürücü logistikanı da bu zəncirin ayrılmaz hissəsi hesab edir. Bölüşdürücü logistika effektiv təchizat zəncirinin müştəriyə qədər son halqasıdır və müştəri məmnuniyyətini birbaşa formalaşdırır. O, logistikanın stratejik əhəmiyyətə malik olduğunu və rəqabət üstünlüyü yaratmaq potensialını qabardır (Christopher, 2016).

Bölüşdürücü logistika məhsulların fiziki hərəkəti ilə yanaşı, eyni zamanda məlumat axınını, sifarişlərin emalını və anbar idarəetməsini əhatə edir. Onun əsas məqsədi müştəri tələblərini vaxtında və minimal xərclə qarşılamaqdır. Bu baxımdan bölüşdürücü logistika yalnız məhsul paylanması deyil, həm də strateji planlaşdırma prosesidir. Bölüşdürücü logistika sisteminin işinin effektivliyinin yüksəldilməsi əmtəə-material axınının hərəkətinin idarə edilməsinə əsaslanan inteqrasiyalaşmış logistika ideyasının tətbiqini tələb edir. Müxtəlif hərəkət fazalarında əmtəə-material axını bölüşdürücü logistika sisteminin bütün funksional sahələrindən (informasiya, ehtiyatların idarə edilməsi, anbarlaşdırma və daşınma) keçir və onların məqsədləri və funksiyalarının təbii inteqrasiyası sayılır. Hazır məhsulun bölüşdürmə sisteminin idarə edilməsi prosesində səmərəsiz situasiyalardan qaçmaq üçün bölüşdürücü logistika sisteminin funksional sahələrinin vasitəsilə keçən əmtəə-material axınının idarə edilməsi üsullarının işlənməsi və reallaşdırılması zəruridir.

Fikrimizcə, inteqral logistik paradiqmalar əsasında bölüşdürücü logistika sisteminin idarə edilməsinin xüsusi üsullarının olmaması və mövcud üsullardakı nöqsanların aşkara çıxarılması idarəetmə şəraitinə adekvat yeni təkmil üsulların işlənməsini, yaxud mövcud üsulların təkmilləşdirilməsini zəruri edir. Bölüşdürücü logistikanın idarəetmə qərarlarının işlənməsi və qəbulu üsullarını təkmilləşdirərkən bölüşdürmə kanalının

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

şəffaflığı və kanal üzrə informasiyanın sərbəst hərəkəti, yəni logistika kanalı daxilində sistemli inteqrasiyanın mövcudluğu mütləq nəzərə alınmalıdır.

Effektiv bölüşdürücü logistika idarəetmə qərarları müəssisələrin rəqabət gücünü artırmaqla yanaşı, həm də müştəri məmnunluğunu yüksəldir. Bu qərarların hazırlanması zamanı strateji yanaşma, məlumatların analizi və texnoloji imkanlardan düzgün istifadə həlledici əhəmiyyət daşıyır. Bölüşdürücü logistikanın idarəetmə qərarlarının işlənib hazırlanması, kompleks yanaşma tələb edən bir prosesdir. Burada məqsəd – xərcləri minimuma endirərək xidmət keyfiyyətini maksimuma çatdırmaq və müştəri məmnuniyyətini təmin etməkdir. Bölüşdürücü logistikada qərarların işlənməsi və qəbul üsullarının təkmilləşdirilməsi sadəcə texniki məsələ deyil – bu, həm də strateji düşüncə, çeviklik və texnoloji biliklərin sintezindən ibarət incəsənətdir. Əgər bir yük konteynerini düzgün yerə vaxtında çatdırmaq istəmirsinizsə, təkcə xəritəyə baxmaq kifayət etməz – həm də gələcəyi analiz etmək lazımdır.

## Ədəbiyyat

1. Ballou, R. (2017). *The Handbook of Logistics and Distribution Management. 6th Edition*. Kogan Page.
2. Bowersox, D.J., Closs, D.J., & Cooper, M.B. (2012). *Supply Chain Logistics Management. 4th Edition*. McGraw-Hill.
3. Christopher, M. (2016). *Logistics & Supply Chain Management. 5th Edition.* Pearson Education Limited.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 52-56**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 52-56**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Davud Abdullayev**
Azərbaycan Milli Aviasiya Akademiyası
doktorant
https://orcid.org/0009-0009-7080-5713
davud_abdullayev@inbox.ru

# Aviaşirkətlərin inteqrasiya və diversifikasiya proseslərinin idarə edilməsi mexanizmləri

***Açar sözlər:*** *aviaşirkətlər, inteqrasiya, diversifikasiya, strateji planlaşdırma, rəqabət qabiliyyəti*
***Keywords:*** *airlines, integration, diversification, strategic planning, competitiveness*

Qlobal rəqabət və bazar qeyri-müəyyənliyi şəraitində aviaşirkətlərin uzunmüddətli dayanıqlığını təmin etmək üçün inteqrasiya və diversifikasiya strategiyalarının idarəedilməsi mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə şirkətlər strateji alyanslar qurmalı, xidmət spektrini genişləndirməli və əməliyyatların optimallaşdırılması üçün çevik idarəetmə mexanizmlərindən istifadə etməlidirlər. Qloballaşma və texnoloji inkişaf fonunda müasir aviasiya sektoru sürətlə dəyişən iqtisadi və siyasi şəraitlə üz-üzə qalır. Rəqabətin artması, yanacaq qiymətlərinin dalğalanması, sərnişin tələbatındakı dəyişikliklər və pandemiya kimi fövqəladə hallar aviaşirkətləri daha çevik və davamlı idarəetmə modelləri axtarmağa vadar edir. Bu şəraitdə inteqrasiya və diversifikasiya proseslərinin düzgün idarə olunması, aviaşirkətlərin riskləri azaltması, bazar payını artırması və dayanıqlı inkişafı təmin etməsi üçün əsas strategiyalardan biri kimi çıxış edir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Müasir qlobal iqtisadiyyatın sürətlə dəyişməsi, texnoloji yeniliklərin artması və müştəri tələblərinin müxtəlifləşməsi aviasiya sektorunda fəaliyyət göstərən şirkətləri yeni idarəetmə strategiyaları tətbiq etməyə məcbur edir. Rəqabətin kəskinləşməsi, sərnişin axınının qeyri-sabitliyi, yanacaq qiymətlərindəki dalğalanmalar və pandemiya kimi fövqəladə hallar aviaşirkətlərin risklərə qarşı daha dayanıqlı və çevik olmasını zəruri edir. Belə şəraitdə inteqrasiya və diversifikasiya strategiyaları, aviaşirkətlərin həm fəaliyyət miqyasını genişləndirməsinə, həm də müxtəlif bazarlarda dayanıqlığını təmin etməsinə imkan yaradır.

İnteqrasiya – müəssisənin strukturunun və fəaliyyət sahəsinin genişləndirilməsi yolu ilə digər bazar iştirakçıları ilə birləşməsi və ya onları əldə etməsi deməkdir. Aviaşirkətlər üçün bu, həm şaquli (məsələn, hava limanları ilə əməkdaşlıq), həm də üfüqi (məsələn, digər aviaşirkətlərlə birləşmə və ya satınalma) inteqrasiya ola bilər. Diversifikasiya – şirkətin fəaliyyət sahəsini genişləndirərək yeni bazarlara və ya xidmətlərə keçməsini nəzərdə tutur. Məsələn, bir aviaşirkətin logistik xidmətlərə və ya turizm sektoruna daxil olması diversifikasiya nümunəsidir.

Müasir dövrdə qlobal iqtisadi və texnoloji dəyişikliklər fonunda aviasiya sənayesi kompleks çağırışlarla üzləşir. Bu çağırışlar arasında rəqabətin intensivləşməsi, yanacaq qiymətlərindəki volatillik, pandemiya riskləri və sərnişin tələbatındakı dəyişikliklər əsas yerlərdən birini tutur (Doganis, 2010). Belə şəraitdə inteqrasiya və diversifikasiya strategiyaları aviaşirkətlər üçün yalnız inkişaf deyil, həm də sağ qalmaq vasitəsi kimi çıxış edir. Knight (1921) riskin müəssisələrdə qərar qəbul etməyə təsirini qeyd etmişdir. Aviaşirkətlər yeni bazarlara daxil olmamışdan əvvəl risklərin analizini aparmalı və sığortalama,

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

ehtiyat fondları kimi vasitələrlə təhlükəni minimuma endirmə-lidirlər.

Porter (1996) əməliyyat effektivliyini rəqabət üstünlüyü ilə əlaqələndirir. Texnoloji inteqrasiya, məlumat sistemlərinin vahidləşdirilməsi və logistikanın sinxronizasiyası bu sahədə vacib rol oynayır. Barney (1991) qeyd edir ki, insan resursları strateji aktivdir. Yeni struktura uyğun kadr hazırlığı, liderlik və daxili ünsiyyət prosesləri mühüm əhəmiyyət kəsb edir.

Fikrimizcə, aviaşirkətlərin inteqrasiya və diversifikasiya proseslərini uğurla həyata keçirməsi üçün müasir idarəetmə yanaşmaları tətbiq edilməlidir. Prosesin ilkin mərhələsində bazarın təhlili, rəqabət mühitinin qiymətləndirilməsi və strateji hədəflərin müəyyənləşdirilməsi əsas rol oynayır. Uğurlu inteqrasiya və diversifikasiya yalnız düzgün planlaşdırma ilə mümkün olur. Hər bir yeni fəaliyyət sahəsi və ya tərəfdaşlıq özündə spesifik risklər daşıyır. Bu səbəbdən şirkətlərin hüquqi, maliyyə və reputasiya risklərini öncədən təyin edərək onları sığortalaması və ya minimal səviyyəyə endirməsi zəruridir.

Yeni sahələrin və ya şirkətlərin daxil edilməsi mövcud struktura inteqrasiya olunmalıdır. Bu, informasiya texnologiyaları sistemlərinin uyğunlaşdırılması, personalın yenidən təşkili və idarəetmə proseslərinin uyğunlaşdırılması ilə mümkündür. Yeni fəaliyyət sahələrinin inkişafı üçün ixtisaslı kadrların cəlbi, əməkdaşların təlimi və motivasiya mexanizmlərinin təkmilləşdirilməsi vacibdir. Diversifikasiya və inteqrasiya ciddi maliyyə vəsaiti tələb etdiyindən, şirkətlər investisiya cəlbi, borc alətləri, səhm buraxılması və digər maliyyələşmə modellərindən istifadə etməlidirlər.

Qatar Airways – turizm və hotelçilik sahəsində investisiya qoyaraq şaquli diversifikasiyanı uğurla həyata keçirmişdir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Emirates – hava limanı, yükdaşımaları və logistik sahələrdə inteqrasiyanı həyata keçirərək kompleks xidmət şəbəkəsi qurmuşdur. Lufthansa Group – müxtəlif regionlarda fəaliyyət göstərən aviaşirkətləri tərkibinə daxil etməklə üfüqi inteqrasiyanın klassik nümunəsidir.

Araşdırmalardan bəlli olur ki, aviaşirkətlərin davamlı inkişafı və rəqabətə davamlı olması üçün inteqrasiya və diversifikasiya strategiyalarının düzgün idarə edilməsi həyati əhəmiyyət daşıyır. Bu proseslər yalnız bazar payını artırmaqla qalmır, həm də müəssisəni risklərə qarşı daha dayanıqlı edir. Effektiv strateji planlaşdırma, çevik idarəetmə strukturu və innovativ yanaşma bu proseslərin uğurla həyata keçirilməsində əsas rol oynayır. Aviaşirkətlər üçün əsas tövsiyə – dəyişən bazar şərtlərinə uyğun olaraq bu strategiyaları daim yeniləmək və real bazar ehtiyaclarına uyğunlaşdırmaqdır.

Aviaşirkətlərin inteqrasiya və diversifikasiya proseslərinin idarə edilməsi müasir aviasiya sənayesində rəqabətqabiliy-yətliliyin və davamlı inkişafın təmin olunmasında mühüm rol oynayır. Tədqiqat göstərdi ki, uğurlu inteqrasiya strategiyaları aviaşirkətlərə resurslardan daha səmərəli istifadə etmək, əməliyyat xərclərini azaltmaq və bazar payını artırmaq imkanı yaradır. Diversifikasiya isə risklərin bölüşdürülməsi və yeni gəlir mənbələrinin yaradılması baxımından əhəmiyyətlidir. Bu proseslərin effektiv idarə olunması üçün strateji planlaşdırma, risklərin düzgün qiymətləndirilməsi, uyğun hüquqi-normativ çərçivələrin formalaşdırılması və innovativ idarəetmə yanaşmalarının tətbiqi vacibdir. Həmçinin, insan resurslarının idarə olunması və texnoloji modernləşmənin təmin edilməsi də inteqrasiya və diversifikasiya proseslərinin uğurla həyata keçirilməsində həlledici faktorlardandır.

https://doi.org/10.36719/2789-6919/2025/XIII

## Ədəbiyyat

1. Barney, J. (1991). Firm Resources and Sustained Competitive Advantage. *Journal of Management*, 17(1), 99-120.
2. Doganis, R. (2010). *Flying Off Course: Airline Economics and Marketing* (4th ed.). Routledge.
3. Knight, F.H. (1921). *Risk, Uncertainty and Profit*. Houghton Mifflin.
4. Porter, M.E. (1996). What is Strategy? *Harvard Business Review*, 74(6), 61-78.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 57-61**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 57-61**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Nurlan Abbasov**
AMEA, Akademik Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutu
doktorant
https://orcid.org/0009-0001-3230-5058
nabbasov1999@gmail.com

# Nəqliyyatın iqtisadiyyata təsiri və inkişaf perspektivləri: Azərbaycan nümunəsində

***Açar sözlər:*** *iqtisadi inkişaf, nəqliyyat infrastrukturu, ticarət əlaqələri, regional əməkdaşlıq, orta dəhliz*
***Keywords:*** *economic development, transport infrastructure, trade relations, regional cooperation, middle corridor*

Nəqliyyat qlobal iqtisadiyyatın ən vacib strukturlarından biri olaraq, dünya üzrə ticarət və inkişaf proseslərinə əhəmiyyətli təsir göstərir. İqtisadiyyatın müxtəlif sahələrini birləşdirən bu sahə, yalnız mal və xidmətlərin daşınmasında deyil, həm də sərmayə axınlarının sürətləndirilməsində və regional iqtisadi əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayır. Xüsusilə, nəqliyyat infrastrukturlarının inkişafı, iqtisadi əlaqələrin genişlənməsi və ticarət əlaqələrinin optimallaşdırılması baxımından ölkələrin iqtisadi inkişaflarına böyük təsir edir. Bu tezisdə nəqliyyatın iqtisadiyyata olan təsirləri nəzəri əsaslarla təhlil ediləcək və mövcud nəqliyyat infrastrukturunun iqtisadi inkişaf üzərindəki perspektivləri müzakirə ediləcəkdir.

Nəqliyyat iqtisadiyyatı, cəmiyyətin nəqliyyat ehtiyaclarını qarşılamaq üçün resursların necə təyin edildiyini öyrənən bir sahədir. Bu sahə həm makro, həm də mikroiqtisadi aspektləri əhatə edir. Makroiqtisadi aspektlər: nəqliyyat fəaliyyətləri,

https://doi.org/10.36719/2789-6919/2025/XIII

ümumi daxili məhsulun (ÜDM) bir hissəsini təşkil edir və milli və regional iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Məsələn, ABŞ-da 20-ci əsrin sonlarında nəqliyyat sektoru ÜDM-nin təxminən 17-18 faizini təşkil edirdi. Bu, sərnişin və yük daşımalarının iqtisadiyyata olan təsirini göstərir. Mikroiqtisadi aspektlər: mikro səviyyədə, nəqliyyat firmaları və istehlakçıları arasındakı münasibətlər öyrənilir. Sərnişin və yük daşımaları üçün tələb və təklif, qiymət müəyyənləşməsi və nəqliyyat sisteminin tənzimlənməsi bu sahənin əsas mövzularındandır. Hökumətin nəqliyyat sektorundakı rolu da mikroiqtisadi analizlərdə mühüm yer tutur. Nəqliyyatın iqtisadiyyata təsiri həm də onun tənzimlənməsi və deregulyasiyası ilə bağlıdır. Hökumətin nəqliyyat sektorundakı müdaxiləsi, iqtisadi inkişaf və cəmiyyətin ümumi rifahı üçün vacibdir (Transportation economics, n.d.).

XXI əsrdə, qlobal bazarlarda rəqabətə davamlılıq, nəqliyyat sektorunun inkişafı ilə sıx bağlıdır. Müasir dövrün tələbləri, sürətli və effektiv nəqliyyat sistemlərini vacib edir. Bu sistemlər, ticarət və məhsul istehsalı sahələrində operativliyi təmin etməklə yanaşı, uzun məsafələrə olan daşımaların da sürətlə həyata keçirilməsini təmin edir. Nəqliyyatın bu inkişafı, ölkələrin beynəlxalq iqtisadi əlaqələrini gücləndirir və onları qlobal ticarətə daha da inteqrasiya edir. Bu proses, xüsusən də inkişaf etməkdə olan ölkələr üçün iqtisadi artımın təkanverici amilinə çevrilir.

Azərbaycan, strateji coğrafi mövqeyi və inkişaf etmiş nəqliyyat infrastrukturu ilə beynəlxalq ticarət dəhlizlərinin mərkəzində yerləşir. Xüsusilə, Simal-Cənub-Şərq-Qərb kəsişməsindəki mövqeyi, ölkəni həm regional, həm də beynəlxalq nəqliyyat dəhlizləri üçün mühüm bir keçid nöqtəsi edir. Bu strateji mövqe, Azərbaycanın beynəlxalq ticarət və sərmayə axınları baxımından önəmli rol oynamasını təmin edir, ölkənin

https://doi.org/10.36719/2789-6919/2025/XIII

qlobal iqtisadiyyatla inteqrasiyasını asanlaşdırır və beynəlxalq ticarət əlaqələrini inkişaf etdirir. Azərbaycanın nəqliyyat sektorunun inkişafı, Orta Dəhlizin bir hissəsi olaraq, yalnız ölkə daxilində deyil, həm də regional iqtisadiyyatın genişlənməsinə və yeni bazarların açılmasına səbəb olur. Eyni zamanda, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə tranzit yük daşımalarının artırılması, ölkənin iqtisadiyyatına əlavə gəlir mənbələri yaradır (İqtisadiyyatın inkişafında nəqliyyatın rolu. 2021).

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə keçirilən beynəlxalq konfransda Böyük İpək Yolunun bərpası müzakirə edilmiş və bu, Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafına yönəlmiş ilk addımlardan biri olmuşdur. Bu tədbir nəticəsində "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyi Bakıda yerləşdirilmişdir. Sonrakı illərdə Azərbaycan, beynəlxalq nəqliyyat layihələrində əsas iştirakçı və aparıcı dövlət kimi əhəmiyyətli rol oynayır. Azərbaycanın Orta Dəhlizdəki rolu, regional əməkdaşlığı təşviq edir və ölkənin beynəlxalq nüfuzunu artırır. Bu layihə çərçivəsində Azərbaycan, Mərkəzi Asiya ölkələri ilə əlaqələrini genişləndirir, yeni nəqliyyat-logistika imkanları yaradır və regional inteqrasiyaya töhfə verir. Nəticə etibarilə, Azərbaycanın Orta Dəhlizdəki fəal iştirakı, ölkənin iqtisadi inkişafına, regional əməkdaşlığın güclənməsinə və beynəlxalq əlaqələrinin möhkəmlənməsinə mühüm təsir göstərir. Bu strateji mövqe, Azərbaycanın Avrasiyanın nəqliyyat qovşağı kimi rolunu daha da möhkəmləndirir. Bundan başqa, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin uğurla icra edilmiş və dəmir yolu xətti 2017-ci ildə istifadəyə verilmişdir. 2018-ci ildə Ələt qəsəbəsində tikilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının,

*Elm və Təhsilin Əsasları* XIII Beynəlxalq Elmi Konfrans
01 may 2025 / 57-61
*Fundamentals of Science and Education* XIII International Scientific Conference
01 may 2025 / 57-61
https://doi.org/10.36719/2789-6919/2025/XIII

2020-ci ilin may ayında isə Ələt Azad İqtisadi Zonasının açılışının olması da ölkəmizin qeyd olunan istiqamət üzrə atdığı çox vacib addımları bir daha təsdiq edir(Böyük İpək Yolunun bərpası, n.d.).

Vətən müharibəsində Azərbaycanın qazandığı şanlı qələbə regionda yeni geosiyasi reallıqlar yaratdı. Bu reallıqlardan biri də məhz nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və yeni dəhlizlərin açılması ilə bağlı idi. Qarabağda tikilən beynəlxalq hava limanları, Azərbaycanın iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edir. Bu hava limanlarının tikintisi, yalnız ölkənin nəqliyyat infrastrukturunun inkişafını təmin etməklə qalmır, həmçinin regionun iqtisadiyyatına, hərbi-strateji mövqeyinə və turizm sektoruna müsbət təsir göstərir. Qarabağda inşa edilən Füzuli, Laçın və Zəngilan hava limanları, Azərbaycanın daxili və xarici ticarət əlaqələrini gücləndirəcəkdir. Bu limanlar regionda istehsal olunan malların dünya bazarına daha sürətli və effektiv daşınmasını təmin edəcəkdir. Beləliklə, nəqliyyatın optimallaşdırılması, Azərbaycanın ixrac potensialını artıracaq və iqtisadi inkişafın sürətlənməsinə səbəb olacaq. Əlavə olaraq, Zəngəzur dəhlizinin açılması və Zəngilan hava limanının Zəngəzur dəhlizi ilə əlaqələndirilməsi, Naxçıvan və Türkiyə ilə yükdaşımalarını asanlaşdıraraq, xərclərin azaldılmasına və vaxt itkisinin qarşısını almağa kömək edəcəkdir. Bu, Azərbaycanla digər regional ölkələr arasında iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə səbəb olacaqdır (Qarabağda tikilən hava limanları Azərbaycana nə verəcək? 2021).

Nəqliyyat, iqtisadiyyata təsir edərək, ticarət axınlarını sürətləndirir, regional və beynəlxalq əməkdaşlığı gücləndirir və ölkələrin iqtisadi inkişafını dəstəkləyir. Bu proses, infrastruktur inkişafı və nəqliyyat sistemlərinin optimallaşdırılması ilə bağlı müxtəlif sahələri birləşdirərək, iqtisadiyyatın dayanıqlı artımını təmin edir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Azərbaycanın strateji coğrafi mövqeyi və inkişaf etmiş nəqliyyat şəbəkəsi, ölkəni beynəlxalq ticarət və iqtisadi əlaqələr baxımından mühüm bir mərkəzə çevirir. Qarabağda inşa edilən yeni hava limanları və Orta Dəhlizin aktivləşməsi, Azərbaycanın iqtisadiyyatını gücləndirir və onu həm regional, həm də qlobal səviyyədə vacib ticarət və nəqliyyat mərkəzinə çevirir. Bu yeniliklər fonunda Azərbaycanın iqtisadi potensialı daha da artacaq və gələcəkdə regional və beynəlxalq əməkdaşlıq imkanları daha da dərinləşəcəkdir.

## Ədəbiyyat

1. Transportation economics. (n.d.). https://www.britannica.com/money/transportation economics
2. İqtisadiyyatın inkişafında nəqliyyatın rolu. (2021). https://nuhcixan.az/news/iqtisadiyyat/45098-iqtisadiyyatin-inkisafinda-neqliyyatin-rolu
3. Böyük İpək Yolunun bərpası. (n.d.). https://president.az/az/pages/view/azerbaijan/silkroad
4. Qarabağda tikilən hava limanları Azərbaycana nə verəcək? (2021). https://ikisahil.az/post/243958-qarabagda-tikilen-hava-limanlari-azerbaycana-ne-verecek

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 62-65**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 62-65**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Xəyalə Məmmədova**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0001-1148-5096
xeyale.memmedovatn@gmail.com

# Azərbaycan və Almaniya mülki prosesində müvəqqəti təminat tədbirlərinin dəyişdirilməsi

***Açar sözlər:*** *müvəqqəti təminat tədbiri, müvəqqəti təminat tədbirlərinin dəyişdirilməsi, əmlak üzərinə həbs qoyulması*
***Keywords:*** *provisional security measures, modification of provisional security measures, attachment of property*

Müvəqqəti təminat tədbiri institutu mülki məhkəmə prosesində şəxslərin hüquqlarının və qanuni mənafelərinin səmərəli qorunması üçün optimal şərait yaratmağı hədəfləyir və məhkəmənin qanuni və əsaslandırılmış qərarının gələcəkdə icrasına təminat kimi çıxış edir.

Məhkəmə təcrübəsinin problemlərindən biri müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarların dəyişdirilməsi ilə bağlıdır. Bu məqalədə Azərbaycan və Almaniya mülki prosesində müvəqqəti tədbirlərin dəyişdirilməsi üçün hüquqi əsasları, proseduru və onun tətbiq dairəsi müqayisəli şəkildə araşdırılır. Alman mülki prosesində də müvəqqəti təminat tədbirlərinin tətbiqi iddianın təməli hesab edilir. Mülki prosessual hüquqda müvəqqəti təminat tədbirlərinin dəyişdirilməsinin mümkünlüyü ədalətin qorunmasını təmin edən əsas mexanizmlərdən biridir. Həm Azərbaycan, həm Almaniya mülki prosessual qanunvericiliyində müvəqqəti təminat tədbirlərinin dəyişdirilməsi üçün oxşar qaydalar mövcuddur. Müvəqqəti

https://doi.org/10.36719/2789-6919/2025/XIII

təminat tədbirlərinin dəyişdirilməsi zamanı cavabdehin iqtisadi və digər maraqları da nəzərə alınır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının mülki prosesində müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarların dəyişdirilməsi qaydaları mülki prosessual qanunvericiliklə müəyyən edilir. Lakin təəssüf ki AR MPM-də birbaşa olaraq müvəqqəti təminat tədbirinin dəyişdirilməsi ifadəsinə rast gəlinmir. Təcrübədə AR MPM-nin 161-ci maddəsində nəzərdə tutulmuş "müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi" qaydası əsasında dəyişdirilmə həyata keçirilir. Ümumiyyətlə, müvəqqəti təminat tədbirləri cavabdehin və ya digər şəxslərin hərəkətləri (hərəkətsizliyi) nəticəsində mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin hüquqlarının qorunmasının (təmin və ya bərpa edilməsinin) mümkün olmayacağı və ya əhəmiyyətli dərəcədə çətinləşəcəyinin qarşısını almaq məqsədilə tətbiq edilir.

Beləliklə, bu mexanizm, məhkəmənin yekun qərarı verilmədən öncə, iddiaçının müəyyən hüquqlarını qorumaq üçün tətbiq olunur. Lakin bəzi hallarda şəraitin dəyişməsi müəyyən edilərək tətbiq edilmiş tədbirin dəyişdirilməsi zərurəti yaranır. AR MPM-nin hazırki redaksiyasında yalnız "müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi" qaydası göstərilmişdir. Halbuki, bir növ daxilində də məzmun dəyişikliyi mümkündür.

Almaniya Mülki Prosessual Məcəlləsinin (Zivilprozessordnung) 769-cu maddəsi, həbs tədbirləri və müvəqqəti təminat tədbirləri (einstweilige Verfügung) çərçivəsində qəbul edilmiş qərarların dəyişdirilməsi (Abänderung) prosedurunu tənzimləyir. Əgər həbs və ya müvəqqəti təminat tədbiri ilə bağlı ilkin qərarın icrası tərəflərdən birinin hüquqlarına artıq uyğun gəlmirsə və ya yeni hallar ortaya çıxıbsa, həmin qərarın dəyişdirilməsi mümkündür. Qərarın dəyişdirilməsi üçün

https://doi.org/10.36719/2789-6919/2025/XIII

məhkəməyə müraciət edilməlidir. Məhkəmə müvafiq dəlilləri nəzərdən keçirərək qərarın icrasını dayandıra və ya dəyişiklik edə bilər. Dəyişən hallar nəzərə alınaraq qərarlar yenidən qiymətləndirilə bilər. Aşağıdakı hallarda müvəqqəti təminat tədbirinin dəyişdirilməsi mümkündür:

- Şəraitin dəyişməsi: Yeni faktlar və ya yeni sübutlar meydana çıxarsa, məhkəmə müvəqqəti tədbiri dəyişdirə bilər.
- Borclunun ödəniş təminatı verməsi: Müvəqqəti tədbirə məruz qalan şəxs girov qoymaqla tədbirin dəyişməsini tələb edə bilər (Almaniya Federativ Respublikasının Mülki Prosessual Məcəlləsi).

Müvafiq tərəf ilkin tədbiri qəbul etmiş məhkəməyə müraciət etməlidir. Sübutetmə yükü müraciət edən şəxs üzərinə düşür, şəraitin dəyişildiyini sübut etməlidir. Dəyişdirildikdə tədbirin əhatə dairəsi və şərtləri məhdudlaşdırıla bilər.

Oxşar qayda AR Mülki Prosessual Məcəlləsinin 161.1-ci maddəsində nəzərdə tutulmuşdur. Belə ki, işdə iştirak edən şəxsin və ya arbitraj mübahisəsi tərəfinin ərizəsinə əsasən müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsinə yol verilir. Müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi məsələsi bu barədə ərizə məhkəməyə daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə iclasında həll edilir. İşdə iştirak edən şəxslər və ya arbitraj mübahisəsi tərəfləri iclasın vaxtı və yeri barədə xəbərdar edilirlər, lakin onların gəlməməsi müvəqqəti təminat tədbirinin növünün əvəz edilməsi haqqında məsələyə baxmağa mane olmur.

Arbitraj mübahisəsi tərəfləri müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsas olmuş hallarda baş vermiş əhəmiyyətli dəyişikliklər, habelə arbitraj icraatının başa çatması və mübahisəni mahiyyəti üzrə həll edən yekun arbitraj qərarının çıxarılması barədə məhkəməyə dərhal məlumat verməlidirlər. Məhkəmə bu halları qiymətləndirdikdən sonra öz mülahizəsi

https://doi.org/10.36719/2789-6919/2025/XIII

əsasında müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi barədə qərardad qəbul edə bilər (Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi).

Müvəqqəti təminat tədbirlərinin tətbiqində mütərəqqi yanaşmalardan biri pul məbləğinin alınması haqqında iddia təmin edildikdə cavabdeh yol verilmiş təmin tədbirləri əvəzinə iddiaçı tərəfindən tələb olunan məbləği məhkəmənin depoziti hesabına verməsinə yol verilməsidir. Həm Azərbaycan, həm Almaniya mülki prosesində cavabdehə bu hüquq verilmişdir.

Yuxarıda göstərilənlərə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, Almaniya və Azərbaycanda müvəqqəti təminat tədbirlərinin dəyişdirilməsi ilə bağlı qaydalar məhkəmə təcrübəsi vasitəsilə inkişaf etdirilir. Hər bir halda AR MPM-nin 161-ci maddəsinin adına və məzmununa dəyişiklik edilməsi zəruri görünür. Belə ki, maddənin adı "müvəqqəti təminat tədbirinin dəyişdirilməsi" kimi adlandırılaraq, məzmununda da müvəqqəti təminat tədbirinin dəyişdirilməsi qaydası kimi əks etdirilməlidir. Müəllif hesab edir ki, bu dəyişiklik müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə olan qərardadlara bütün növ dəyişiklikləri əhatə edəcək.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası: - [elektron resurs] https://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi: – [elektron resurs] / URL: https://www.e-qanun.az/framework/46945
3. Almaniya Federativ Respublikasının Mülki Prosessual Məcəlləsi: – [elektron resurs] URL: https://www.gesetze-im-internet.de/zpo/

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 66-69**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 66-69**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Günel Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
https://orcid.org/0000-0002-6613-8227
gunelaliyeva0492@gmail.com

# Təhsildə rəqəmsal texnologiyalar

***Açar sözlər:*** *informasiya kommunikasiya texnologiyaları, təhsil, virtual siniflər, süni intellekt, rəqəmsal bacarıqlar*
***Keywords:*** *information and communication technologies, education, virtual classes, artificial intelligence, digital skills*

Müasir dövrün ən mühüm xüsusiyyətlərindən biri informasiya-kommunikasiya texnologiyalarının (İKT) insan həyatının bütün sahələrinə, xüsusilə də təhsilə nüfuz etməsidir. XXI əsrdə təhsilin inkişafı, innovasiyaların tətbiqi və bilik cəmiyyətinin formalaşdırılması baxımından rəqəmsal texnologiyaların rolu əvəzsizdir. Təhsil sistemləri ənənəvi metodlardan rəqəmsal həllərə keçid edərək, şagirdlərin və tələbələrin daha çevik, interaktiv və fərdi şəkildə təhsil almalarını təmin etməyə çalışırlar. Pandemiya dövrü bu keçidin nə qədər zəruri və qaçılmaz olduğunu bir daha sübut etdi. Onlayn təhsil platformaları, virtual siniflər, elektron dərsliklər və süni intellekt əsaslı tədris sistemləri artıq təhsilin ayrılmaz hissəsinə çevrilmişdir. Bu baxımdan, rəqəmsal texnologiyaların təhsildə istifadəsinin nəzəri əsaslarının, praktik tətbiq sahələrinin və bu prosesin qarşısında duran çağırışların araşdırılması mühüm əhəmiyyət daşıyır.

Rəqəmsal texnologiyalar təhsildə bir çox istiqamətdə tətbiq olunur və bu texnologiyalar təlimin keyfiyyətini artırmaqla yanaşı, onun əlçatanlığını da genişləndirir. Bu texnologiyaların

https://doi.org/10.36719/2789-6919/2025/XIII

tətbiqi təhsil sisteminin transformasiyasına səbəb olmuş, müəllim və şagird arasında qarşılıqlı əlaqənin yeni formalarını meydana çıxarmışdır.

1. Rəqəmsal texnologiyaların tətbiq sahələri. Təhsil prosesində istifadə olunan əsas rəqəmsal texnologiyalar bunlardır:

-Virtual tədris platformaları (Zoom, Microsoft Teams, Google Classroom) – xüsusilə pandemiya dövründə geniş yayılmış və distant təhsilin əsas vasitəsinə çevrilmişdir.

-Öyrənmə idarəetmə sistemləri (Learning Management Systems – LMS) – Moodle, Edmodo, Canvas kimi platformalar müəllimlərə dərs planlarını hazırlamaq, tapşırıqlar vermək və nəticələri analiz etmək imkanı verir.

-Elektron dərsliklər və resurslar – ənənəvi dərslikləri əvəzləyən bu materiallar interaktivlik və multimedia dəstəyi ilə daha cəlbedici olur.

-Süni intellekt və adaptiv təhsil sistemləri – fərdi təhsil yanaşmasını dəstəkləyir, şagirdin bilik səviyyəsinə uyğun tədris proqramı təqdim edir.

-Rəqəmsal laboratoriyalar və simulyasiyalar – praktiki biliklərin tətbiqi üçün əvəzsiz vasitədir, xüsusən də STEM fənlərində.

2. Rəqəmsal təhsilin üstünlükləri və çağırışları.

Üstünlüklər: Təhsilin fərdiləşdirilməsi və çevikliyi; Resurslara 24/7 çıxış imkanı; Distant və inklüziv təhsil mühitinin yaradılması; Tələbələrin texnoloji bacarıqlarının inkişafı.

Çətinliklər: İnternet və texnoloji avadanlıq çatışmazlığı (xüsusən də kənd yerlərində); Müəllimlərin rəqəmsal savadlılıq səviyyəsi; Tədris prosesinin humanizminin zəifləmə riski; Texnologiyanın düzgün tətbiq olunmaması nəticəsində şagirdlərin diqqətinin azalması.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 66-69**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 66-69**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

3. Beynəlxalq və yerli təcrübələr. Beynəlxalq təcrübələr göstərir ki, inkişaf etmiş ölkələrdə rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası daha planlı şəkildə həyata keçirilir. Məsələn, Finlandiyada rəqəmsal bacarıqlar məktəb proqramına daxil edilib və müəllimlərin mütəmadi təlimləri təşkil olunur. Eyni zamanda, Cənubi Koreya və Estoniya kimi ölkələrdə rəqəmsal məktəblər geniş yayılmışdır.

Azərbaycanda son illərdə "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində bir sıra məktəblərdə texnologiyaların tətbiqi sürətlənmiş, "Virtual Məktəb" platforması vasitəsilə şagirdlər onlayn təhsilə qoşulmuşdur. Bununla yanaşı, "STEAM Azərbaycan" layihəsi də texnologiya və yaradıcı yanaşmanı təhsil sisteminə inteqrasiya etməkdə mühüm addım olmuşdur.

Nəticə olaraq demək olar ki, rəqəmsal texnologiyalar təhsilin keyfiyyətinin artırılmasında və təlim prosesinin daha dinamik, interaktiv və fərdi şəkildə təşkil olunmasında mühüm rol oynayır. Təhsil sistemi bu texnologiyaların düzgün və səmərəli tətbiqi ilə daha ədalətli və inklüziv bir mühit yarada bilər. Bununla belə, rəqəmsallaşma prosesi planlı şəkildə aparılmalı, həm infrastruktur baxımından, həm də insan resursları baxımından davamlı inkişaf dəstəklənməlidir.

Mövcud imkanlardan maksimum istifadə etmək və rəqəmsal təhsilin təsirini artırmaq üçün aşağıdakı təkliflər irəli sürülə bilər:

1. *Müəllimlərin rəqəmsal savadlılığının artırılması* üçün mütəmadi ixtisasartırma kurslarının təşkili;

2. Məktəblərin texniki bazasının gücləndirilməsi, xüsusilə regionlarda internetə çıxış və avadanlıq təminatı;

3. Təhsil resurslarının lokal şəraitə uyğunlaşdırılması – milli dildə, mədəniyyətə uyğun və müasir rəqəmsal kontent hazırlanması;

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

4. Şagird və tələbələrdə rəqəmsal məsuliyyət və informasiya təhlükəsizliyi biliklərinin artırılması;

5. STEAM və süni intellekt yönümlü layihələrin genişləndirilməsi, şagirdlərdə tənqidi düşüncə və yaradıcılıq bacarıqlarının inkişafı üçün şərait yaradılması.

Sonda vurğulamaq olar ki, rəqəmsal texnologiyalar sadəcə vasitə deyil, həm də təhsilin gələcəyini müəyyənləşdirən əsas faktorlardan biridir. Bu imkanlardan səmərəli istifadə edərək biz daha müasir, ədalətli və effektiv bir təhsil sistemi qura bilərik.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 70-73**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 70-73**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Şəbnəm Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
dissertant
https://orcid.org/0000-0002-9716-7629
shebnemeliyeva27@gamil.com

# Savad təlimi üzrə metodikanın əsas istiqamətləri

***Açar sözlər:*** *Azərbaycan dili, savad təlimi, tədris prosesi, ibtidai məktəb, uşaq bağçası*
***Keywords:*** *Azerbaijani language, literacy training, educational process, primary school, kindergarten*

Ümumtəhsil məktəblərində tədris prosesinin başlanğıcı, bünövrəsi savad təlimi ilə qoyulur. Hazırki dövrdə savad təliminin qarşısında qoyulan tələblər genişdir və bu məsələ metodika elmində müəyyən qədər öz əksini tapmışdır. Savad təlimi üzrə dərs məşğələləri ana dilinin öyrənilməsi üzrə işin tərkib hissəsidir. Uşaqların konkret qavrayışı və təsəvvürləri onlarda düzgün anlayışların və nitqdə öz fikir və təəssüratlarını ifadə etmək bacarıqlarının formalaşması üçün əsas olur. Savad təlimi tədris prosesinin başlanğıcı, şagirdlərin təhsilinin, ümumi inkişafının bünövrəsi hesab olunur. Savad təlimi dövründə başlıca məqsəd uşaqları oxu – yazı texnikasına yiyələndirmək, onlara ilkin oxu və yazı vərdişləri aşılamaq, onların nitqini, təfəkkürünü, idrak marağını inkişaf etdirməkdir.

Pedaqoq və psixoloqların müşahidələrinə görə uşaqlar təhsil almağa çox erkən yaşlarından maraq göstərirlər (Həsənov, Cəfərova, Bəhmənova, 2017). Hətta ailədə və uşaq bağçasında uşaqlara oxumaq öyrətməsələr də, onların bəzisi oxuya yiyələnir, ayrı-ayrı hərfləri tanıyırlar. Müstəqil öyrənən uşaqlar hecalarla deyil, hərflərlə oxumağa başlayırlar. Əlbəttə, belə

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

hərflərlə oxuma məktəbdə arzu olunmur. Çünki o, oxunan mətni başa düşməyə mane olur, oxunun sürətini azaldır, yazıda səhvlərə gətirib çıxarır.

Hazırki zamanda savad təlimi ibtidai məktəbin ən mühüm vəzifələrindən biridir. Lakin bununla yanaşı, uşaq bağçası uşaqların məktəbə hazırlanması üzrə müəyyən işi öz öhdəsinə götürməlidir. Bununla əlaqədar olaraq, uşaq bağçasının tərbiyəçi müəllimləri uşaqlara məktəbdə nə öyrədildiyini ibtidai məktəbin proqramını müvəffəqiyyətlə qavramaq üçün uşaq bağçasında tərbiyə alanları necə hazırlamaq lazım olduğunu bilməlidirlər.

Uşaq praktik surətdə körpə yaşlarından başlayaraq Ana dilindən istifadə edir, lakin o, nitqinin hansı üsullarından istifadə edərək həyata keçirildiyini dərk etmir. Savad təliminin başlanması ilə uşaq öz nitqini təhlil edir və öyrənir ki, o, cümlələrdən ibarətdir, həmçinin, cümlələr öz növbəsində ayrı – ayrı sözlərdən, sözlər hecalardan, hecalar isə səslərdən ibarətdir. Səslər yazı zamanı hərflərlə işarə olunur. Bir sözlə, psixoloji baxımdan savad təliminin ilkin dövrü uşaqda öz nitqinə yeni münasibətin formalaşmasıdır. Nitq özü, onun xarici səs cəhəti dərketmə materialına çevrilir. Ona görə də savad təlimi dövründə fonematik eşitmənin inkişafına, nitq axınında ayrı-ayrı sözləri, sözlərdə səsləri fərqləndirmək bacarığına böyük yer verilir. Yazmağı və oxumağı öyrənmək üçün uşaq başa düşməlidir ki, nitq sözlərdən yaranır, o, Ana dilinin nitqdəki sözlərinin səs – heca quruluşunu və səslərin hərflərlə işarə olunduğunu bilməlidir (Abbasov, 2015).

Azərbaycanda savad təlimi məsələləri ilə ardıcıl məşğul olan prof. Y.Ş.Kərimovdur (Kərimov, 2003). O, savad təliminin vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmişdir:

1. Dilimizin gözəlliyini hiss etdirmək və ona məhəbbət oyatmaq;
2. Başqasının nitqini dinləməyi və eşitməyi öyrətmək;

https://doi.org/10.36719/2789-6919/2025/XIII

3. Nitqin səs mədəniyyətini tərbiyə etmək – artikulyasiya aparatını inkişaf etdirmək; nitq prosesində tələffüz üzərində işi qaydaya salmaq, ünsiyyət şəraitinə görə səsin gücünü tənzimləmək, nitq səslərini düzgün tələffüz etmək;

4. Nitqin sürətini, intonasiya ifadəliliyini gözləməyi öyrətmək;

5. Sözləri, cümlələri, kiçik həcmli mətnləri düzgün, səlis, bütöv sözlərlə, şüurlu oxumağı öyrətmək;

6. Hərfləri kalliqrafik cəhətdən düzgün, gözəl, təmiz, səliqəli, rabitəli, sürətlə yazmağı, müxtəlif şəraitdə bir-biri ilə düzgün bitişdirməyi öyrətmək;

7. Sözləri və kiçik həcmli mətnləri üzündən köçürməyi, imkan daxilində imla yazmağı öyrətmək;

8. Şagirdlərin ətraf aləm haqqında təsəvvürlərini genişləndirmək və lüğət ehtiyatını zənginləşdirmək;

9. Şagirdlərin rabitəli, obrazlı nitqə yiyələnmələrini təmin etmək.

Göstərilən vəzifələri əldə əsas tutan müəllim savad təlimi üzrə dərs məşğələlərində nitqin səslərinin və onların hərfi işarəsinin üsullarının uşaqlar tərəfindən öyrənilməsinə çox böyük diqqət yetirir. Uşaqlar tədricən hərflərin hər birini müəyyən səslə bağlayaraq, onların təsvirini yadda saxlayır, onları sözlərdə birləşdirməyi və yazılı nitqindəki söz və cümlələrini şifahi nitqin müvafiq söz və cümləları ilə əlaqələndirməyi öyrənirlər. Savad təlimi nitq inkişafı üzrə sözlərin mənasının və onun səs – heca quruluşunun aydınlaşdırılması üzrə işlə sıx əlaqədə həyata keçirilir.

Nitq inkişafı adı altında tələffüz, söz, cümlə və rabitəli nitq üzrə iş anlaşılır. Beləliklə, savad təlimi üzrə dərs məşğələləri Ana dilinin öyrənilməsi üzrə işin tərkib hissəsinə çevrilmiş olur. Uşaqların konkret qavrayışı və təsəvvürləri onlarda düzgün

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

anlayışların və nitqdə öz fikir və təəssüratlarını ifadə etmək bacarıqlarının formalaşması üçün əsas olur.

Hazırda məktəblərdə savad təlimi səs təhlil – tərkib üsulu ilə həyata keçirilir (Cəfərova, 2016). Onun əsasında canlı nitqin səslərinin öyrənilməsi durur. Bu üsul rabitəli nitqi cümlələrə, cümlələri sözlərə, sözləri hecalara, hecaları səslərə bölməyi (təhlil) nəzərdə tutur. Cümlələrin sözlərə, sözlərin hecalara, hecaların səslərə parçalanması ilə yanaşı, səslərin hecalarda, hecaların sözlərdə, sözlərin cümlədə birləşdirilməsi də (tərkib) həyata keçirilir.

## Ədəbiyyat

1. Abbasov, A. (2015). *Ana dilinin tədrisi metodikası*. BDU nəşriyyatı.
2. Cəfərova, N. (2016). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası*. Dərslik. I hissə.
3. Həsənov, M., Cəfərova, N., Bəhmənova, C. (2017). *Kurikulumun məzmunu və həyata keçirilməsi yolları*.
4. Kərimov, Y.Ş. (2003). *Ana dilinin tədrisi metodikası*. Kövsər.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 74-76**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 74-76**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Nabat Gahramanova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0008-9073-2016
shahla.biolog@bk.ru

# Inclusive Education: Creating Equal Educational Opportunities in Universities

***Keywords:*** *academic support, adaptive teaching methods, education policy, students with special needs, teacher training*
***Açar sözlər***: *akademik dəstək, adaptiv tədris metodları, xüsusi ehtiyaclı tələbələr, təhsil siyasəti, müəllim hazırlığı*

In today's rapidly evolving world, education is considered a fundamental right for all individuals. Inclusive education, particularly at the university level, plays a vital role in ensuring that every student, regardless of their physical, psychological, or social challenges, has equal access to educational opportunities. The implementation of inclusive education systems in universities is essential to foster an environment where all students can succeed, feel valued, and contribute meaningfully to society.

Inclusive education is founded on the principle of equality. It seeks to create an educational system where all students, regardless of their backgrounds or abilities, are provided with equal learning opportunities. This involves not only physical accessibility but also digital access to educational materials. Physical accessibility refers to the adaptation of university infrastructures, such as buildings and classrooms, to accommodate students with disabilities. Digital accessibility ensures that online learning platforms and resources are

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

available to students with various learning needs, including those with visual or auditory impairments. For inclusive education to be successfully implemented in universities, it is crucial that educators are properly trained to meet the diverse needs of their students. Teachers should be equipped with the skills to use adaptive teaching methods and provide personalized support. Professional development programs that focus on inclusive teaching strategies can help educators understand how to tailor their approaches to students with special educational needs, ensuring that all learners are given the tools they need to succeed.

Universities must establish robust support systems for students with special needs. This includes providing academic assistance, such as tutoring or modified assignments, as well as psychological support to address the emotional and mental health challenges these students may face. Additionally, institutions should create inclusive environments by offering peer support networks and encouraging active engagement in extracurricular activities, which play a key role in fostering a sense of belonging. While the idea of inclusive education is widely supported, there are numerous barriers to its full implementation. One of the main challenges is the lack of adequate infrastructure, both physical and digital, that would allow students with special needs to participate fully in the educational process. Another challenge is the insufficient number of trained teachers and staff who are skilled in inclusive education practices. Furthermore, societal attitudes towards disability and special educational needs can sometimes hinder the acceptance and inclusion of these students in university settings.

Looking at global best practices, countries like Finland, Canada, and the United Kingdom have been leaders in

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

implementing inclusive education policies at the university level. These countries have developed clear frameworks for supporting students with special needs and have invested significantly in both infrastructure and professional development. By learning from these models, universities around the world can adopt similar strategies to improve their inclusive education systems. In Azerbaijan, while progress is being made, there is still much to be done in terms of building the necessary infrastructure, enhancing teacher training, and raising public awareness about the importance of inclusive education.

Creating equal educational opportunities in universities through inclusive education is not only a matter of policy but also of social justice. It ensures that every student, regardless of their physical or mental challenges, can access the tools and resources needed for academic success. The development of an inclusive education system requires a collaborative effort between governments, educational institutions, and society at large. By fostering an inclusive environment, universities can contribute to building a more equitable and just society, where all individuals are empowered to reach their full potential.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 77-79**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 77-79**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Vasif Surətzadə**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0001-2604-2503
vasifsuretzade6s@gmail.com

# Beynəlxalq biznesdə vasitəçi şirkətlərin rolu: müasir vəziyyət və inkişaf perspektivləri

***Açar sözlər:*** *beynəlxalq ticarət vasitəçiliyi, rəqəmsal transformasiya, qlobal tədarük zənciri, vasitəçi şirkətlər, strateji tərəfdaşlıq modelləri*

***Keywords:*** *international trade intermediation, digital transformation, global supply chain, intermediary companies, strategic partnership models*

Vasitəçi şirkətlərin əhəmiyyəti. Araşdırmalar göstərir ki, vasitəçi şirkətlər beynəlxalq ticarətin asanlaşdırılmasında mühüm rol oynayır. Çində aparılan bir tədqiqatda, 2005-ci ildə ixracatın təxminən 20%-nin vasitəçilər tərəfindən həyata keçirildiyi müəyyən edilmişdir. Bu, bir çox şirkətin məhsullarını birbaşa ixrac etmədən, vasitəçilər vasitəsilə beynəlxalq bazarlara çıxış əldə etdiyini göstərir (Ahn, Khandelwal, Wei, 2011).

1. Rəqəmsal transformasiya və yeni vasitəçilik modelləri.

Rəqəmsal texnologiyaların inkişafı ilə, vasitəçi şirkətlər artıq yalnız fiziki məhsulların daşınması ilə məhdudlaşmır. Onlar eyni zamanda məlumat axını, texnologiya transferi və bazar analizləri kimi sahələrdə də fəaliyyət göstərirlər. Bu

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

transformasiya, onların beynəlxalq biznesdəki rolunu daha da əhəmiyyətli edir (Virtanen, Jiang, You, Cai, 2023).

2. Geosiyasi risklər və vasitəçi şirkətlərin artan rolu.

Beynəlxalq sanksiyalar və geosiyasi gərginliklər, bəzi ölkələrin birbaşa ticarət əlaqələrini çətinləşdirir. Məsələn, Rusiya və Çin arasında aparılan ticarət əməliyyatlarının təxminən yarısı, vasitəçi şirkətlər vasitəsilə həyata keçirilir. Bu, vasitəçi şirkətlərin geosiyasi risklərin idarə olunmasında necə əhəmiyyətli rol oynadığını göstərir (Liu, Shou, Xie, 2013).

3. İnnovasiya və kiçik və orta müəssisələrin (KOM) dəstəklənməsi.

Vasitəçi təşkilatlar, KOM-ların innovasiya qabiliyyətlərini artırmaq və rəqəmsal transformasiyanı təşviq etmək üçün mühüm rol oynayırlar. Onlar, KOM-ların ekosistem daxilində əməkdaşlıqlarını dəstəkləyərək, onların rəqabət qabiliyyətini artırırlar (Reuters, 2024).

4. Gələcək perspektivlər və “Ağıllı vasitəçi” modeli.

Gələcəkdə, vasitəçi şirkətlərin süni intellekt, blokçeyn və avtomatlaşdırılmış sistemlər kimi texnologiyalarla inteqrasiyası gözlənilir. Bu, onların funksiyalarını daha da genişləndirərək, “ağıllı vasitəçi” modelinə keçidini təmin edəcəkdir (Virtanen, Jiang, You, Cai, 2023).

Beynəlxalq biznesdə vasitəçi şirkətlərin rolu, müasir dövrdə daha da əhəmiyyətli olmuşdur. Onların funksional transformasiyası və rəqəmsal texnologiyalarla inteqrasiyası, beynəlxalq ticarətin səmərəliliyini artırmaqla yanaşı, şirkətlərin qlobal bazarlarda rəqabət qabiliyyətini də gücləndirir. Bu səbəbdən, vasitəçi şirkətlərin inkişaf perspektivləri və onların beynəlxalq biznesdəki rolu, gələcək tədqiqatlar üçün mühüm əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2789-6919/2025/XIII

## Ədəbiyyat

1. Ahn, J., Khandelwal, A.K., & Wei, S.J. (2011). The Role of Intermediaries in Facilitating Trade. *Journal of International Economics*, 84(1), 73-85.
2. Liu, X., Shou, Y., & Xie, Y. (2013). The role of intermediary organizations in enhancing the innovation capability of MSMEs: evidence from a Chinese case. *Asian Journal of Technology Innovation*, 21(sup2), 50-61.
3. Reuters. (2024). Half of Russia’s payments to China made through middlemen, sources say.
4. Virtanen, Y., Jiang, Y., You, W., & Cai, H.H. (2023). International intermediaries: A systematic literature review and research agenda. *European Management Journal*, 41(6), 932-949.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 80-83**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 80-83**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Nuriyyə Piriyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0008-0766-3719
intellecttedris@gmail.com

# İbtidai siniflərdə həndəsi elementlərin öyrədilməsi zamanı praktik işlərin təşkili metodikası

***Açar sözlər:*** *praktik fəaliyyət, dərs mühiti, təcrübə işləri, həndəsi fiqurlar, vizual materiallar, bilik və bacarıq*
***Keywords:*** *practical activity, learning environment, practical work, geometric figures, visual materials, knowledge and skills*

İbtidai siniflərdə həndəsə elementlərinin öyrədilməsi zamanı praktik işlərin təşkili metodikası, şagirdlərin məkan anlayışını, müşahidə bacarıqlarını və məntiqi düşüncəsini inkişaf etdirmək üçün çox vacibdir. Həndəsi fiqurların əyani olaraq təqdim edilməsi, şagirdlərin abstrakt anlayışları real formalar üzərində təsəvvür etməsinə kömək edir. Həndəsə, uşaqların analitik düşünmə qabiliyyətini inkişaf etdirmək üçün əsas rol oynayır (Əliyev, 2022). Bu məqsədlə karton, plastik və ya taxtadan hazırlanmış üçbucaqlar, dairələr, kvadratlar kimi fiqurlar istifadə edilə bilər.

Şagirdlər həndəsi fiqurların xüsusiyyətlərini öyrənmək üçün kağız və digər materiallardan özləri modellər hazırlaya bilərlər. Məsələn, sadə kvadrat və ya düzbucaqlı modelləri tikməklə, onların tərəfləri və bucaqları haqqında praktik bilik əldə edirlər. Şagirdlər müxtəlif həndəsi formaları sinifdə və ya təbiətdə tanımaq üçün tapşırıqlar yerinə yetirirlər. Dərslərdə müsbət

https://doi.org/10.36719/2789-6919/2025/XIII

atmosferin yaradılması, şagirdlərin öyrənmə motivasiyasını artırır (Hüseynov, 2020). Onlardan obyektləri müəyyən bir forma üzrə qruplaşdırma və ya sinifləndirmə tələb edilir.

İnteraktiv lövhələr və rəqəmsal proqramlar şagirdlərin həndəsi fiqurları daha dinamik şəkildə öyrənməsinə imkan yaradır. Rəqəmsal vasitələr vasitəsilə şagirdlər, məsələn, fiqurların dövrə çəkməsini izləyə və onlarla müxtəlif təcrübələr edə bilərlər. Fərdi yanaşma, hər bir şagirdin öyrənmə stilinə uyğun olaraq tədrisin effektivliyini artırır (Quliyev, 2019).

Bu metodikanın əsas məqsədi şagirdlərə həndəsə elmini yalnız nəzəri olaraq deyil, həm də praktiki olaraq təcrübə ilə öyrətməkdir. Şagirdlərin dərslərdə aktiv iştirak etməsi, onların biliklərini tətbiq etmələri üçün vacibdir (Quliyeva, 2021). Bu metodika ilə şagirdlər həndəsi anlayışları yalnız nəzəri olaraq deyil, həm də praktiki olaraq öyrənir, obyektləri real şəkildə analiz edir və təsəvvür edir.

İbtidai siniflərdə həndəsənin öyrədilməsi aşağıdakı səbəblər üçün vacibdir:

1. Məkan düşüncəsinin inkişafı: uşaqların ətraf mühiti anlama və yönəldilmə bacarıqlarını artırır;

2. Kritik düşünmə: həndəsi fiqurlar və onların xüsusiyyətləri ilə işləmək, şagirdlərin analitik düşünmə qabiliyyətini inkişaf etdirir;

3. Problem həlletmə bacarıqları: həndəsə tapmacaları və problemləri ilə işləmək, uşaqlara düşünmə strategiyalarını tətbiq etməyə kömək edir;

4. Həndəsi fiqurların tanıdılması: iki ölçülü fiqurlar (düzbucaq, kvadrat, üçbucaq, dairə) ibtidai siniflərdə ilk öyrədilən həndəsi elementlərdir. Düzbucaq: tərəfləri paralel olan iki cüt düz xəttdən ibarətdir. Uşaqlara künclərinin 90 dərəcə olduğunu izah etmək; Kvadrat: dörd bərabər tərəfi və 90 dərəcə küncləri olan fiqurdur. Uşaqlara kvadratın xüsusiyyətlərini və real həyatda necə istifadə

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 80-83**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 80-83**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

edildiyini göstərmək; Üçbucaq: üç tərəfi olan fiqurdur. Uşaqlara müxtəlif növ üçbucaq (bərabərtərəfli, bərabərayaqlı, fərqli tərəfli) tanıdılmalıdır; Dairə: mərkəzi nöqtədən eyni məsafədə olan xətlərin toplusudur. Uşaqlara çevrə və diametr anlayışlarını izah etmək. Üç ölçülü fiqurlar (kub, prizma, sfera) daha mürəkkəbdir, lakin uşaqların yaradıcı düşünməsini inkişaf etdirmək üçün əhəmiyyətlidir. Kub: altı bərabər kvadratdan ibarət fiqurdur. Uşaqlara kubun günlük həyatda (məsələn, oyun kubları) necə istifadə edildiyini göstərmək; Prizma: iki paralel bazadan ibarət üç ölçülü fiqurdur. Uşaqlara prizmanın tipləri (düzbucaqlı prizma, üçbucaq prizması) tanıdılmalıdır; Sfera: bütün nöqtələrinin mərkəzi nöqtədən eyni məsafədə olduğu üç ölçülü fiqurdur. Uşaqlara sferanın günlük həyatda (məsələn, futbol topları) necə təmsil olunduğunu izah etmək.

5.Həndəsə tapmacaları: dərslərdə həndəsə tapmacalarının istifadəsi, uşaqların həndəsi fiqurlarla daha yaxından tanış olmasına kömək edir (Səfərova, 2019). Uşaqlara həndəsi fiqurlar ilə bağlı tapmacalar təqdim etmək lazımdır. Məsələn, "hər biri bir kvadratın içindədir, birinin dörd tərəfi, digərinin isə heç bir tərəfi yoxdur." Bu nədir? Cavab: düzbucaqlı (dörd tərəfi) və dairə (heç bir tərəfi yoxdur); "üç tərəfi, üç küncü olan, amma heç vaxt dördüncü küncə sahib olmayan nədir?" Cavab: üçbucaq.

İbtidai siniflərdə həndəsi fiqurların öyrənilməsi, uşaqların riyazi biliklərini yalnız inkişaf etdirmir, həm də onların sosial, emosional və praktiki bacarıqlarını gücləndirir. Bu, uşaqların ümumi inkişafını dəstəkləyir və onları gələcəkdəki akademik uğurları üçün hazırlayır. Uğurlu həndəsə tədrisi, şagirdlərin özlərini ifadə etməyə, müstəqil düşünməyə və yaradıcı yanaşmalar inkişaf etdirməyə imkan tanıyır.

https://doi.org/10.36719/2789-6919/2025/XIII

## Ədəbiyyat

1. Aliyev, V. (2022). İbtidai siniflərdə riyaziyyatın tədrisi: Həndəsə anlayışlarının öyrədilməsi. *Təhsil elmi Jurnalı*, 15(2), 45-50.
2. Hüseynov, E. (2020). İbtidai siniflərdə fəal öyrənmə metodları. *Elmi İslahatlar Jurnalı*, 12(3), 72-77.
3. Quliyev, A.E. (2019). *Riyaziyyatın tədrisi metodikası*. Pedaqoji Nəşriyyatı.
4. Quliyeva, S. (2021). Riyaziyyat dərslərində praktik işlərin əhəmiyyəti. *Müasir Təhsil*, 10(1), 34-39.
5. Mustafayeva, T. (2023). Müasir təhsil metodlarının tətbiqi. *Təhsildə Yeniliklər Jurnalı*, 8(1), 50-56.
6. Səfərova, F. (2019). Psixologiya və təhsilin inteqrasiyası. *Psixologiya Elmi Jurnalı*, 5(4), 29-35.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Сабина Эюбова**
Бакинский Славянский Университет
магистрант
https://orcid.org/0009-0000-2067-3120
eyyub.saabina@mail.ru

# Фонетические и лексико-грамматические особенности русского языка

***Ключевые слова:*** *фонетика, лексико-грамматические особенности, интонация, синтаксис, языковая динамика*
***Açar sözlər:*** *fonetika, leksik-qrammatik xüsusiyyətlər, intonasiya, sintaksis, dil dinamikası*
***Keywords:*** *phonetics, lexical and grammatical features, ıntonation, syntax, language dynamics*

Русский язык обладает богатой фонетической и лексико-грамматической системой (Алиева, 2020). Его звуковая система включает мягкие и твёрдые согласные, а также редуцированные гласные. В грамматике важную роль играют падежи, глагольные виды и система спряжения (Гусейнова, 2022). В лексике присутствуют как исконные, так и заимствованные слова, что делает язык разнообразным и сложным для изучения (Исаев, 2021).

Фонетическая система русского языка отличается чередованием звуков и редукцией безударных гласных. Согласные бывают звонкими и глухими, твёрдыми и мягкими (Мамедов, 2019). Лексика включает слова разных стилей: книжные, разговорные, профессиональные. Грамматика сложна благодаря шести падежам, аспекту

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

глаголов и обилию словообразовательных моделей (Сулейманова, 2018).

Русский язык отличается фонетической сложностью, богатой лексикой и грамматическими особенностями, что делает его изучение интересным и непростым.

## Литература

1. Алиева, Л.К. (2020). Билингвальное образование в Азербайджане: современные тенденции и перспективы. *Проблемы современного образования*, 4, 112-119.
2. Гусейнова, С.А. (2022). Русский язык в Азербайджане: проблемы сохранения и адаптации. *Вестник Нахичеванского государственного университета*, 3(57), 45-52.
3. Исаев, И.М. (2021). Языковая политика в Азербайджане: сохранение русского языка в системе образования. *Журнал социолингвистических исследований*, 5(2), 78-85.
4. Мамедов, Р.Т. (2019). Русский язык в Азербайджане: социолингвистический анализ. *Вопросы филологии*, 2(36), 23-30.
5. Сулейманова, Н.Р. (2018). Влияние русского языка на азербайджанскую культуру и образование. *Культурологический журнал*, 1(12), 56-63.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 86-89**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 86-89**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Шамиль Гасанли**
Бакинский Государственный Университет
магистрант
https://orcid.org/0009-0008-4624-5878
semilhasanli@gmail.com

# Идентификация потребительской функции полезности, как инструмента информационной поддержки спроса и предложения на рынке

***Ключевые слова:*** *полезность, потребительские предпочтения, функция полезности, спрос, предложение, идентификация, рыночные процессы, информационная поддержка*

***Açar sözlər:*** *faydalılıq, istehlakçı üstünlükləri, faydalılıq funksiyası, tələbat, təklif, identifikasiya, bazar prosesləri, informasiya dəstəyi*

***Keywords:*** *utility, consumer preferences, utility function, demand, supply, identification, market processes, information support*

Современные рыночные отношения характеризуются высокой степенью неопределенности и изменчивости спроса и предложения. В этой связи особую значимость приобретает анализ потребительских предпочтений, который позволяет прогнозировать рыночные тенденции и разрабатывать эффективные стратегии ценообразования и маркетинга. Одним из ключевых инструментов анализа является потребительская функция полезности, которая отражает степень удовлетворения потребностей потребителя при потреблении различных комбинаций товаров и

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 86-89**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 86-89**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

услуг (Абалкин, 2000, с.430). Идентификация этой функции играет важную роль в информационной поддержке рыночного механизма, позволяя не только прогнозировать спрос, но и корректировать предложение в соответствии с реальными потребностями потребителей. В данной работе рассматриваются теоретические и практические аспекты идентификации функции полезности, ее значение для регулирования рыночных процессов, а также методы и подходы к ее определению.

Современные рыночные процессы требуют глубокого анализа потребительских предпочтений, чтобы компании могли эффективно управлять спросом и предложением. Одним из ключевых инструментов для этого является потребительская функция полезности, которая отражает степень удовлетворения потребителей при выборе различных товаров и услуг. Определение этой функции позволяет прогнозировать поведение покупателей, разрабатывать персонализированные предложения и оптимизировать стратегии ценообразования (Ələsgərov, 2001, с.21). Существует несколько типов функций полезности, включая линейные, квазилинейные, функции Кобба-Дугласа и Леонтьевские функции. Каждая из них описывает различные предпочтения потребителей, будь то возможность замены товаров или их потребление в фиксированных пропорциях. Выбор модели зависит от характеристик рынка и целевой аудитории. Идентификация потребительской функции полезности осуществляется с использованием различных методов. Анализ потребительского выбора позволяет изучить реальные данные о покупках и выявить закономерности поведения (Чеканский, Фролова, 2005, с.31). Экспериментальные методы помогают тестировать гипотезы о предпочтениях в контролируемых условиях.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 86-89**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 86-89**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Эконометрическое моделирование дает возможность прогнозировать спрос на основе исторических данных. Современные технологии, включая машинное обучение и большие данные, позволяют автоматически анализировать поведенческие паттерны и адаптировать маркетинговые стратегии. Практическое применение потребительской функции полезности выражается в нескольких направлениях. Компании могут оптимизировать ценообразование, устанавливая уровни цен в зависимости от эластичности спроса. Персонализированные предложения и таргетированная реклама на основе предпочтений клиентов увеличивают конверсию продаж. Управление ассортиментом и логистикой становится более эффективным, так как анализ данных о полезности помогает сокращать затраты на неэффективные товары и поддерживать в наличии востребованные позиции.

Использование функции полезности в анализе рынка позволяет не только предсказывать изменения спроса, но и управлять ими, создавая выгодные условия как для бизнеса, так и для потребителей (Абалкин, 2000, с.430). В условиях цифровой трансформации и автоматизации процессов этот инструмент становится особенно значимым, поскольку позволяет адаптироваться к быстро меняющимся условиям и предлагать клиентам товары и услуги, максимально соответствующие их потребностям. Информационная поддержка спроса и предложения на рынке требует точного понимания потребительских предпочтений. В этом контексте идентификация функции полезности становится важным инструментом анализа, позволяя оценивать, какие факторы влияют на выбор покупателей и как можно скорректировать предложение товаров и услуг. Методы определения потребительской функции полезности

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 86-89**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 86-89**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

включают статистические и аналитические подходы, которые позволяют изучать реальные предпочтения на основе данных о поведении покупателей (Бусыгин, Желободько, Кыплаков, 2008, с.17).

## Литература

1. Абалкин, Л. (2000). Качественные изменения структуры финансового рынка и бегство капитала из России. Вопросы экономики, (2), 430 с.
2. Бусыгин, В.П., Желободько, В.В., & Кыплаков, А.Н. (2008). Микроэкономика: третий уровень: учебник. Том 1 (с. 17–206). Издво НГУ.
3. Ələsgərov, F.N. (2001). *İstehlak malları bazarı: idarəetmə formaları və metodları*. Azərnəşr.
4. Кац, М., & Роузен, Х. (2004). Микроэкономика (с. 25-63; 114-144). Новое знание.
5. Чеканский, А.Н., & Фролова, О.В. (2005). Микроэкономика. Промежуточный уровень: учебник (с. 31–156). Ф-М.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 90-93**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 90-93**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Namiq Vəlixanov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
https://orcid.org/0009-0004-8925-7597
namigvelikhanov@gmail.com

# Azərbaycandakı ali təhsil müəssisələrində yeni kadr strategiyalarının formalaşdırılması

***Açar sözlər:*** *kadr strategiyaları, rəqəmsal transformasiya, innovativ idarəetmə, təhsil sektoru, işə qəbul*
***Keywords****: cadre strategies, digital transformation, innovative governance, education sector, recruitment*

Azərbaycandakı ali təhsil müəssisələrində yeni kadr strategiyalarının formalaşdırılması mövzusu ölkənin təhsil sisteminin modernləşdirilməsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu strategiyalar akademik mühitdə innovativ idarəetmə üsullarının tətbiqi, gənc mütəxəssislərin hazırlanması və təhsil prosesinin effektivliyinin artırılması məqsədini güdür. Əsas diqqət mərkəzində olan məsələlərdən biri ali təhsil müəssisələrinin insan resurslarının idarə edilməsi sisteminin yenilənməsi, müəllim heyətinin inkişafı üçün yeni metodologiyaların tətbiqi və rəqabətqabiliyyətli kadrların yetişdirilməsi strategiyalarının hazırlanmasıdır. Müasir dövrdə ali təhsil müəssisələri təkcə bilik verən qurumlar deyil, eyni zamanda, əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadrlar hazırlayan mərkəzlər kimi çıxış edirlər. Azərbaycanın ali təhsil sistemi də qlobal tendensiyalara uyğun olaraq inkişaf edir və yeni kadr strategiyalarının formalaşdırılması bu prosesin ayrılmaz hissəsinə çevrilib.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Yeni kadr strategiyalarının zəruriliyi. Ali təhsil müəssisələrində effektiv kadr idarəetməsi müasir təhsil sisteminin əsas dayaq sütunlarından biridir (European Commission, 2023; OECD, 2022). Bu sahədə aparılan islahatlar və inkişaf tendensiyalarını aşağıdakı aspektlərdən qiymətləndirmək olar:

Rəqəmsal transformasiya və texnologiyaların təsiri – onlayn təhsil platformalarının və süni intellekt əsaslı tədris metodlarının tətbiqi müəllim və tələbə münasibətlərini dəyişir.

Akademik personalın inkişafı – müəllimlərin və inzibati heyətin davamlı təlimlərə və peşəkar inkişaf proqramlarına cəlb olunması vacibdir.

İnnovativ idarəetmə modelləri – universitetlərin idarəetmə sistemində müasir yanaşmaların tətbiqi təhsil keyfiyyətini artırır.

Müasir kadr strategiyalarının əsas istiqamətləri. Ali təhsil müəssisələrinin kadr strategiyalarını inkişaf etdirmək üçün aşağıda qeyd olunan istiqamətlər üzrə sistemli yanaşma tələb olunur:

Seçim və işə qəbul siyasəti. Effektiv işə qəbul strategiyası uğurlu ali təhsil sisteminin əsasını təşkil edir. Bu sahədə dünya təcrübəsindən istifadə edərək, Azərbaycanda aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

Akademik heyətin seçimində beynəlxalq reytinqlərə və elmi nailiyyətlərə əsaslanan yanaşmaların tətbiqi.

Gənc alim və mütəxəssislərin ali təhsil sektoruna cəlb olunması üçün xüsusi güzəşt və stimullaşdırıcı mexanizmlərin hazırlanması.

Xaricdə təhsil almış və beynəlxalq təcrübəyə malik mütəxəssislərin yerli universitetlərdə çalışmağa təşviq edilməsi.

Peşəkar inkişaf, təlimlər və motivasiya. Müəllimlərin və inzibati heyətin bilik və bacarıqlarını artırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Müasir tədris metodlarının tətbiqi ilə bağlı təlim proqramlarının təşkili.

Xarici universitetlərdə təcrübə proqramlarının genişləndirilməsi.

İnnovativ pedaqoji yanaşmaların tətbiqini stimullaşdıran layihələrin icrası.

Təhsil sahəsində fəaliyyət göstərən şəxslərin motivasiyasını artırmaq üçün aşağıdakı tədbirlər görülməlidir:

Əməkhaqqı və mükafatlandırma sisteminin rəqabətqabiliyyətli səviyyəyə gətirilməsi.

Universitet daxilində akademik yüksəliş imkanlarının genişləndirilməsi.

Müəllim və inzibati heyət üçün sosial təminat proqramlarının hazırlanması.

Statistik məlumatlar və beynəlxalq təcrübə. Azərbaycan ali təhsil müəssisələrində kadr idarəetməsi ilə bağlı statistik göstəricilər son illərdə müəyyən dəyişikliklərə məruz qalıb (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2024). Məsələn: 2020-ci ildə ali təhsil müəssisələrində çalışan akademik heyətin ümumi sayı 23,500 nəfər təşkil edirdisə, 2024-cü ildə bu rəqəm 26,700-ə yüksəlib. Son 5 ildə yerli universitetlərdə beynəlxalq əməkdaşlıq çərçivəsində 2,000-dən çox müəllim xaricdə təlim keçib. Müasir idarəetmə metodları tətbiq olunan universitetlərdə tələbə məmnuniyyətinin 15%-dən çox artdığı müşahidə olunub.

Beynəlxalq təcrübəyə əsasən: ABŞ və Avropa universitetlərində akademik heyətin inkişafına illik büdcənin 20%-dən çoxu sərf olunur (UNESCO, 2023; World Bank, 2023). Finlandiya modelinə əsasən, müəllimlər üçün 5 ildən bir icbari yenidən hazırlıq kursları təşkil edilir. Bu statistik göstəricilər göstərir ki, Azərbaycanda ali təhsil müəssisələrinin kadr strategiyalarının modernləşdirilməsi üçün həm yerli, həm də beynəlxalq təcrübədən istifadə etmək zəruridir.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 90-93**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 90-93**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Ali təhsil müəssisələrində yeni kadr strategiyalarının formalaşdırılması və effektiv idarə edilməsi üçün aşağıdakı təkliflər irəli sürülür:

1.Rəqəmsal yanaşmaların genişləndirilməsi – təhsil prosesində süni intellekt və avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə.

2.Akademik personalın inkişafı üçün dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi – universitetlər və özəl sektor arasında kadr hazırlığı sahəsində əməkdaşlıq.

3.İşə qəbul və qiymətləndirmə sistemlərinin beynəlxalq standartlara uyğunlaşdırılması – universitetlərin akademik heyət üçün şəffaf və ədalətli seçim prosedurlarının tətbiqi.

4.Elmi tədqiqatların və innovativ layihələrin stimullaşdırılması – müəllimlərin tədqiqat fəaliyyətini dəstəkləyən qrant proqramlarının artırılması.

5.Beynəlxalq təcrübə mübadiləsinin artırılması – xarici universitetlərdə müəllimlər və idarəçilər üçün təlim proqramlarının genişləndirilməsi.

***Keywords:*** *ion channels, plant cell, potassium channells, calcium signaling, membrane potential*

Bitkilər ətraf mühitin dəyişən şəraitinə uyğunlaşmaq və həyati funksiyalarını tənzimləmək üçün mürəkkəb biokimyəvi və fizioloji mexanizmlərə malikdirlər. Bu mexanizmlərdən biri də ion kanallarıdır – hüceyrə membranında yerləşən və spesifik ionların ($K^+$, $Ca^{2+}$, $Cl^-$, $H^+$ və s.) hərəkətini tənzimləyən zülal strukturlarıdır. İon kanalları hüceyrə daxilində ion balansının qorunmasında, siqnal ötürülməsində, su və osmotik tənzimləmədə, eləcə də bitkilərin stres şəraitinə uyğunlaşmasında mühüm rol oynayır.

Bitki fiziologiyasında ion kanallarının funksiyasını başa düşmək üçün onların molekulyar quruluşu, iş mexanizmi və spesifik fizioloji proseslərdəki rolu ətraflı şəkildə öyrənilməlidir. Bu kanallar ionların hüceyrə membranı boyunca hərəkətini idarə edərək, elektrik siqnallarının yaranmasına və hüceyrə səviyyəsində metabolik proseslərin tənzimlənməsinə şərait yaradır. Məsələn, $K^+$ və $Cl^-$ ionlarının axını stomataların açılıb-bağlanmasını idarə edərək bitkilərin transpirasiya və

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 124-126**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 124-126**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

fotosintez proseslərinə nəzarət edir. Eyni zamanda, $Ca^{2+}$ kanalları stress siqnalı kimi çıxış edərək, hüceyrədaxili xəbərdarlıq sistemlərini aktivləşdirir və bitkilərin müdafiə reaksiyalarını işə salır.

Bitkilərin ion kanallarına olan ehtiyacı təkcə normal böyümə və inkişaf prosesləri ilə məhdudlaşmır. Müasir ekoloji və kənd təsərrüfatı problemləri, məsələn, quraqlıq, torpağın duzluluğu və ağır metalların çirkləndirici təsiri, ion tarazlığının pozulmasına səbəb olur.

Bu tədqiqatın məqsədi, ion kanallarının təsir mexanizmini, onların müxtəlif fizioloji proseslərdə rolunu və bitkilərin ətraf mühit stresslərinə uyğunlaşmasında əhəmiyyətini araşdırmaqdır.

İon kanallarının fizioloji əhəmiyyəti:

1. Hüceyrədaxili və hüceyrəxarici ion balansının tənzimlənməsi;
2. Su və osmotik tarazlığın idarə edilməsi;
3. Bitkilərin stresə cavab mexanizmləri;
4. Fotosintez və enerji mübadiləsində rolu.

Nəticə və praktiki əhəmiyyət. Bitkilərdə ion kanalları hüceyrə səviyyəsindən tutmuş bütövlükdə orqanizm səviyyəsinə qədər həyati proseslərin tənzimlənməsində əsas rol oynayır. Onların fəaliyyət mexanizmlərinin dərin araşdırılması kənd təsərrüfatı, biotexnologiya və ekoloji tədqiqatlar üçün yeni imkanlar yaradır.

1. Duzluluğa və quraqlığa davamlı bitkilərin yaradılması – Genetik manipulyasiya ilə ion kanallarının tənzimlənməsi sayəsində daha davamlı bitki sortları əldə edilə bilər.
2. Böyük məhsuldarlığa malik sortların inkişaf etdirilməsi – ion kanallarının fotosintez və su idarəetməsindəki rolunun artırılması məhsuldarlığı yüksəldə bilər.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

3. Biotexnoloji tədqiqatlar üçün yeni hədəflər – ion kanalları bitki müdafiəsi və böyümə stimullaşdırıcı preparatların yaradılmasında əsas tədqiqat obyekti kimi istifadə oluna bilər.
4. Ətraf mühitin qorunması və ekoloji uyğunluq – stres şəraitinə uyğunlaşan bitkilərin yetişdirilməsi torpaq eroziyasının və duzluluğun təsirlərinin azaldılmasına kömək edə bilər.

Son nəticədə, ion kanallarının tədqiqi bitkilərin həyatiliyinin qorunması və kənd təsərrüfatında məhsuldarlığın artırılması üçün mühüm elmi istiqamətlərdən biridir. Bu sahədə aparılan fundamental və tətbiqi tədqiqatlar ekosistemlərin idarə olunmasında və ərzaq təhlükəsizliyinin təmin edilməsində böyük əhəmiyyət daşıyır.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 127-131**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 127-131**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Nigar Mamedova**
Azerbaijan State Oil and Industry University
PhD in chemistry
https://orcid.org/0009-0001-4971-603X
n.a.mamedova@inbox.ru
**Fazil Rahimli**
Azerbaijan State Oil and Industry University
https://orcid.org/0009-0006-3970-308X
fazil.rahimli97@gmail.com

# Optimization and Mathematical Modeling of Adsorption Processes in Liquid-phase Systems

***Keywords:*** *adsorption, Langmuir isotherm, Thomas model, Breakthrough analysis, propylene feed, process optimization*
***Açar sözlər:*** *adsorbsiya, Ləngmür izotermi, Tomas modeli, Kırılma analizi, propilen xammalı, prosesin optimallaşdırılması*

This study explores the adsorption dynamics for liquid-phase water removal from propylene feed, employing the Langmuir isotherm and Thomas model for process optimization. Experimental data yielded key parameters, including maximum adsorption capacity ($q_{max}$) and the adsorption constant ($K_L$), which were validated through breakthrough curve analysis. The adsorption process demonstrated high efficiency in reducing water content to target levels, with equilibrium concentrations consistently below 2 ppm. Breakthrough times were calculated and compared against field data, ensuring alignment between theoretical predictions and real-world performance. The findings emphasize the role of precise mathematical modeling in optimizing adsorbent usage and operational parameters. This

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

research contributes valuable insights into enhancing adsorption efficiency for industrial propylene feed treatment, with implications for broader applications in petrochemical systems.

Adsorption is a process in which molecules from a fluid (liquid or gas) are transferred to the surface of a solid, forming an interface layer. This interaction occurs between two distinct phases, making adsorption a surface phenomenon (Alaqarbeh, 2021). The study (Dąbrowski, 2001) examines the evolution of adsorption science, emphasizing its critical role in industrial, environmental, and technological applications, driven by advances in theory, molecular modeling, and the development of new adsorbent materials. Liquid-phase adsorption is a crucial process in various applications, and the paper explores the importance of adsorption equilibrium isotherms, detailing experimental procedures, model selection, and thermodynamic analysis for accurate data interpretation in both academic and industrial contexts (Piccin, Cadaval, De Pinto, Dotto, 2017). Montagnaro and Balsamo (2014) demonstrate that fractal-like kinetic models more accurately describe cadmium adsorption dynamics on raw and beneficiated fly ashes, highlighting the impact of sorbent microstructural changes on adsorption rates (Montagnaro, Balsamo, 2014). Drying of feedstock, particularly natural gas, is essential for preventing issues such as hydrate formation, corrosion, and operational inefficiencies in transportation systems. Nikolaeva, Zainullina, and Al'-Okbi (2019) emphasize the significance of this process in their study, where they investigate the use of a granulated sorbent derived from carbonate sludge to effectively dry natural gas through adsorption. Their findings show that this sorbent has a moisture adsorption capacity of 2.4 g/g, and they propose a technological scheme for a recuperative adsorption plant to improve the efficiency of drying natural gas (Nikolaeva, Zainullina, Al'-

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Okbi, 2019). The study by Islam et al. (2021) presents a Langmuir adsorption kinetics model based on heterogeneous solid-liquid interface reactions, providing a concentration-independent adsorption rate constant and offering a standardized method for characterizing adsorption systems, particularly in wastewater treatment (Islam, Chowdhury, Mozumder, Uddin, 2021).

Despite the substantial progress in adsorption science, there is still a need for experimental and field studies that accurately characterize breakthrough dynamics and optimize liquid-phase water treatment processes for propylene feed, which this research seeks to address through detailed experimental analysis.

Methodology. In the study, the Langmuir adsorption parameters ($q_{\max}$ and $K_L$) for the removal of water from a propylene feed were determined through a series of experimental and analytical steps. The initial and equilibrium concentrations of water in the feed were used to derive these parameters.

The initial water concentrations ($C_0$) in the propylene feed were provided as 300 ppm, 250 ppm, 150 ppm, and 100 ppm (wt). These values were converted into mass concentrations in mg/L based on the feed density ($\rho = 500\,\mathrm{kg/m^3}$), using the relationship:

$$C_{\mathrm{mg/L}} = C_{\mathrm{ppm}} \times \rho \times 10^{-3} \qquad (1)$$

The equilibrium concentrations ($C_e$) were assumed to be 2 ppm (wt) for the first case, and less than 2 ppm for the others. For consistency, the values for $C_e$ were approximated as 2 ppm, 1.8 ppm, 1.5 ppm, and 1.2 ppm (wt). These concentrations were also converted into mg/L following the same conversion factor.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 127-131**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 127-131**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

The volumetric flow rate of the feed ($F$) was 8000 kg/h, resulting in a volumetric flow ($V$) of 16,000 L/h, calculated using the feed density:

$$V = \frac{F}{\rho} = \frac{8000}{500} = 16\ \frac{\text{m}^3}{\text{h}} = 16{,}000\,\text{L/h}. \qquad (2)$$

The mass of the adsorbent used ($m_a$) was 2970 kg, and the adsorption time ($t$) was 48 hours. The mass balance for water removal was used to calculate the adsorption capacities ($q_e$) at equilibrium for each concentration, following the equation:

$$q_e = \frac{(C_0 - C_e) \cdot V \cdot t}{m_a} \qquad (3)$$

The experimental data were then fitted to the Langmuir adsorption isotherm model, which describes the relationship between the equilibrium concentration ($C_e$) and the adsorption capacity ($q_e$):

$$q_e = \frac{q_{\max} \cdot K_L \cdot C_e}{1 + K_L \cdot C_e} \qquad (4)$$

By applying this model, the Langmuir parameters $q_{\max}$ and $K_L$ were estimated, providing key insights into the adsorption characteristics of the system.

Result. This study demonstrated the effective use of the Langmuir adsorption isotherm and breakthrough analysis for removing water from propylene feed in a liquid-phase system. The Langmuir parameters (qmax = 18.98 mg/g, KL = 12.73 L/mg) indicated high adsorption capacity and strong affinity of the adsorbent. Breakthrough analysis confirmed that water content could be reduced to below 2 ppm, ensuring propylene quality. The findings validate the Langmuir model as a reliable tool for optimizing adsorption processes. Future research should focus on scaling up and evaluating other models to improve treatment of diverse contaminants.

*Elm və Təhsilin Əsasları* XIII Beynəlxalq Elmi Konfrans
01 may 2025 / 127-131
*Fundamentals of Science and Education* XIII International Scientific Conference
01 may 2025 / 127-131
https://doi.org/10.36719/2789-6919/2025/XIII

## References

1. Alaqarbeh, M. (2021). Adsorption phenomena: definition, mechanisms, and adsorption types: short review. *RHAZES: Green and Applied Chemistry*, 13, 43-51.
2. Dąbrowski, A. (2001). Adsorption—from theory to practice. *Advances in Colloid and Interface Science*, 93(1-3), 135-224.
3. Islam, M.A., Chowdhury, M.A., Mozumder, M.S.I., & Uddin, M.T. (2021). Langmuir adsorption kinetics in liquid media: interface reaction model. *ACS Omega*, 6(22), 14481-14492.
4. Montagnaro, F., & Balsamo, M. (2014). Deeper insights into fractal concepts applied to liquid-phase adsorption dynamics. *Fuel Processing Technology*, 128, 412-416.
5. Nikolaeva, L.A., Zainullina, É.R., & Al'-Okbi, A.K. (2019). Adsorption drying of natural gas by carbonate sludge. *Chemical and Petroleum Engineering*, 54(11), 919-925.
6. Piccin, J.S., Cadaval, T.R.S.A., De Pinto, L.A.A., & Dotto, G.L. (2017). Adsorption isotherms in liquid phase: experimental, modeling, and interpretations. *Adsorption Processes for Water Treatment and Purification*, 19-51.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 132-134**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 132-134**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Qumru Balaxanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1709-1442
19_bq_91@mail.ru

# Mikromisetlərin ekosistem sağlamlığına təsiri

***Açar sözlər:*** *mikromisetlər, ekosistem sağlamlığı, bioremediasiya, mikorizal əlaqələr, bioloji müxtəliflik, ekosistem funksiyaları, torpaq sağlamlığı, çirklənmə, ekosistem*
***Keywords:*** *microfungi, ecosystem health, bioremediation, mycorrhizal relationships, biodiversity, ecosystem functions, soil health, pollution, ecosystem*

Ekosistem sağlamlığı təbiətin balansının qorunması və müxtəlif təbii proseslərin davamlılığına əsaslanır. Ekosistemlər canlıların və abiotik faktorların qarşılıqlı təsiri ilə formalaşır və bioloji müxtəliflik, orqanik maddələrin dövranı, su və qida dövranı kimi funksiyaların qorunması ilə təbii mühitin davamlılığını təmin edir. Bu funksiyaların qorunmasında mikromisetlərin rolu son dərəcə əhəmiyyətlidir. Mikromisetlər göbələklər aləmindəki mikroskopik orqanizmlər olub, çox müxtəlif mühitlərdə, o cümlədən torpaqda, su mühitlərində və bitkilərin kök sistemlərində yaşayırlar. Onlar ekosistemlərdə bir çox funksiyaları yerinə yetirərək, ekosistemlərin sağlamlığını qorumağa və onların davamlı inkişafını təmin etməyə kömək edirlər. Mikromisetlərin ekosistem sağlamlığına olan təsirləri müxtəlif sahələrdə geniş tədqiq olunmuşdur.

Mikromisetlər təbii mühitlərdə orqanik maddələrin dövranını təmin edirlər. Onlar torpaqda ölü bitkilər və heyvan qalıqlarını parçalayaraq, bu maddələri humusa çevirir və

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

beləliklə, torpağın məhsuldarlığını artırırlar. Bu proses həm də torpağın su saxlama qabiliyyətini artırır, bitkilərin qida maddələrini daha yaxşı mənimsəməsini təmin edir və torpağın sağlamlığını qoruyur. Mikromisetlər bu fəaliyyəti ilə ekosistemlərdə bioloji dövranı təkmilləşdirir, çünki onlar orqanik maddələrin təbii şəkildə bərpasını mümkün edir. Bundan başqa, mikromisetlər torpaqda yaşayan digər mikroorqanizmlərlə qarşılıqlı əlaqələr quraraq, mikrobiomların müxtəlifliyini artırır və ekosistemin sağlamlığını təmin edir.

Bundan əlavə, mikromisetlərin bioremediasiya qabiliyyəti də ekosistem sağlamlığına müsbət təsir göstərir. Bioremediasiya, çirklənmiş mühitlərin təmizlənməsi üçün təbii orqanizmlərin, o cümlədən mikromisetlərin istifadə edilməsidir. Mikromisetlər, çirklənmiş torpaqlarda və su mühitlərində zəhərli maddələri, o cümlədən ağır metallar və pestisidlər, parçalayaraq onların təbiətə olan zərərli təsirlərini azaldır. Bu xüsusiyyətləri ilə mikromisetlər ekosistemlərin təmizlənməsinə və bərpasına kömək edir, çirklənmiş mühitlərdə sağlam ekosistemlərin bərpasını təmin edir.

Mikromisetlər həm də bitkilərlə mikorizal əlaqələr quraraq ekosistemlərin sağlamlığını təmin edirlər. Mikorizal göbələklər bitkilərin kök sistemlərinə nüfuz edir və onlara su və qida maddələrini daha yaxşı mənimsəməyə kömək edir. Bu əlaqə bitkilərin böyüməsini və inkişafını dəstəkləyir, həmçinin onların müxtəlif stres amillərinə qarşı daha dözümlü olmalarını təmin edir. Mikromisetlər bitkilərin quraqlığa, xəstəliklərə və digər çətin şəraitlərə qarşı müqavimətini artırır və bu da torpağın məhsuldarlığını və ekosistemlərin dayanıqlığını təmin edir. Beləliklə, mikorizal əlaqələr torpaqda qida dövranını təmin edərək bitkilərin inkişafını dəstəkləyir və ekosistemlərin davamlılığını artırır.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Mikromisetlərin ekosistemlərdəki digər funksiyaları, məsələn, bioloji müxtəlifliyin artırılması da ekosistem sağlamlığının qorunmasına töhfə verir. Mikromisetlər müxtəlif canlılarla qarşılıqlı əlaqəyə girərək növ müxtəlifliyini artırır və ekosistem xidmətlərinin təmin edilməsini dəstəkləyir. Onlar ekosistemlərdə həyat dövrünü təkrarlayan bir çox bioloji proseslərin yerinə yetirilməsinə kömək edirlər. Mikromisetlərin fəaliyyəti nəticəsində ekosistemlər daha sağlam və dayanıqlı olur, bioloji müxtəliflik artır və təbiətin tarazlığı qorunur.

Nəticə mikromisetlər ekosistem sağlamlığının qorunmasında mühüm rol oynayır. Onlar orqanik maddələrin dövranında, bioremediasiya proseslərində, bitkilərlə simbioz əlaqələrində və bioloji müxtəlifliyin artırılmasında əsas funksiyaları yerinə yetirirlər. Mikromisetlərin bu funksiyalarının qorunması, ekosistemlərin sağlamlığını və dayanıqlılığını təmin etmək üçün vacibdir. Mikromisetlərin ekosistemlərdəki rolunu başa düşmək, onların təbii mühitlərdəki yerini qorumaq və müvafiq qorunma strategiyalarını inkişaf etdirmək ekoloji idarəetmənin mühüm hissəsi olmalıdır. Gələcək tədqiqatlar mikromisetlərin ekosistemlərdəki funksiyalarını daha da dərindən araşdıraraq, onların təbii mühitlərin qorunmasına necə daha çox təsir edə biləcəyini ortaya qoyacaqdır.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 135-139**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 135-139**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Tahə İbrahimov**
Ağsu, Azərbaycan
https://orcid.org/0009-0001-1812-282X
tahibrahimov287@gmail.com

# Canlı həyat insanı nə vaxt cəzalandırır və ya yüksəldir, ucaldır?

***Açar sözlər:*** *canlı həyat, pişikqıynağı, qarağan, kimyəvi maddələr, cansız varlıqlar*
***Keywords:*** *living things, catnip, carrion, chemicals, inanimate objects*

Bu mövzuda mənim yazı yazmağımın maraqlı bir tarixi vardır. Bu yaxınlarda Bakı şəhərinə taksi ilə gedirdim. Taksidə məndən başqa dörd nəfər var idi. Sərnişinlər müxtəlif mövzularda söhbət edirdilər. Mən həmişə kiminsə söhbətinə qoşulmayan, ümumiyyətlə, mənasız yerə söhbət etməyi xoşlamayan insanam. Eyni zamanda bilirəm ki, söhbət həmişə mübahisə ilə nəticələnir. Sərnişinlər çox çalışırdılar ki, mən də onların söhbətlərinə qoşulum. Ancaq heç nə alınmırdı. Taksinin sürücüsü isə həyatdan çox gileylənirdi. Həmişə borc içərisində olduğunu, krediti ödəyə bilmədiyini söyləyirdi. Qazandığı pulların ona xeyri olmadığından danışırdı. Hətta maşını ilə bu yaxınlarda qəza törətdiyini də bildirdi. Söhbətin bu yerində özümü saxlaya bilmədim. Taksi sürücüsünə dedim ki, siz bu yaxınlarda sərnişindən iki dəfə artıq pul almısınız. Bu zaman taksidə olan bütün sərnişinlər söhbəti kəsdilər və mənə diqqətlə baxmağa başladılar. Sürücü maşını saxladı və məndən soruşdu ki, bunu siz haradan bilirsiniz? Ona izah etməyə başladım ki, həyat sizi cəzalandırır, hətta sizi daha ciddi hadisələr gözləyir,

https://doi.org/10.36719/2789-6919/2025/XIII

çünki sərnişinlərin haqqına toxunursunuz. Ona bildirdim ki, halal yolla pul qazanmaq üçün hamıya hər cür şərait yaradılmışdır. Siz ancaq həmin şəraitdən düzgün istifadə etmirsiniz. Hər gün sərnişinlər ilə mübahisə edir, münaqişəli vəziyyət yaradırsınız. Odur ki, canlı həyat sizi cəzalandırır. Bu vaxt taksi sürücüsü bir xeyli sakit dayandı, fikrə getdi. Nəhayət, mənə tərəf çevrildi, dedi ki, tamamilə düz deyirsiniz. Qardaş, bəs mən vəziyyətimi yaxşılaşdırmaq üçün nə etməliyəm? Taksi sürücüsünə dedim ki, iki dəfə artıq pul aldığı sərnişini tapsın, artıq aldığı pulu ona qaytarsın, bundan sonra heç bir sərnişinlə mübahisə etməsin. Bir həftədən sonra həmin taksi sürücüsü məni axtarıb tapdı, bildirdi ki, bütün dediklərini etdim, sağ olun, indi bütün işlərim uğurla davam edir. Hər gün qazancım əvvəlkindən çox olur.

Bu zaman belə bir sual məni həmişə düşündürmüşdür. Doğrudanmı canlı həyat insanı nə vaxtsa cəzalandırır, yoxsa yüksəldir, ucaldır? Burada hər hansı qanunauyğunluq mövcuddurmu? Sualların cavabını müşahidələrimə və gəldiyim elmi nəticələrə əsasən izah etməyə çalışacağam.

Məlumdur ki, yer üzərində mövcud olan bütün varlıqlar iki hissədən, cansız və canlılardan ibarətdir. Cansız varlıqlar olmasaydı, canlılar ola bilməzdi. Deməli, həm cansızların, həm də canlıların yaranmasında çox ciddi qanunauyğunluq vardır. Cansızların mövcudluğu ilə əlaqədar olan hadisələri insan zəkası dərk edə bilir və elm öyrənir. Lakin canlıların həyatında baş verən bir neçə prinsipial məsələləri insan zəkası dərk edə bilmir. Yalnız müşahidələrə əsasən elmi fikirlər söyləmək olur.

Canlı həyat bitki və heyvanların da yaşamasını, mövcudluğunu çox ciddi qanunlarla idarə edir. Məsələn, el arasında "pişikqıynağı" adlanan bitki geniş yayılmışdır. Bu bitki çox güclü qidalanma və yayılma xüsusiyyətlərinə malikdir. Ona görə də, hər hansı ərazidə həmin bitki yayılarsa, başqa bitkilərin

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 135-139**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 135-139**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

inkişafı dayanır və ya məhv olur. Bunun səbəblərini müasir biologiya elmi əhatəli şəkildə öyrənir. Lakin qaranlıq qalan, öyrənilməsi mümkün olmayan məsələlər də vardır. Pişikqıynağı adlanan bitkinin başqa canlılar üçün heç bir qida əhəmiyyəti yoxdur. Əgər canlı həyat həmin bitkinin yayılmasının qarşısını almasaydı, onda daha geniş ərazilər, örüş sahələri yararsız hala düşərdi. Məsələ burasındadır ki, dəvətikanı və qarağan adlanan bitkilər pişikqıynağının yayılmasının qarşısını alır. Deməli, canlı həyat bitkilərin də inkişafını müxtəlif qanunlarla idarə edir.

Başqa bir misal. Hazırda taxıl əkinlərinə kiçik gəmiricilər, ən çox sıçanlar çox böyük ziyan vurur. Bu heyvan sürətlə çoxalma və güclü qidalanma xüsusiyyətlərinə malikdir. Yayıldıqları bütün torpaq sahələrində bütün taxıl və ot bitkilərini tamamilə məhv edirlər. Ona görə də, həmin torpaqlar qısa vaxt ərzində səhraya çevrilir. Kimyəvi dərman maddələri sıçanların çoxalma və yayılmasının qarşısını ala bilmir. Müşahidələrim zamanı fikirləşirdim ki, gəmiricilərin çoxalmasının qarşısını canlı həyat ala bilərmi? Bir həftəlik müşahidələrdən sonra mənə məlum oldu ki, siçanlar sürətlə çoxaldıqca bir-birlərini məhv etməyə başlayırlar. Deməli, canlı həyat orqanizmlərin mövcudluğunu çox ciddi qanunlarla idarə edir.

Bu yaxınlarda rayon mərkəzində təsadüfən tanışlarımdan biri ilə qarşılaşdım. O, yüksək vəzifəli şəxs idi. Təklif elədi ki, gedək çay içək. Getmək istəmədim. Çox təkid elədi. Sözünü yerə salmaq istəmədim. Yaxınlıqdakı çayxanada əyləşdik. Hiss eləmişdim ki, tanışımın qanı çox qaradır. Soruşdum ki, vəziyyətin, işin necədir? Elə bil ki, o, bu söhbətləri gözləyirmiş. Başladı zəmanə və vəziyyəti haqqında çox ağır sözlər danışmağa. Dedi ki, belə həyatdan olmasa daha yaxşıdır. Bu zaman ondan soruşdum ki, kənddə yaşayırsan, yoxsa rayon mərkəzində? Cavab verdi ki, yüksək vəzifəyə seçiləndən sonra rayon mərkəzində yaşayıram.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 135-139**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 135-139**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Ona dedim ki, ata və anan qalıb kənddə, aylarla sənin üzünü görmürlər, hər gün sənin yolunu gözləyirlər, ata və anan sənin heç yadına da düşmür, yüksək əmək haqqı alırsan, rahat maşında istədiyin yerə gedirsən, belə olduğu halda sən həyatdan, zəmanədən narazılıq edirsən. Tanışıma bildirdim ki, həyat ona çox ağır cəza verəcəkdir. Mənim bu sözlərimdən sonra o çox əsəbi bir vəziyyət aldı. Ancaq heç bir söz deyə bilmədi. Rəngi gah ağardı, gah da qaraldı. Bir neçə dəqiqə dinməz, söyləməz dayandı. Nəhayət dilləndi. Dedi ki, ata və anamı rayon mərkəzinə yaşadığım yerə gətirə bilmirəm. Gəlmirlər. Sabah işdən sonra onlara dəyməyə gedəcəyəm. Bu zaman tanışıma dedim ki, sabah gecdir, elə bu gün işdən sonra kəndə get, gecəni ata və ananın yanında qal. Ümumiyyətlə, hər gün işdən sonra kəndə get, orada yaşa. Maşınla iş yerinə gəlib-getməkdə heç bir çətinlik olmaz.

Həmin söhbətdən sonra tanışım hər axşam kənddə ata və anasının yanında qalırdı. Oradan hər səhər iş yerinə maşınla gəlirdi. Bir neçə gündən sonra eşitdim ki, vəzifəsi daha da yüksəldilib. Deməli, bu hadisələrin çox ciddi qanunauyğunluqları vardır. Canlı həyat insanı məhv olmaqdan xilas edib yüksəldə də bilər.

Belə misalların sayını çoxaltmaq mümkündür. Öz müşahidələrimdən mənə tamamilə aydındır ki, canlı həyatın öz qanunları vardır. Həmin qanunlardan kənar heç bir hadisə baş verə bilməz. Hər hansı bir insanın həyat fəaliyyətini müşahidə edib diqqətlə izləməklə, onun gələcəkdə hansı hadisələrlə qarşılaşa biləcəyi haqqında bəzi fikirlər söyləmək mümkündür. Yer üzündə hər bir canlı başqa canlıya mütləq mənada təsir göstərir. Məsələ burasındadır ki, canlıların mövcudluğu irəliyə doğru istiqamətlənmiş inkişafdan asılıdır. Əgər bu inkişaf canlı həyatın qanunlarına uyğundursa, onda həmin canlının mövcudluğuna heç nə mane ola bilməz.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

İnsan orqanizmi kainatda ən mürəkkəb və ali varlıqdır. Buna görə də, insanın canlı həyata göstərdiyi təsir çox müxtəlifdir. Eyni zamanda hər bir insan orqanizminin mövcudluğu onun canlı həyatın qanunlarına uyğunluğundan asılıdır. Ümumiyyətlə, bu məsələlər çox mürəkkəb və geniş izahat tələb edir. Yalnız onu qeyd etməliyəm ki, yer üzərində baş verən bütün hadisələri canlı həyatın qanunları idarə edir. Həmin qanunlar əsasında bütün varlıqlar yalnız irəliyə doğru istiqamətlənmiş hərəkət edir. Əgər insanın fəaliyyəti və şüuru həmin hərəkət istiqamətinə uyğundursa, onda onun həyatı yüksəlişə səbəb olur. Qeyd etməliyəm ki, insanın şüuru canlı həyatın irəliyə doğru istiqamətlənmiş hərəkəti nəticəsində yaranmışdır.

Müasir biologiya elmi canlı orqanizmlərin həyatında baş verən hadisələri və prosesləri ətraflı öyrənir. Lakin canlı həyatın elə qanunauyğunluqları vardır ki, onları nə biologiya, nə də başqa elm sahələri öyrənə bilmir.

Həmin qanunlar alimlər arasında həmişə fikir ayrılığına səbəb olmuşdur. Məsələn, ilk canlı orqanizmlərin yaranması, təkamül təlimi, insanın əmələ gəlməsi kimi məsələlər alimlər arasında müzakirə olunan məsələlərdəndir. Hazırda elm aləminə məlum olmayan, lakin həqiqətdə mövcud olan canlı həyatın qanunları haqqında çoxlu misallar qeyd etmək mümkündür. Bununla əlaqədar olan ayrıca elm sahəsinin olub-olmadığı mənə məlum deyildir. Vaxt gələcək, yuxarıda qeyd etdiyim qanunauyğunluqlar yeni elm sahələrinin yaranmasına səbəb olacaqdır.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 140-141**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 140-141**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Tahə İbrahimov**
Ağsu, Azərbaycan
https://orcid.org/0009-0001-1812-282X
tahibrahimov287@gmail.com

# Əlamətlərin sərbəst paylanması haqqında qeydlər

***Açar sözlər:*** *genetika, dihibrid çarpazlaşma, xromosom, hüceyrə, gen*
***Keywords:*** *genetics, dihybrid cross, chromosome, cell, gene*

Əvvəlcədən qeyd etməliyəm ki, genetika mənim həmişə ən çox maraq göstərdiyim elm sahəsidir. Bununla əlaqədar olaraq orta məktəb dərsliklərində və elmi kitablarda olan mövzuları diqqətlə öyrənməyə çalışmışam. Eyni zamanda canlı orqanizmlər üzərində müşahidələr apararaq bəzi elmi məlumatları bir-biri ilə müqayisə etmişəm. Lakin nəticələri qeyd etmək fikrindən uzaq olmuşam. Məsələ burasındadır ki, Qreqor Mendelin qanunları alimlər tərəfindən diqqətlə öyrənilmiş və təcrübələrlə öz təsdiqin tapmışdır. Müxtəlif illərdə çap olunmuş dərsliklərdə və elmi kitablarda fərqli izahatlara da rast gəlmək mümkündür. Bu zaman bir neçə sual meydana çıxır. Doğrudanmı dihibrid çarpazlaşmada genlər sərbəst paylanır? Qeyd etməliyəm ki, sualın cavabı çox geniş izahat tələb edir. Sübutlar təcrübələrin nəticələrinə əsaslanmalıdır. Müşahidələrimə və təcrübələrimə əsaslanaraq fikirlərimi qeyd etmək fikrindəyəm.

Məlumdur ki, dihibrid çarpazlaşmada iki cüt allel iştirak edir. Əlamətləri eyni və müxtəlif xromosomlarda yerləşə bilir. Bütün elmi kitablarda yazılmışdır ki, genlər müxtəlif xromosomlarda yerləşmişdirsə, onda əlamətlər sərbəst paylanır.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Əslində isə əlamətlərin paylanması bir neçə amillərdən aslıdır. Bunlar aşağıdakılardır:

Hər bir hüceyrənin özünəməxsus daxili mühiti vardır. Həmin mühit əlamətlərin sərbəst paylanmasına təsir göstərə bilər.

Hüceyrəyə daxil olan maddələrin kimyəvi tərkibi dəyişir. Genlər kimyəvi dəyişikliyə çox həssasdır. Deməli, əlamətlərin sərbəst paylanması istənilən vaxt pozula bilər.

Mendel öz təcrübələrini noxud bitkisi üzərində aparmışdır. Çarpazlaşdırma üçün sarı-hamar və yaşıl-qarışıq toxumları olan bitkilərdən istifadə olunmuşdur. Məlumdur ki, birinci nəsildəki fərdlərin hamısı sarı-hamar toxumlu bitkilər olacaqdır. Əslində, bu təcrübə sübut edir ki, əlamətlərin paylanması eləmə məlum olmayan təsirlərin nəticəsində baş verir.

Elmi kitablarda təcrübələrin nəticələrinə əsaslanaraq yazılmışdır ki, 2 cüt əlamətlə fərqlənən genlər qamet hazırlanarkən bir-birindən aralanır. Eyni zamanda bir-birindən asılı olmadan paylanır. Fikrimcə, bütün bu proseslərin baş verməsi fiziki-kimyəvi qanunauyğunluğun nəticəsidir. Ona görə də Mendelin ikinci qanunu əlamətlərin sərbəst paylanması deyil, başqa adla adlandırılması məqsədəuyğun olardı.

Öz təcrübə və müşahidələrimə əsasən qeyd edə bilərəm ki, əlamətlərin 3/1 nisbətində paylanması ilə əlaqədar olaraq elm aləminə qaranlıq olan məsələlər vardır. Həmin qaranlıq məsələlərin öyrənilməsi elmin daha da inkişafı nəticəsində mümkün olacaqdır.

Qeyd etməliyəm ki, Mendelin ikinci qanunu ilə əlaqədar olan öz düşüncələrimin çox kiçik bir hissəsini izah etməyə çalışdım. Bilirəm ki, biologiya elmi inkişaf etdikcə qeyd etdiklərim öz təsdiqini tapacaqdır. Eyni zamanda bu gün elm aləminə məlum olmayan, əlamətlərin sərbəst paylanması ilə əlaqədar olan başqa məsələlər də aydınlaşacaqdır.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 142-146**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 142-146**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

# RİYAZİYYAT VƏ MEXANİKA
# MATHEMATICS AND MECHANICS

**Vüsalə Qarayeva**
Gəncə Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-2198-5360
karayeva.vusala@bk.ru
**Humay Babayeva**
Gəncə Dövlət Universiteti
https://orcid.org/0009-0005-5506-5826
humay97hasanova@mail.ru

## Riyaziyyat məsələlərinin həlli prosesində şagird təfəkkürünün inkişafetdirici əhəmiyyəti

***Açar sözlər:*** *riyazi məsələ, təfəkkür, məsələ həlli, hesablama, isbat məsələləri, tədris prosesi, idrak prosesi*
***Keywords:*** *mathematical problems, thinking, problem solving, calculation, proof problems, teaching process, cognitive process*

Riyaziyyat məsələlərinin həlli prosesi, şagirdlərin analitik düşünmə bacarıqlarını inkişaf etdirən və onların təfəkkürünü gücləndirən bir sahədir. Bu sahənin əhəmiyyəti şagirdlərin yalnız riyazi biliklərini deyil, həm də məntiqi və yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirməsinə kömək edir. Riyaziyyat təhsili yalnız müəyyən mətnləri və düsturları yadda saxlamağa yönəlməməli, eyni zamanda şagirdin hər hansı bir

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

məsələnin həlli zamanı tədqiqat aparma, analiz etmə və nəticəyə doğru irəliləmə bacarıqlarını da inkişaf etdirməlidir.

Məsələlərin həlli yolu ilə şagirdlər daha çox yaradıcı fəaliyyətə cəlb olunurlar. Tədris zamanı seçilən məsələlərin gündəlik həyatdan alınması, nəzəriyyə ilə praktikanın birləşməsi düzgün şəkildə müəllim tərəfindən tətbiq olunsa, bu, şagirdləri daha çox araşdırma və axtarışa yönləndirər. Tədrisdə məqsədəuyğun məsələlərin istifadə edilməsi müasir dövrün riyaziyyat tədrisi ilə əlaqəli məqsədlərinə uyğundur. Şagirdin sərbəst şəkildə yaradıcı və inkişaf etdirici axtarışları onların inkişafına və dünyagörüşünün formalaşmasına müsbət təsir göstərir. Riyaziyyatın tədrisində müasirləşmə prosesi müxtəlif dövrlərdə mərhələli şəkildə həyata keçmişdir. Müasirləşmə – tədris prosesinin yeniləşməsi, yeni ideyaların, metodların və tələblərin tətbiq olunması kimi başa düşülür.

Fərqli ölkələr və beynəlxalq təşkilatlar tərəfindən riyaziyyat təhsilində islahatların həyata keçirilməsi hər zaman diqqət mərkəzində olub. Son dövrlərdə keçirilən bir sıra beynəlxalq konfranslar riyaziyyatın tədrisinə həsr olunub, bu da riyaziyyat elminin dünya miqyasında həmişə aktual bir sahə olduğunu təsdiq edir. Tədris sistemi ilə şagirdin idraki inkişafı arasında mövcud olan sıx əlaqə müəyyən qanunauyğunluqlara əsaslanaraq həyata keçirilir. Psixoloq və pedaqoqların apardığı elmi tədqiqatların nəticələrinə əsasən, hansı təfəkkür formalarının riyazi təfəkkürə aid olduğu məsələsi bu gün də açıq qalır. Hər hansı bir riyazi anlayışın meydana gəlməsində müxtəlif təfəkkür formalarından bir və ya bir neçə şəkildə istifadə olunur.

Riyazi anlayışların tərifləri verildikdə, bəzi məsələlərin daxil edilməsi zamanı müəllim müəyyən qanunauyğunluqları ardıcıl şəkildə tətbiq etməlidir. Riyaziyyat təlimi metodlarının inkişaf etdirici funksiyalarının əlaqələndirilməsində bu sistemin tamlığı

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

nəzərə alınmalıdır. Məsələn, yeni bir anlayış təqdim edilərkən yalnız onun tərifinin verilməsi və əyani modelinin təhlil edilməməsi bəzən yanlış nəticələrlə nəticələnə bilər. Şagirdlər, eyni anlayışın mövcud anlayışdan fərqini və aralarındakı ümumiliyi tam anladıqda, onlar yeni axtarışlara daha çox maraq göstərəcəklər.

Riyazi anlayışların öyrənilməsi zamanı tədris metodlarından effektiv istifadə və təfəkkür əməliyyatlarının tətbiqindəki ardıcıllıqlara müxtəlif yanaşmalar mövcuddur. Riyaziyyat təlimində məntiqi problemlərin mövcudluğu yalnız sadəcə məntiqi məsələlərdən ibarət deyil, həm də riyazi komponentlərin dili ilə sıx əlaqəlidir.

Riyaziyyat tədrisi mürəkkəb bir prosesdir və şagirdlərin riyazi fakt və ideyaların sistemini mənimsəməsinə, müəyyən riyazi bilik və bacarıqları əldə etməsinə, eləcə də riyazi düşüncənin inkişafına zəmin yaradır. Bu prosesin effektiv həyata keçirilməsi üçün anlayışın öyrənilməsi zamanı aşağıdakı amillər nəzərə alınmalıdır:

-Anlayışlar birbaşa təqdim edilməməli, mücərrəd anlayışların bütün hissələri və xassələri konkretləşdirilməli, həmçinin konkret-induktiv və mücərrəd-deduktiv yanaşmalar tətbiq olunmalıdır;

-Şagirdin maraq dairəsi nəzərə alınaraq, anlayışlar daha təbii bir yolla təqdim edilməlidir;

-Yeni anlayışın tərifi düzgün əsaslandırılmalı və şagirdlərdə yanlış təsəvvürlərin yaranmasına imkan verilməməlidir;

-Yeni və məlum anlayışlar arasında əlaqə qurulmalı, onların oxşarlığı və fərqləri aydın şəkildə müəyyənləşdirilməlidir;

-Riyazi təfəkkür, şagirdin inkişaf etdirici fəaliyyətinin əsas komponentlərindən biri olaraq, tədris prosesində, xüsusilə məsələlərin həllində məqsədyönlü fəaliyyətə yönəldilməlidir. Nəticədə, bu həm riyazi bilik və bacarıqların, həm də vərdişlərin

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 142-146**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 142-146**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

inkişafına səbəb olar. Tədris və idrak prosesləri sıx əlaqədə olaraq şagirdlərin riyazi təfəkkürünü inkişaf etdirir. Tədrislə müqayisədə idrak prosesinin inkişafı daha sərbəstdir.

Bəzi ədəbiyyatlarda təfəkkürün əsas elmi-təbii elementlərinin müəyyənləşdirilməsi təklif olunur ki, bunlar aşağıdakı kimi sıralanır :

- Problemin dərk edilməsi;
- Problemin dəqiq tərifi və onun digər anlayışlardan fərqləndirilməsi;
- Problemlə əlaqədar bütün situasiyaların öyrənilməsi;
- Həllin planlaşdırılması, problemi həll etmək üçün ən səmərəli üsulun axtarılması;
- Ən çox ehtimallı fərziyyənin (təklifin) seçilməsi;
- Fərziyyənin yoxlanılması üçün eksperimentin aparılması;
- Yoxlayıcı eksperimentin təşkili;
- Nəticə və onun əsaslandırılmasının şərhi;
- Qeyd olunan fakt və ideyalarla bağlı yeni situasiyaların genişləndirilməsi.

Bunlar riyaziyyat tədrisində tətbiq olunan əsas elmi metodlar olmaqla yanaşı, xüsusilə məsələ həlli tədrisində əlaqəli şəkildə istifadə olunur. Şagirdlərin inkişafı, riyazi təfəkkürün əsas komponentləri ilə sıx bağlıdır. Ənənəvi təlimdən fərqli olaraq müasir təlimdə şagirdin daha fəal və müstəqil çalışması tələb olunur. Yeni dərsliklərdə nəzəri materialların azaldılması və praktik çalışmaların həllinə üstünlük verilməsi müsbət və mənfi tərəflərə malikdir. Bu çatışmazlıqların aradan qaldırılması üçün tədris prosesində riyazi təfəkkür komponentlərindən doğru şəkildə istifadə edilməsi təlimin keyfiyyətini artırır.

Obyektin (hadisənin) konkret modeli ilə əlaqədar olan təfəkkür konkret təfəkkür adlanır. İbtidai siniflərdə bir çox anlayışların daxil edilməsi və hesab əməliyyatlarının mənasının çoxluqlar nəzəriyyəsi vasitəsilə əlaqələndirilməsi zamanı

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

obyektin özü və modeli şagirdlər tərəfindən müşahidə edilir. Obyektin və hadisənin əyani obrazları, onların müşahidə olunması konkret təfəkkürün iki formasının mövcudluğunu müəyyən edir:

- Operativ təfəkkür – burada obyektin konkret modeli nəzərdən keçirilir;
- Qeyri-operativ təfəkkür – burada müşahidə, hissi qavrayış, təsəvvür əsasında obyektin (hadisənin) modeli dərk edilir.

Riyazi təfəkkürün yaradıcı, funksional və riyazi mühakimə formaları riyaziyyat tədrisində məsələ həlli ilə sıx əlaqəlidir. Ötən əsrin 70-80-ci illərində psixoloqlar və riyaziyyatçı metodist alimlər tərəfindən təqdim edilən təfəkkür formaları bu gün yeni təlim metodları ilə sıx şəkildə əlaqəlidir. Orta məktəb kursunda həll edilən məsələlər aşağıdakı kimi müxtəlif xüsusiyyətlərlə xarakterizə olunur:

- Obyektin (hadisənin) məzmununa görə – praktik və riyazi məsələlər;
- Obyektdə istifadə olunan nəzəri materiala görə – standart və qeyri-standart məsələlər;
- Məchulun (tələbin) xarakterinə görə – hesablama, qurma və isbat məsələləri.

Bu şəkildə, obyektin qeyd olunan növlərinə uyğun həll edilən məsələlərdə riyazi təfəkkürün müxtəlif komponentləri həm ayrı-ayrılıqda, həm də kombinasiyalı şəkildə geniş istifadə olunur.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 147-152**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 147-152**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

# TEXNİKA ELMLƏRİ
# TECHNICAL SCIENCES

**Elşən Sultanov**
Azərbaycan Dövlət Dəniz Akademiyası
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-0002-7038
elshen_sultanov@mail.ru
**Sahib İsmayılov**
Azərbaycan Dövlət Dəniz Akademiyası
doktorant
https://orcid.org/0009-0000-2667-3973
sahib-ismayil@bk.ru
**Ruslan Əlicanov**
Azərbaycan Dövlət Dəniz Akademiyası
doktorant
https://orcid.org/0009-0007-4117-2994
ralicanov@mail.ru

## Gəmi siqnal qurğularının proqramlaşdırılan məntiq kontrollerləri ilə idarə olunmasının üstünlükləri

***Açar sözlər:*** *gəmi, elektrik avadanlığı, siqnal qurğuları, idarəetmə, məntiq kontrollerləri*
***Keywords:*** *ship, electrical equipment, signaling devices, control, logic controllers*

Tezisdə gəmi siqnal qurğularının proqramlaşdırılan məntiqi kontrollerləri ilə idarə olunmasının üstünlüklərindən bəhs

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 147-152**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 147-152**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

olunur. Həmçinin, tezisdə proqramlaşdırılan məntiq kontrollerlərinin (PLC) gəmi siqnal qurğularında tətbiqi ilə gəmilərdə təhlükəsizliyi artırmaq, avtomatlaşdırmanı təkmilləş-dirmək və gəmilərdə operativ nəzarəti təmin etməklə bağlı risklərin minimuma endirilməsi də qeyd edilmişdir.

Müasir dünya dənizçilik sənayesində avtomatlaşdırma və təhlükəsizlik sistemlərinin inkişafına xüsusi diqqət yetirilir. Bu sahədə PLC-lər mühüm rol oynayır. PLC-lərin gəmi siqnal qurğularında tətbiqi, idarəetmə və nəzarət sistemlərinin səmərəliliyini artırmaqla yanaşı, onların etibarlılığını da yüksəldir. Gəmilərdə siqnal qurğuları mühüm əhəmiyyət daşıyır və onların əsas funksiyası gəmi heyətini və sərnişinləri mümkün təhlükələrdən xəbərdar etməkdir. Ənənəvi siqnal sistemləri əsasən mexaniki və elektromexaniki komponentlərdən ibarət idisə, müasir sistemlərdə PLC-lərin tətbiqi bu sahədə yeni mərhələ açmışdır. PLC-lər müxtəlif sensorlardan daxil olan məlumatları emal edərək, siqnal qurğularının effektiv işləməsini təmin edir (Webb, Reis, 2003).

PLC-in gəmi siqnal qurğularında bir sıra tətbiq sahələri vardır ki, avtomatlaşdırmanın bu sahələrdə tətbiqi gəmiçiliyin inkişafında geniş rol oynamışdır:

- Yanğın siqnalizasiya sistemləri - gəmilərdə yanğın təhlükəsi böyük risk daşıyır. PLC-lər yanğın detektorlarından gələn siqnalları emal edərək, həyəcan siqnallarını aktivləşdirir və avtomatik yanğınsöndürmə sistemlərini işə salır. Bu, heyətə daha tez reaksiya vermək imkanı yaradır.
- Su basqını detektorları və nəzarət sistemləri - gəmilərdə su sızmalarının qarşısını almaq və onların vaxtında aşkarlanması vacibdir. PLC-lər su səviyyə sensorlarından gələn məlumatları təhlil edərək, lazımi hallarda nasosları işə salır və heyəti xəbərdar edir.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 147-152**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 147-152**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

- Mühərrik və enerji sistemlərinin monitorinqi-gəmilərdə mühərriklərin və enerji sistemlərinin vəziyyətinə nəzarət etmək üçün PLC-lərdən istifadə edilir. Temperatur, təzyiq, gərginlik və digər mühüm parametrlər PLC tərəfindən izlənilir və normadan kənar vəziyyətlərdə siqnal göndərilir.
- Naviqasiya və radionəzarət siqnalları - PLC-lər gəminin naviqasiya sistemlərinə və radiosiqnal qurğularına inteqrasiya edilərək, kritik vəziyyətlərdə heyətə xəbərdarlıq etməyə kömək edir. Xüsusilə, dumanlı və ya fırtınalı hava şəraitində bu sistemlər gəminin təhlükəsiz hərəkətini təmin edir.

Yanğın sensorları və tüstü detektorları maşın şöbəsində, mərkəzi idarəetmə postunda, yük anbarlarında, yaşayış otağında (kayutlarda) və s. kimi bütün həssas yerlərdə quraşdırılır. Otaqların hər hansı birində hər hansı bir səbəbdən yanğın aşkar edilərsə, yanğın sensorunun çıxışı releyi işə salaraq 5V-ə qədər yüksəldir. Rele 5V çıxışı 24V-ə çevirir və PLC-yə qidalanır. PLC daha sonra mühərriki işə salır və həyəcan siqnalı verir. Eyni zamanda HMI-də “YANĞIN AŞKARLANIB” xəbərdarlıq mesajı da göstərilir. Eyni şəkildə, tüstü aşkar edilərsə, tüstü sensorunun çıxışı rele vasitəsilə PLC-yə keçir, PLC səs siqnalının çıxışını işə salır və HMI-də “TÜSTÜ AŞKARLANIB” mesajı göstərilir. Maşın şöbəsi həmişə yüksək temperaturda olduğundan biz J tipli termocütdən istifadə edirik. Termocüt temperatur dəyişməsini aşkar edir və maşın şöbəsindəki temperatur normal temperaturdan yuxarı qalxarsa, termocüt yüksək çıxışı siqnalı olur və HMI-də həyəcan siqnalları ilə birlikdə “MÜHƏRRİKİN YÜKSƏK TEMPERATURU” mesajı göstərilir (Petrov, 2007).

Gəmilərdə istinin təsirindən işə düşən yanğın siqnal sistemindən əlavə tüstünün təsirindən işləyən siqnal sistemi də tətbiq edilir. Belə yanğın sistemi anbarlarda gəminin qabaq hissəsinin göyərtəaltı otaqlarında, yanacaq baklarında tətbiq

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 147-152**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 147-152**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

edilir. Tüstünün təsirindən işləyən gəmi yanğın siqnal sisteminin sadələşmiş sxemi şəkil 1-də göstərilmişdir.

Bu qurğunun əsas hissəsi sükançının otağında qoyulmuş yanğın siqnal stansiyası sayılır. Sistemin iş prinsipi aşağıdakı kimi olar: Yoxlanılan otaqların havası kiçik diametrli şlanqlarla (1, 2, 3........,n). xüsusi ventilyator vasitəsilə sovrulur.




***Şəkil 1.*** *Tüstünün təsirindən işləyən yanğın siqnal sisteminin görünüşü və elektrik sxemi*

*Elm və Təhsilin Əsasları* XIII Beynəlxalq Elmi Konfrans
01 may 2025 / 147-152
*Fundamentals of Science and Education* XIII International Scientific Conference
01 may 2025 / 147-152
https://doi.org/10.36719/2789-6919/2025/XIII

Sovrulmuş hava stansiyaların YB-yoxlama borusundan keçib ətraf mühitə buraxılır. Yoxlama borusunun hər iki tərəfindən müqavimətləri HL lampasının işığından dəyişilən $R_f$1, $R_f$2 foto rezistorları qurulmuşdur. Boruya daxil olan havanın tərkibində tüstü olmadıqda HL-lampasının işığından hər iki rezistor eyni müqavimətə malik olur. Yoxlama borusuna hava ilə bərabər tüstü də daxil olduqda $R_f$1-fotorezistorunun müqaviməti kəskin olaraq artır. $R_f$2-rezistorununku isə sabit qalır. $R_f$1 və $R_f$2 fotorezistorlarının müqavimətlərinin fərqi cəminə həmin rezistorlar qoşulmuş elektron gücləndiricisinə təsir edir və gücləndirici siqnal lampası ilə zəngi çalır (Petrov, 2007).

Bu siqnal qurğuları ilə yanaşı gəmilərdə temperatur vericisi kimi Termocütlərdən də geniş istifadə olunur.

Qeyd etmək lazımdır ki, gəmidə elektrik sistemlərində nasazlıqların məsafədən aradan qaldırılması da PLC vasitəsilə həyata keçirilir. Bu sistem dövrümüzdə AUT1 tip gəmilərdə öz tətbiqini daha geniş tapmışdır. Gəmilərdə elektrik nasazlıqlarının vaxtında aşkarlanması və idarə olunması gəmi heyətinin təhlükəsizliyi və sistemlərin dayanıqlılığı üçün mühüm əhəmiyyət daşıyır. PLC-lər bu prosesdə kritik rol oynayaraq, uzaqdan nəzarət və idarəetmə imkanı yaradır. PLC-lər elektrik panellərinə və enerji təchizatı sistemlərinə inteqrasiya olunaraq, gərginlik dalğalanmaları, aşırı cərəyan, faza itkiləri və digər nasazlıqları real vaxt rejimində izləyə bilir. PLC-lər bu məlumatları toplayaraq gəmi idarəetmə sistemlərinə və müvafiq texniki heyətə ötürür (Gudinov, Korneichuk, 2006).

Aparılmış təhlillərdən məlum olmuşdur ki, müasir gəmi elektrik avadanlıqlarının siqnal qurğularında PLC-lərin tətbiqi gəmilərdə təhlükəsizliyi artırmaqla yanaşı, avtomatlaşdırmanı da təkmilləşdirmək üçün əvəzolunmaz texnologiyadır. Bu sistemlərin tətbiqi ilə gəmilərdə operativ nəzarət və idarəetmə

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

təmin olunur, insan faktoru ilə bağlı risklər isə minimuma endirilir. Dəniz nəqliyyatının daha da təhlükəsiz və səmərəli olması üçün gələcəkdə PLC-lərin tətbiq sahəsinin genişləndirilməsi təklif olunur.

## Ədəbiyyat

1. Gudinov, V.N., Korneichuk, A.P. (2006). *Tekhnicheskie sredstva avtomatizatsii: Konspekt lektsii.* Izd-vo Om GTU.
2. Petrov, I.V. (2007). *Programmiruemye kontrol-lery. Standartnye yazyki i priemy prikladnogo proektirovaniya.* SOLON-Press.
3. Webb, J.W., Reis, R.A. (2003). *Programmable logic controllers. Principle and applications*. -5th Ed., Pearson Education Inc., Upper Saddle River.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 153-157**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 153-157**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Vilayət Məmmədov**
Azərbaycan Dövlət Aqrar Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-8822-561X
vilayat7@mail.ru
**Mirzə Mustafayev**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0001-2244-0408
mirza.rza@mail.ru
**Hüsniyyə Yusifova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0004-8989-326X
hüsniyyeyusifova78@gmail.com

# Daşkəsən rayonunun istirahət zonasında salınan parkın memarlıq-landşaft təşkili

***Açar sözlər:*** *park, landşaft, planlaşdırma, estetika, obyekt, rekreasiya*
***Keywords:*** *park, landscape, planning, aesthetics, object, recreation*

Parkların memarlıq-landşaft təşkili mühitin təkmilləşməsi əsasında memarlıq-planlaşdırma və həcm-məkan park obyektlərinin vacib mövcudluq şəraitləri kimi təbii-landşaft vəhdətinin qorunub-saxlanmasını nəzərə alan həlli deməkdir.

Bu nöqteyi-nəzərdən Daşkəsən rayonunun istirahət zonasında salınan parkın memarlıq-landşaft təşkilinin məqsədi əlverişli ekoloji və sanitar-gigiyena şəraitlərinə malik və rekreasiya məqsədləri üçün nəzərdə tutulan yüksək estetik xüsusiyyətli mühitin yaradılmasıdır.

Daşkəsən rayonunun istirahət zonasında salınan parkın memarlıq-1andşaft təşkili xarici və daxili səviyyədən ibarət iki səviyyədə nəzərdə tutulur. Xarici səviyyəli məsələlər bütün rayon rekreasiya ərazilərinin, onların rayon strukturunda rolunun, sosiologiyada yerinin müəyyənedilməsi ilə vahid sistem şəklində həllinə yönəlir və rayonun baş planlarında nəzərdə tutulur. Xarici səviyyədə, həmçinin, rekreasiya sisteminin funksional paylaşması baş verir, rayonda yaşıllaş-dırılmış və açıq məkanların ekoloji və orta mükəmməlləşdirmə əhəmiyyəti və hər parkın yeri, konkret rekreasiya ərazilərinin planlaşdırma, estetik və funksional rolları müəyyən edilir, bu da gələcəkdə hər bir obyektin landşaft layihələndirilməsi üçün proqram kimi xidmət edə bilər (Ağayev, 2003).

Parkların memarlıq-landşaft təşkili bir sıra aşağıdakı prinsipial müddəalara əsaslanmalıdır:

- memarlıq-landşaft mühitinin differensiasiyası;
- memarlıq-landşaft dominantlarının ilkin əsasının səviyyə-lərə ayrılmasının müəyyən edilməsi;
- formalaşan mühitin kompozisiya vəhdəti və ardıcıllığı;
- parkın ətraf mühitlə inteqrasiyası.

Rayon məkanlarının memarlıq-landşaft təşkili üsulu rayonsalma layihələndirməsi miqyaslarını və insanı əhatə edən maddi mühitin dizayn işlərini birləşdirdiyi üçün, kompleks abadlaşdırma məsələlərinin həlli üçün mühüm əhəmiyyət kəsb edir. Buna müvafiq olaraq şəhərin memarlıq-landşaft mühitinin formalaşmasına təsir edən rayon-parkları vahid xüsusiyyətlər daxil olan memarlıq-landşaft təşkili obyektlərinin sistemindən ibarətdir.

Park ərazisində rekreasiya, funksional-utilitar və təbiət mühafizə xüsusiyyətləri üzrə qruplaşan bir neçə növ memarlıq-

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

planlaşdırma obyektlərini qeyd etmək olar. Onlar, öz növbəsində, elementlərinin ahəngdar birliyini ifadə edən abadlaşdırma obyektləri ilə dolğunlaşır (Bilalov, 2005).

Abadlaşdırma obyektlərinin tərkibinin seçilməsi daha məqsədəuyğundur. Abadlaşdırma obyektlərinin daxil edilməsi meyarı parkda formalaşan memarlıq-landşaft təşkili obyektində iştirakından ibarətdir.

Abadlaşdırma elementlərinin seçimi abadlıq obyektlərinin yerləşmə spesifikasının və onların müəyyən memarlıq-landşaft təşkili obyektlərinə mənsubiyyətinin nəzərə alınmasının əsasında həyata keçməlidir. Onların tipologiyası, üslubu və s. bütün memarlıq-landşaft mühitinin ahəngdar vəhdətinin tərkib hissələri kimi park obyektinin kompleksliliк, stilistika, funksional səmərəlilik və vəhdət xüsusiyyətlərinə əsasən hazırlanır (Beynəlxalq əlaqələr üzrə bələdçi, 2005).

Daşkəsən rayonunun istirahət zonasında salınan parkın memarlıq-landşaft təşkili spesifikası onun funksional-utilitar, ekoloji (və yaxud təbiət qoruyucu), estetik və memarlıq-planlaşdırma nöqteyi-nəzərindən təhlilini tələb edir. Funksional-utilitar baxımdan rayon-parklarının memarlıq-landşaft təşkilinin mühüm prinsipi funksional fəallığa uyğun məkan differensiasiyasından asılıdır.

Parklar və memarlıq-landşaft təşkili obyektləri, onların çoxprofilliyinə baxmayaraq, aşağıdakı üç əsas funksional qrupa ayrılır:

• fəal kütləvi istifadəli parklar və memarlıq-landşaft təşkili obyektləri;

• passiv istirahət üçün parklar və memarlıq-landşaft təşkili obyektləri;

• rekreasiya məqsədləri üçün məhdud istifadə edilən xüsusi parklar və memarlıq-landşaft təşkili obyektləri.

https://doi.org/10.36719/2789-6919/2025/XIII

Parklarda istirahətin səciyyəvi təşkil forması amfiteatrın adi sxemlərindən sərbəst qruplaşan mobil özəklərə kimi transformasiya olunma qabiliyyətinə malik yarımqapalı məkanların təşkili tələb olunan kiçik miqyaslı kino-mühazirə fəaliyyətindən ibarətdir. Belə növ tələblər skamyaların yığma-quraşdırma konstruksiyalarının, yumşaq, tapdanmaya davamlı ot yamacının, insanların seçiminə uyğun sərbəst hərəkət etməsinə imkan verən qarşılıqlı əlaqəli terraslar sisteminin və nəhayət, ən sadə həll hesab edilən podium-səhnəni əhatələyən skamyaların istifadəsi ilə həyata keçə bilər. Təbii landşaft formaları digər həll variantlarının da yaranmasına səbəb ola bilər.

Parkın memarlıq-landşaft təşkili səviyyəsində təbiət-mühafizə sırasına aşağıdakı tələblər daxildir:

• hər bir park məkanının təbiət-mühafizə xüsusiyyətləri kompleksinin nəzərə alınmasına əsaslanan daha səmərəli istifadəsi;

• urbanist ətrafın şəraitlərində parkın bioekosisteminin özünü tənzimləməsi məqsədi ilə şəraitlərin yaradılması;

• park mühitinin zərərli ətraf mühit təsirlərindən qorunub-saxlanması və mühafizəsi;

• parklarda insan üçün sağlam və komfortlu olan memarlıq-landşaft mühitinin yaradılması;

• landşaftların daha tam yararlı rekreasiya istifadəsi üçün hazırlanması;

• park qurğusunun insanlara daha səmərəli təsir etməsi üçün onun insanlar tərəfindən qavrayış psixofiziologiyasının nəzərə alınması (Əlirzayev, 2006).

Ümumi istifadəli yaşıllıq əkintiləri sistemində rayon əhatəsindən tam müstəqil olan parklara, demək olar ki, az təsadüf edilir. Onlar abidə parklarından və yaxud istinad planı baxımından parçalanmış parklardan (adada, nəqliyyat magistralının arasında və s. salınmış parklar) ibarət ola bilər.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Parkın öz ərazisi isə onun memarlıq-landşaft göstəricilərinə əsasən həll edilməlidir. Onların müəyyən dəyər kəsb etdiyi hallarda isə onlara irəli sürülən memarlıq-planlaşdırma tələbləri memarlıq-landşaft dominantlarının səviyyələşdirmə prinsiplərinə uyğun olmalıdır. Belə həllərin əsasına ərazinin landşaft zonalaşması, sahənin əhəmiyyətli memarlıq-landşaft dominantları qoyulmalıdır.

Ərazinin aydın ifadə olunmuş landşaft orijinallığına malik olmadığı hallarda isə, onun memarlıq həlli həmin ərazidə rayon tərəfdən irəli sürülən funksional məsələlərə tabe olur. Çox vaxt belə parkın memarlıq-landşaft təşkilinin həlli fəal antropogen landşaft elementlərinə malik istirahət mərkəzi proqramına əsasən tövsiyyə edilir (Əlirzayev, 2000).

## Ədəbiyyat

1. Ağayev, R. (2003). *Azərbaycanın beynəlxalq mədəni əlaqələri*. Mars – Print.
2. Bilalov, B.Ə. (2005). *Turizmin menecmenti*.
3. *Beynəlxalq əlaqələr üzrə bələdçi*. (2005). Bilik nəşriy.
4. Əlirzayev, Ə.T., Aslanova, S.İ. (2006). *Turizmin inkişafının sosial-iqtisadi problemləri*.
5. Əlirzayev, Ə.T. (2000). *Turizm*.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 158-162**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 158-162**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Emil Məmmədov**
Azərbaycan Dövlət Dəniz Akademiyası
https://orcid.org/0009-0000-5748-2109
emilmemmedoglu@gmail.com
**İlhamə Bayramova**
Azərbaycan Dövlət Dəniz Akademiyası
https://orcid.org/0009-0000-7928-7777
genclik76@mail.ru

# Gəmi elektroenergetik sistemlərində enerji saxlama texnologiyalarının tətbiqi

***Açar sözlər:*** *gəmi, elektrik avadanlığı, enerji saxlanılması, texnologiya, energetika*
***Keywords:*** *ship, electrical equipment, energy storage, technologies, energetics*

Hal-hazırda dəniz nəqliyyatı sektorunda enerji səmərəliliyinin artırılması və ətraf mühitə ekoloji təsirlərin azaldılması məsələləri geniş müzakirə mövzusuna çevrilmişdir. Bu müzakirələrin nəticəsinin bir hissəsi olaraq gəmi elektrik sistemlərində enerji saxlama texnologiyalarının rolunun müəyyən edilməsini, gəmilərdə enerji saxlama texnologiyalarının tətbiqinin üstünlüklərinin və çatışmazlıqlarının təhlil edilməsini göstərmək olar. Bu məqalədə gəmi elektrik sistemləri üçün əlverişli olan enerji saxlama texnologiyalarının növləri, tətbiq üsulları və bir sıra məsələlər araşdırılmışdır. Həmçinin, enerji saxlanılma texnologiyalarının gələcək perspektivləri barədə fikirlər irəli sürülmüşdür (Heiser, 2019).

Dəniz nəqliyyatı qlobal ticarət və iqtisadiyyatın əsas sütunlarından biri olaraq, ekoloji və strateji cəhətdən də böyük əhəmiyyət kəsb edir. Adətən, gəmilərdə yanacaq qismində dizel

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 158-162**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 158-162**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

yanacağı istifadə olunur. Dəniz nəqliyyatında dizel yanacağından istifadə zamanı karbon qazı və digər zərərli tullantıların yaranması ətraf mühitə ciddi şəkildə təsir göstərir. Son illərdə dəniz nəqliyyatında karbon emissiyalarının azaldılması və enerji effektivliyinin artırılması məqsədilə gəmi elektrik təchizat sistemində enerji mənbəyi kimi bərpa olunan enerji sistemləri və hibrid sistemlərdən istifadə olunması, gəmiçilik sahəsində yeni bir dövrün başlanğıcını təşkil edir (Heiser, 2019).

Enerji saxlama texnologiyaları enerji idarəetmə sistemləri ilə birləşdirilərək gəmi elektrik sistemlərində səmərəliliyin və effektivliyin nəzərə çarpacaq dərəcədə artmasına səbəb olur. Gəmi elektrik təchizat sistemində enerji saxlanılma texnologiyalarının rolunu müəyyən etmək üçün aşağıda qeyd olunan məsələlərə baxaq:

-*Bərpa olunan enerji mənbələrinin inteqrasiyası*: Gəmilərdə günəş panelləri və külək turbinlərindən enerjinin əldə edilməsi qeyri-sabitdir və enerji saxlanılma qurğuları bu enerjinin ehtiyatda saxlanmasına və lazım olduqda istifadəyə verilməsinə imkan yaradır.

-*Enerji təchizatının sabitliyi və effektivliyi:* Gəmi elektrik sistemlərində enerji saxlanılma texnologiyalarının istifadə olunması, enerji təchizatının daha sabit və etibarlı olmasına kömək edir. Gəminin iş rejimlərinə uyğun olaraq enerji tələbatı dəyişir, enerji saxlama texnologiyaları isə bu dəyişikliklərə müvafiq enerji təchizatının optimallaşmasına və itkilərin azaldılmasına imkan verir.

-*Karbon emissiyasının və yanacaq sərfiyyatının azaldılması:* ES texnologiyalarının tətbiqi, gəmi mühərriklərinin sərf etdiyi yanacağı azaldaraq, karbon emissiyalarının və digər maddələrin azalmasını, eləcə də ətraf mühitin qorunmasını təmin edir.

Gəmi elektrik sistemlərində müxtəlif enerji saxlanılma texnologiyalarından istifadə olunur. Bu sırada *Litium-İon akkumulyator batareyalar (Li-İon AB), superkondensatorlar,*

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

*çarxlı enerji sistemləri* kimi texnologiyalar daha geniş yayılmışdır (Zhang, Li, 2020).

*Litium-ion batareyalar (Li-İon)* yüksək enerji sıxlığı, uzunömürlülük və sürətli enerji dolum-boşaltma xüsusiyyətlərinə görə hibrid və tam elektrikli gəmilərdə geniş tətbiq olunmaqdadır. Həmçinin, bu batareyalar yüksək enerji saxlanılma qabiliyyətinə malikdir (bir ay yüksüz rejimdə 1,5% itki), buna görə onlar uzun müddətli dəniz əməliyyatlarında istifadə olunurlar. Litium-İon AB – nın mənfi cəhətləri: yanğın təhlükəsi və batareyaların dəyişdirilmə xərcləri. Litium-İon AB – nın gəmilərdə quraşdırılarkən beynəlxalq standartlara uyğunluq, yanğın təhlükəsizliyi, qəza vəziyyətləri nəzərə alınmalıdır. Litium-ion AB-nın düzgün işləməsi və təhlükəsizliyi, batareyaların dolum prosesinə, gərginliyinin qiymətinə, temperaturuna nəzarət edilməsi və mühafizəsi Batareya İdarə Sistemi (BMS – Battery Management System) ilə yerinə yetirilir. Tələb və şərtlərin yerinə yetirilməsi, Litium-İon AB-nın gəmidə təhlükəsiz, səmərəli və effektiv işləməsini təmin edəcəkdir.

*Superkondensatorlar (SK)* sürətli enerji doldurma və boşaltma qabiliyyətinə, impuls gücünə malik qurğulardır (şəkil 1). SK-lar quraşdırılarkən yüksək gərginlikdən və temperaturdan qorunmaq üçün xüsusi izolyasiya, havalandırma və mühafizə sisteminə malik olmalıdırlar. SK-ların böyük gücü və kiçik daxili müqaviməti, mühərriklərin işə buraxılmasında istifadəsinə imkan verir. SK-ları quraşdırmazdan əvvəl onların gəminin elektrik şəbəkəsinə uyğunluğu yoxlanılmalı və texniki tələblər dəqiqliklə yerinə yetirilməlidir. Superkondensatorlar batareyalara nisbətən daha böyük enerji sıxlığına və uzun ömürlük müddətinə malikdirlər (Chowdhury, Bandyopadhyay, 2021).

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**




***Şəkil 1.*** *Superkondensatorun quruluşu*

İqtisadi cəhətdən isə SK digər enerji saxlanılma texnologiyalarına nisbətən daha bahadır. SK-ların əsas çatışmayan cəhəti bu texnologiyanın temperaturdan asılılığıdır ki, bu da onların məhsuldarlığını azaldır və ekstremal vəziyyətdə yararsız edir.

*Çarxlı enerji saxlanılma sistemləri (Flywheel Energy Storage - FES)* elektrik enerjisinin kinetik enerji formasında saxlanılması üsuludur. Bu sistemlər enerjini yüksək sürətlə fırlanan disk şəklində saxlayır və lazım gəldikdə enerjisinə çevirir. Bu enerji saxlanılma texnologiyası digər enerji saxlanılma texnologiyalarına nisbətən aşağıdakı üstünlüklərə malikdir:

-Yüksək səmərəlilik – Yüksək FİƏ (85-95%), enerji itkisinin çox az olması.

-Uzun ömürlülük və davamlılıq – 20 il və daha çox.

-Sürətli enerji toplanma və boşaldılma – Ani enerji tələbatçıları üçün ideal seçimdir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

-Ekoloji cəhətdən təmiz – Kimyəvi tərkibin olmaması, ətraf mühiti qoruyur.

-Böyük impuls gücü – İri gəmilərdə sürətli enerji mənbəyi rolunu oynayır.

FES sistemləri gəminin əsas enerji paylayıcı şəbəkəsinə qoşulur. Bundan əlavə, bu sistemlər müəyyən gəmi bölmələrində (sükan qurğuları, yük mexanizmləri, göyərtə avadanlıqları) lokal enerji mənbəyi kimi istifadə olunur.

Yuxarıda göstərilənləri nəzərə alaraq qeyd etmək olar ki, enerji saxlama texnologiyalarının inkişafı və tətbiqi ilə enerji səmərəliliyi artır və dəniz nəqliyyatında aşağıda göstərilən nəticələr əldə olunur:

1. Yanacaq sərfiyyatının 20-40% azalması.
2. Emissiyalarının 30-50% azaldılması.
3. Superkondensatorlarla 10 qat sürətli enerji ötürülməsi – Ani enerji tələbatı olan sistemlərdə bu texnologiya sayəsində enerji təchizatı 10 dəfə sürətli olacaqdır.
4. Enerji effektivliyinin artırılması və alternativ enerji mənbələrinin istifadəsi sayəsində dəniz nəqliyyatının xərcləri 15-25% azaldılacaq.

## Ədəbiyyat

1. Chowdhury, S., & Bandyopadhyay, R. (2021). Future of Hydrogen Fuel Cells in Marine Industry. *Journal of Power Sources*, 448, 227545.
2. Heiser, J. (2019). Energy Storage for Marine Applications. *Journal of Marine Technology and Engineering*, 47(3), 210-221.
3. Zhang, Y., & Li, L. (2020). Flywheel Energy Storage Systems in Marine Applications. *Energy Conversion and Management*, 227, 113525.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 163-165**
***Fundamentals of Science and Education* XIII International Scientific Conference**
**01 may 2025 / 163-165**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Вюсал Сулейманов**
Бакинский Государственный Университет
магистрант
https://orcid.org/0009-0007-2576-1892
vsuleymanov2001@gmail.com

# Кроссплатформенные решения в разработке мобильных приложений: анализ подходов и перспективы применения

***Ключевые слова:*** *мобильные технологии, программное обеспечение, кроссплатформенная разработка, цифровизация, фреймворки*

***Açar sözlər:*** *mobil texnologiyalar, proqram təminatı, cross-platform inkişafı, rəqəmsallaşma, çərçivələr*

***Keywords:*** *mobile technologies, software, cross-platform development, digitalization, frameworks*

В условиях стремительного роста рынка мобильных технологий разработчики все чаще становятся задачей создания приложений, которые эффективно работают над различными операционными системами, в первую очередь Android и iOS. Традиционный подход - разработка нативных приложений - требует значительных ресурсов, как человека, так и временного, поскольку каждая платформа должна создавать и управлять отдельным кодом (Васильев, 2020). В этом контексте кроссплатформенные решения регистрируются путем возможности разработки одного приложения для разных платформ с использованием общего кода.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Современные инструменты кроссплатформенной разработки, такие как Flutter, React Native и Xamarin отвечают на всеобъемлющие функции и широкий спектр вариантов для адаптации интерфейсов, которые позволяют пользователям близко к естественным приложениям (Мельник, 2021). К примеру, Flutter, разработанный Google, основан на языке Dart и предлагает свой собственный механизм визуализации, который позволяет разработчикам иметь полный контроль над интерфейсом (Rahman, Rokunuzzaman, 2020). React Native от Meta позволяет легко интегрировать его в существующую экосистему веб-разработки с использованием JavaScript. Xamarin в свою очередь фокусируется на разработчиках NET и C#, обеспечивая тесную интеграцию в продукты Microsoft.

Кроссплатформенный выбор - структура должна основываться не только на функциях, но и на специальных функциях проекта, ожидаемой производительности, поддержке третьей библиотеки участников, а также активности и зрелости сообщества разработчиков. Одной из основных задач кроссплатформенных решений является оптимизация производительности, особенно в приложениях с расширенной графикой и анимацией, где нативные решения по-прежнему превосходят своих конкурентов. Тем не менее, продолжает активно развиваться и адаптироваться к современным рыночным требованиям. Это использование позволяет предприятиям снижать затраты, ускорить производительность продукта на рынке и упростить приложения. В контексте растущих потребностей в цифровизации и быстрой реализации мобильных решений кроссплатформенная технология становится неотъемлемой частью экосистемы современной разработки.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Таким образом, кроссплатформенные инструменты сыграли ключевую роль в увеличении доступности мобильной разработки, ускорили технический процесс и расширили круг потенциальных разработчиков. Хотя их использование требует сбалансированного подхода, компетентный выбор и реализации могут обеспечить гибкость и комфорт мобильных приложений, которые могут эффективно конкурировать с местными аналогами.

## Литература

1. Google Developers. Flutter Documentation. https://flutter.dev/docs
2. Мельник, Д.А. (2021). *Разработка мобильных приложений: нативный и кроссплатформенный подходы*. Инфра-М.
3. Meta (Facebook) Docs. React Native Documentation. https://reactnative.dev/docs
4. Microsoft Docs. Xamarin Documentation. https://learn.microsoft.com/en-us/xamarin/
5. Rahman, M.M., Rokunuzzaman, S.A. (2020). A Comparative Study of Cross-platform Mobile Application Development Frameworks. *International Journal of Computer Applications*.
6. Васильев, К.Н. (2020). *Разработка мобильных приложений с использованием React Native*. ДМК Пресс.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 166-168**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 166-168**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Eşqin Alıyev**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0002-4937-2238
eshginaliyev57@gmail.com

# Ağıllı evlər və istifadə olunan IoT texnologiyalar

***Açar sözlər:*** *IoT, ağıllı ev, simsiz sensor şəbəkələri, təhlükəsizlik, avtomatlaşdırma*
***Keywords:*** *IoT, smart home, wireless sensor networks, security, automation*

İnternetin inkişafı ilə insanlar fiziki obyektləri şəbəkəyə qoşaraq idarə etmək imkanına sahib olmuşdur. Əşyaların İnterneti (IoT) konsepsiyası bu ideyanı dəstəkləyən texnologiyalardan biridir (Tripathi et al., 2014). IoT əsaslı ağıllı evlərdə ev avadanlıqları internetə qoşularaq uzaqdan idarə edilə bilir və avtomatik rejimdə işləyə bilər. Bu sistemlər istifadəçilərə rahatlıq, enerji effektivliyi və təhlükəsizlik kimi bir sıra üstünlüklər təqdim edir (Ming Wang et al., 2013).

IoT və Ağıllı Ev Texnologiyaları. Ağıllı evlər IoT mühitində müxtəlif cihazların əlaqələndirilməsinə əsaslanır. IoT-nin əsas komponentləri aşağıdakılardır:

• Sensorlar və aktuatorlar: Ətraf mühiti müşahidə edərək məlumat toplayır və lazımi əməliyyatları icra edirlər (Chi et al., 2014).

• Şəbəkə bağlantısı: ZigBee, Wi-Fi, Bluetooth və RF texnologiyaları ilə cihazlar arasında rabitə təmin edilir (Athreya & Tague, 2013).

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

• Mərkəzi idarəetmə sistemi: Evdəki cihazların əlaqələndirilməsi və avtomatik idarə olunması üçün istifadə olunur (Miori & Russo, 2014).

• Bulud platformaları: Məlumatların saxlanması və uzaqdan idarəetmə imkanları yaradır (Soliman et al., 2013).

IoT əsaslı ağıllı ev sistemlərinin çətinlikləri və həlləri. Ağıllı evlərin geniş yayılması bəzi problemlərlə müşayiət olunur:

• Təhlükəsizlik və məxfilik: IoT cihazlarının kibertəhlükələrə qarşı həssas olması mühüm problemdir. Məlumat şifrələmə və autentifikasiya mexanizmləri bu riski azalda bilər (Tripathi et al., 2014).

• Standartlaşma: Müxtəlif istehsalçıların fərqli texnologiyalardan istifadə etməsi cihazlar arasında uyğunluq problemini yaradır. IoT üçün vahid protokolların tətbiqi bu problemi həll edə bilər (Miori & Russo, 2014).

• Şəbəkə yüklənməsi və gecikmə: IoT cihazlarının artması şəbəkə resurslarını tükəndirə bilər. Effektiv yük balanslaşdırma və optimallaşdırılmış protokollar bu problemi aradan qaldıra bilər (Athreya & Tague, 2013).

IoT texnologiyalarının inkişafı ilə ağıllı ev sistemləri daha səmərəli və təhlükəsiz hala gəlir. Süni intellekt və maşın öyrənməsi alqoritmlərinin inteqrasiyası ağıllı evlərin funksionallığını artıracaq və daha avtomatlaşdırılmış idarəetməni təmin edəcək.

## Ədəbiyyat

1. Athreya, A.P., & Tague, P. (2013). Network Self-Organization in the Internet of Things. *IEEE International Workshop of Internet-of-Things Networking and Control* (IoT-NC), pp. 25-33.

https://doi.org/10.36719/2789-6919/2025/XIII

2. Chi, Q., Yan, H., Zhang, C., Pang, Z., & Xu, L.D. (2014). A Reconfigurable Smart Sensor Interface for Industrial WSN in IoT Environment. IEEE Transactions on Industrial Informatics, vol. 10, no. 2.
3. Ming Wang, G., Zhang, C., Zhang, J., & Li, C. (2013). An IoT-based Appliance Control System for Smart Homes. *Fourth International Conference on Intelligent Control and Information Processing (ICICIP),* pp. 744-747.
4. Miori, V., & Russo, D. (2014). Domotic evolution towards the IoT. *28th International Conference on Advanced Information Networking and Applications Workshops*, pp. 809-814.
5. Tripathi, G., Singh, D., & Jara, A.J. (2014). A survey of Internet-of-Things: Future Vision, Architecture, Challenges and Service. *IEEE World Forum on Internet of Things (WF-IoT),* pp. 287-292.
6. Soliman, M., Abiodun, T., Hamouda, T., Zhou, J., & Lung, C.H. (2013). Smart Home: Integrating Internet of Things with Web Services and Cloud Computing. *IEEE International Conference on Cloud Computing Technology and Science,* pp. 317-320.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 169-171**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 169-171**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Məryəm Əhməyeva**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0007-7102-341X
meryem.04@mail.ru

# Dəmir klasterlərinin sintezi və xüsusiyyətləri. Onların karbon nanoborularının böyüməsində praktiki tətbiqləri

***Açar sözlər:*** *dəmir klasterləri, nanometr materiallar, karbon nanoborular, katalizator*

***Keywords:*** *iron clusters, nanometer materials, carbon nanotubes, catalyst*

Son onilliklər ərzində alimlər müasir eksperimental metodlardan və nəzəri hesablamalardan istifadə edərək keçid metallarından ibarət klasterlərin – xüsusilə də dəmir klasterlərinin sintezi, quruluşu və xassələrini tədricən daha dərindən öyrənmişlər. Dəmir klasterləri nanomiqyasda özünəməxsus quruluş və fiziki-kimyəvi xüsusiyyətlərə malik olan nanomateriallardandır və bu səbəbdən geniş elmi maraq doğurur. Makroskopik dəmirə nisbətən, nanoölçülü dəmir klasterləri fərqli davranış nümayiş etdirir (Chang, Wu, Wang, Sun, Cheng, 2022). Bu klasterlər bir neçə dəmir atomunun bir araya gəlməsi ilə yaranan kompleks elektron struktura malik nanohissəciklərdir. Onların bu xüsusiyyəti geniş tətbiq imkanları yaradır – xüsusilə kataliz, enerji çevrilməsi, biotibbi sahələr və digər sahələrdə. Bu istiqamətdə aparılan araşdırmalar dinamik şəkildə inkişaf edir və həm fundamental, həm də tətbiqi baxımdan böyük əhəmiyyət kəsb edir.

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

Elmi əsasda, tədqiqatçılar dəmir klasterlərinin elektron strukturları ilə onların elektrik və maqnit xüsusiyyətləri arasında olan əlaqələri araşdırırlar. Bu məqsədlə yüksək dəqiqlikli nəzəri modellər və eksperimental texnologiyalar vasitəsilə klasterlərin ölçüsü, forması və tərkibi dəqiqliklə tənzimlənir. Bu da onların müxtəlif ölçülərdə hansı fərqli xüsusiyyətlərə malik olduğunu üzə çıxarır (Jena, Sun, 2018). Tətbiqi baxımdan isə, dəmir klasterlərinin ilkin istifadəsi qaytarma-oksidləşmə katalitik reaksiyaları sahəsində olmuşdur. Alimlər xüsusi struktur və tərkibə malik dəmir klasterləri hazırlayaraq onların katalitik potensialını sistemli şəkildə araşdırır və təkmilləşdirirlər. Məqsəd – təmiz enerji texnologiyalarında istifadə edilə biləcək ucuz və effektiv dəmir əsaslı oksigen reduksiya katalizatorları yaratmaqdır.

Bu sahədə əldə olunan nəticələr dəmir klasterlərinin enerji texnologiyalarında tətbiqinə möhkəm zəmin yaratmış və bir sıra ümidverici nəticələr əldə olunmuşdur. Eyni zamanda, onların maqnit xassələri bu materialların maqnit yaddaş qurğuları və sensor texnologiyaları üçün də potensialını artırır. Bundan əlavə, dəmir klasterləri karbon nanoborularının – xüsusilə təkdivarlı karbon nanoboruların (SWCNTs) böyüməsində də mühüm rol oynayır. Klasterlərin morfologiyasını tənzimləməklə və katalitik xassələrini yaxşılaşdırmaqla nanoboruların sintez effektivliyi və keyfiyyəti artırıla bilər (Nagiyev, Zeynalov, 2015). Bu da hazırda dəmir klasterləri üzrə aparılan tədqiqatların əsas istiqamətlərindən biridir.

Nəticə olaraq qeyd edək ki, dəmir klasterlərinin həm elmi, həm də sənaye baxımından əhəmiyyəti getdikcə artır. Onların özünəməxsus elektron və kimyəvi strukturları bir çox yeni sahələr üçün imkanlar açır (Zeynalov, Allen, et al., 2019). Gələcək tədqiqatlar sintez metodlarının təkmilləşdirilməsi, yeni

https://doi.org/10.36719/2789-6919/2025/XIII

tətbiq sahələrinin kəşfi və real tətbiq zamanı qarşıya çıxan problemlərin aradan qaldırılmasına fokuslanacaq.

## Ədəbiyyat

1. Chang, B., Wu, S., Wang, Y., Sun, T., Cheng, Z. (2022). Qabaqcıl Katalitik Sistemlər üçün Yeni Ortaya Çıxan Tək-Atomlu Dəmir Katalizatorları. *Nanoscale Horizons,* Cild 7, s.1340-1387.
2. Jena, P., Sun, Q. (2018). Super Atom Klasterləri: Dizayn Qaydaları və Materialların Tikinti Blokları Kimi Potensialı. *Chemical Reviews*, Cild 118, s. 5755-5870.
3. Nagiyev, T., Zeynalov, E. (2015). Enzymatic catalysis of hydrocarbons oxidation “invitro (Review). *Chemistry & Chemical Technology* 9(2), 157-164.
4. Zeynalov, E., Allen, N. et al. (2019). Carbon nanotubes catalysis in liquid-phase aerobic oxidation of hydrocarbons: Influence of nanotube impurities. *Journal of Physics & Chemistry of Solids* 127(4), 245-251.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 172-174**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 172-174**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Aytac Əlizadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0005-1379-9688
aytacelizadeteacher23@gmail.com

# Telekommunikasiyada müasir layihələndirmə

***Açar sözlər:*** *telekommunikasiya sistemləri, informasiya texnologiyaları, həyat dövrü modeli, planlaşdırma və tələblərin analizi, layihələndirmə və inkişaf*

***Keywords:*** *telecommunications systems, information technologies, life cycle model, planning and requirements analysis, design and development*

Telekommunikasiya məlumatların alınması, ötürülməsi üçün istifadə olunan texnologiyalardır. Bu sahədə sistemlər arasında informasiya axını təmin olunur. Telekommunikasiya sahəsi XIX əsrdə telefon və teleqraf sistemləri əsasında yaranıb və 1990-cı illərdən isə mobil rabitə və internet texnologiyalarının genişlənməsi bu sahənin də yeni mərhələyə keçməsinə səbəb olmuşdur. Telekommunikasiyada müasir layihələndirmə dedikdə, yeni texnologiya və metodların tətbiqi və bununla əlaqəli olan şəbəkələrin qurulması, idarə edilməsi, şəbəkənin optimallaşdırılmasını nəzərdə tutur. Müasir layihələndirmə yanlız şəbəkə infrastrukturunun qurulması ilə kifayətlənmir, eyni zamanda şəbəkənin yüksək sürət, etibarlılıq, səmərəlilik, təhlükəsizlik kimi müasir tələblərə cavab verməlidir. Bu proses mürəkkəb və çoxşaxəlidir (Abbasov, 2021). Müasir dövrdə telekommunikasiya sistemlərinin inkişafı rəqəmsal və informasiya texnologiyalarının geniş tətbiqi ilə müşayiət olunur. Ənənəvi metodların yerinə müasir proqramlaşdırma vasitələri və

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

texnologiyaları tətbiq olunur. Layihələndirmə prosesi daha effektiv, etibarlı, müasir, texniki və iqtisadi cəhətdən dayanıqlı sistemlərin qurulmasına imkan verir.

5G və yeni texnologiyaları: mobil şəbəkələrin inkişafı ilə əlaqədar olan bu texnologiyalar, yüksək sürət, geniş xidmət sahəsi və çoxlu cihazın paralel şəkildə qoşulmasını təmin edir. Şəbəkə layihələndirməsində bu texnologiyalarla uyğunlaşdırılmış şəbəkə infrastrukturları nəzərdə tutulur.

Şəbəkə təhlükəsizliyi: Telekommunikasiya layihələrində təhlükəsizlik hər zaman üstünlük təşkil edir. Müasir layihələndirmədə təhlükəsizlik tədbirləri ilk mərhələlərdən tətbiq olunur ki, məlumatların qorunması, şəbəkə hücumlarının qarşısının alınması və etibarlılığı artırmaq məqsədilə edilir.

Enerji səmərəliliyi: Telekommunikasiya şəbəkələrinin enerjiyə olan tələbləri artdıqca, enerji səmərəliliyi məsələsi də mühüm əhəmiyyət kəsb edir (Əsədov, Məmmədov, 2021). Şəbəkə elementlərinin az enerji sərf edən modullarla təchiz olunması, passiv soyutma sistemləri və enerji istifadəsinin optimallaşdırılması müasir sistemlərdə tətbiq olunur.

Bulud əsaslı xidmətlərin layihələndirməyə təsiri: Bulud texnologiyaları telekommunikasiya sahəsində infrastrukturun optimallaşdırılması, xərclərin azaldılması və xidmətlərin daha çevik göstərilməsinə şərait yaradır (Hasanov, 2022).

Müasir dövrdə telekommunikasiya sahəsi dinamik inkişaf edən və strateji əhəmiyyət kəsb edən bir istiqamətdir. Ənənəvi rabitə vasitələrindən rəqəmsal və yüksək sürətli texnologiyalara keçid, layihələndirmə prosesinin də təkmilləşdirilməsini zəruri edir (Cisco Systems, 2024). Telekommunikasiyada müasir layihələndirmə yanaşmaları texnoloji yeniliklərin tətbiqi ilə paralel şəkildə inkişaf edir. Mobil şəbəkələrin (5G və 6G) genişlənməsi, bulud əsaslı xidmətlərin inteqrasiyası, təhlükəsizlik tədbirlərinin layihənin ilkin mərhələsindən nəzərə alınması

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

və enerji səmərəliliyinin təmin olunması bu sahədə dayanıqlı və effektiv sistemlərin qurulmasını şərtləndirir (ITU, 2023). Telekommunikasiya layihələrinin düzgün planlaşdırılması və müasir tələblərə uyğunlaşdırılması nəticəsində daha etibarlı, dayanıqlı və səmərəli sistemlər qurmaq mümkündür.

## Ədəbiyyat

1. Abbasov, E. (2021). *Telekommunikasiya sistemlərinin əsasları*. Elm və Təhsil.
2. Cisco Systems. (2024). *The Role of Cloud and Edge Computing in Modern Telecommunications*.
3. Əsədov, A.Ş., Məmmədov, F.F. (2021). *Telekommunikasiya sistemləri və şəbəkələrinin əsasları*. “Elm və Təhsil”.
4. Hasanov, R. (2022). 5G texnologiyası və onun tətbiq imkanları. *Azərbaycan Texniki Universitetinin Elmi Əsərləri*, №4, səh. 45–52.
5. ITU (International Telecommunication Union). (2023). *Trends in Telecommunication Reform*. Geneva: ITU Publications.

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 175-177**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 175-**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

**Ərzuman Əlizadə**
Bakı, Azərbaycan
https://orcid.org/0009-0007-4248-1016
arzuman.alizada@gmail.com

# Rotor-stator sistemlərinin enerji effektivliyi və neft-qaz sektorunda tətbiqi

***Açar sözlər:*** *rotor-stator sistemləri, enerji effektivliyi, neft, qaz, geoloji qat*
***Keywords:*** *rotor-stator systems, energy efficiency, oil, gas, geological strata*

Rotor-stator sistemi müasir pozitiv yerdəyişmə motorlarının (mud motor) əsas funksional hissəsidir və bu texnologiya neft-qaz sektorunda dərin və mürəkkəb geoloji qatlarda yerləşən ehtiyatların hasilatı zamanı qazma işlərinin keyfiyyət və sürətinə bilavasitə təsir göstərir. Rotor-stator sisteminin əsas vəzifəsi qazma məhlulunun axını nəticəsində yaranan hidravlik enerjini mexaniki fırlanma hərəkətinə çevirməkdir. Bu prinsip sadə görünsə də, yüksək təzyiqli və aşındırıcı mühitlərdə stabil və uzunmüddətli işləmək üçün kompleks texnoloji həllər tələb edir.

Rotor-stator mexanizminin iş prinsipi. Rotor-stator sistemində rotoru təşkil edən spiralvari metal ştanq, elastometrik materialdan (rezin tərkibli polimerlər) hazırlanmış stator daxilində dövr edir. Qazma məhlulu (drilling fluid) bu struktur daxilindən keçərək, rotorun dönməsini və bununla da qazma baltasının fırlanmasını təmin edir. Qazma borularının ucunda yerləşən bu motor, ştanqın dönməsini təmin etməklə yanaşı, aşağıda yerləşən lülədə əlavə fırlanma sürəti yaradır. Bu,

**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

xüsusilə maili və üfüqi quyuların qazılması zamanı mühüm əhəmiyyət daşıyır.

Enerji effektivliyinin təhlili. Rotor-stator sistemlərinin enerji effektivliyini təmin edən əsas faktorlar aşağıdakılardır:

-Hidravlik-mexaniki çevrilmədə yüksək səmərəlilik: Yaxşı dizayn olunmuş rotor və stator profilləri daha az enerjiyə daha çox fırlanma momenti yarada bilir.

-Davamlı materiallar: Yüksək temperatur və kimyəvi təsirlərə davamlı elastometrik materialların tətbiqi yeyilməni və enerjinin itirilməsini azaldır.

-Optimallaşdırılmış axın dizaynı: Rotor-stator cütlüyünün forması qazma məhlulunun minimum itki ilə keçməsinə imkan verir, bu isə enerji itkisinin qarşısını alır.

-Modulyar quruluş: Müasir sistemlər modul şəkildə yığıldığı üçün xidmət və dəyişdirmə müddətləri qısalır, istismar zamanı enerjiyə qənaət edilir.

Bu texnologiyanın istifadəsi, xüsusilə az diametrli quyuların qazılması zamanı enerji sərfiyyatının və qazma vaxtının azalmasına imkan verir. Son illərin statistik göstəricilərinə görə, mud motorlu sistemlər 20-30% daha az enerji sərfi ilə quyunun dərinliyinə çatmağı təmin edə bilir.

Praktiki tətbiq və iqtisadi üstünlüklər. Rotor-stator sistemləri hazırda aşağıdakı sahələrdə geniş tətbiq edilir:

- Üfüqi və istiqamətləndirilmiş qazma işləri
- Qat-qarışıq süxurların qazılması
- Məhdud əraziyə malik quyularda yüksək tork tələb edən qazmalar

Bundan başqa, bu sistemlərin istifadəsi aşağıdakı iqtisadi üstünlükləri verir:

- Qazma vaxtının azalması ilə əməliyyat xərclərində 15-25% qənaət;

*Elm və Təhsilin Əsasları* **XIII Beynəlxalq Elmi Konfrans**
**01 may 2025 / 175-177**
***Fundamentals of Science and Education*** **XIII International Scientific Conference**
**01 may 2025 / 175-**
**https://doi.org/10.36719/2789-6919/2025/XIII**

- Enerji sərfinin optimallaşdırılması ilə istismar müddətinin artması;
- Avadanlıqların təmir intervalının uzanması ilə texniki fasilələrin azalması.

Qeyd etmək lazımdır ki, son dövrlərdə rotor-stator sistemlərinin rəqəmsal nəzarət modulları ilə təchiz olunması da genişlənməkdədir. Bu texnologiya sayəsində sistemin performansı real vaxtda izlənilir və enerji sərfiyyatına uyğun avtomatik tənzimləmələr aparıla bilir.

## İÇİNDƏKİLƏR
## CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Zemfira Abbasova**
Xüsusi ad-onomastik vahid ictimai-tarixi inkişafın məhsulu kimi ........ 9
**Vahid Məmmədov**
Z.Bağırovun tar ilə simfonik orkestr üçün yazdığı konsert ... 14
**Dəyanət Ağayev**
Birləşmiş Krallığın fərqli tələffüz edilən coğrafi adları ......... 17
**Nurlana Kazımova**
Müstəqilliyimizi və suverenliyimizi daimi edən lider ........... 20
**Səbinə Abbasova**
Naxçıvan Muxtar Respublikasında Babək rayonunun tarixi abidələri ........ 24
**Vüqar Abdullayev**
XX əsrin 30-cu illərində azərbaycanlı mühacirlərin siyasi mədəni – humanitar fəaliyyəti ........ 28
**Maya Qasımova**
Varislik prinsipi – fasiləsiz pedaqoji təhsilin təmin edilməsində zəruri şərtlərdən biri kimi ........ 33
**Banovsha Azizli**
Classification of Modal Verbs in English ........ 38
**Kifayət Hüseynova, Aidə Novruzova, Nazirə Qənbərova**
Müasir cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial promlemlərinin psixoloji həlli ........ 40
**Ranokhon Abdullaeva**
The Ideas of Constructivism in the Formation of Relations Between Uzbekistan and Azerbaijan ........ 44

**Yusif Ələkbərli**
Bölüşdürücü logistikanın idarəetmə qərarlarının təkmilləşdirilməsi ........ 48
**Davud Abdullayev**
Aviaşirkətlərin inteqrasiya və diversifikasiya proseslərinin idarə edilməsi mexanizmləri ........ 52
**Nurlan Abbasov**
Nəqliyyatın iqtisadiyyata təsiri və inkişaf perspektivləri: Azərbaycan nümunəsində ........ 57
**Xəyalə Məmmədova**
Azərbaycan və Almaniya mülki prosesində müvəqqəti təminat tədbirlərinin dəyişdirilməsi ........ 62
**Günel Əliyeva**
Təhsildə rəqəmsal texnologiyalar ........ 66
**Şəbnəm Əliyeva**
Savad təlimi üzrə metodikanın əsas istiqamətləri ........ 70
**Nabat Gahramanova**
Inclusive Education: Creating Equal Educational Opportunities in Universities ........ 74
**Vasif Surətzadə**
Beynəlxalq biznesdə vasitəçi şirkətlərin rolu: müasir vəziyyət və inkişaf perspektivləri ........ 77
**Nuriyyə Piriyeva**
İbtidai siniflərdə həndəsi elementlərin öyrədilməsi zamanı praktik işlərin təşkili metodikası ........ 80
**Сабина Эюбова**
Фонетические и лексико-грамматические особенности русского языка ........ 84
**Шамиль Гасанли**
Идентификация потребительской функции полезности, kак инструмента информационной поддержки спроса и предложения на рынке ........ 86

**Namiq Vəlixanov**
Azərbaycandakı ali təhsil müəssisələrində yeni kadr strategiyalarının formalaşdırılması ........................................ 90
**Шамиль Гасанли**
Более точное прогнозирование и анализ рыночных процессов за счет применения функции полезности ....... 94
**Kamil Zeynalov**
Şagird nailiyyətinin qiymətləndirilməsi təhsilin keyfiyyətinə təsir edən mühüm amil kimi ................................................ 98
**Sona Ramazanova, Mujgan Tagiyeva, Nuray Hamidli**
The Importance of Translating and Interpreting .................. 101
**Lamiya Nasirova**
Azerbaijan’s Approach to AI and the EU AI Act: Key Similarities and Differences ................................................. 106
**Nurşən Məmmədxanova**
Ordubad – qədim diyar ........................................................ 110
**Kamala Asgarova**
Fundamentals of Strategic Management and Planning Models ..................................................................................... 113

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Lala Gurbanova**
Phytosenoecological Analysis and Utilization Perspective of Taxa of the Family *Lamiaceae* Lindl ............................... 117
**Ulduz Məmmədova, Könül Quluzadə**
Propanın hidrogen peroksid ilə izopropil spirtinə biomimetik oksidləşməsi reaksiyasının koherent-sinxronlaşdırılmış mexanizmi ............................................................................ 120
**Şirin Mahmudova**
Bitki hüceyrələrində ion kanallarının fizioloji əhəmiyyəti .. 124

**Nigar Mamedova, Fazil Rahimli**
Optimization and Mathematical Modeling of Adsorption Processes in Liquid-phase Systems ...................................... 127
**Qumru Balaxanova**
Mikromisetlərin ekosistem sağlamlığına təsiri .................... 132
**Tahə İbrahimov**
Canlı həyat insanı nə vaxt cəzalandırır və ya yüksəldir, ucaldır?........................................................................ 135
**Tahə İbrahimov**
Əlamətlərin sərbəst paylanması haqqında qeydlər ............... 140

## RİYAZİYYAT VƏ MEXANİKA
## MATHEMATICS AND MECHANICS

**Vüsalə Qarayeva, Humay Babayeva**
Riyaziyyat məsələlərinin həlli prosesində şagird təfəkkürünün inkişafetdirici əhəmiyyəti .................................................. 142

## TEXNİKA ELMLƏRİ
## TECHNICAL SCIENCES

**Elşən Sultanov, Sahib İsmayılov, Ruslan Əlicanov**
Gəmi siqnal qurğularının proqramlaşdırılan məntiq kontrollerləri ilə idarə olunmasının üstünlükləri .................. 147
**Vilayət Məmmədov, Mirzə Mustafayev, Hüsniyyə Yusifova**
Daşkəsən rayonunun istirahət zonasında salınan parkın memarlıq-landşaft təşkili ................................................... 153
**Emil Məmmədov, İlhamə Bayramova**
Gəmi elektroenergetik sistemlərində enerji saxlama texnologiyalarının tətbiqi .................................................. 158

**Вюсал Сулейманов**
Кроссплатформенные решения в разработке мобильных приложений: анализ подходов и перспективы применения ........................................................................ 163
**Eşqin Alıyev**
Ağıllı evlər və istifadə olunan IoT texnologiyalar ............... 166
**Məryəm Əhməyeva**
Dəmir klasterlərinin sintezi və xüsusiyyətləri. Onların karbon nanoborularının böyüməsində praktiki tətbiqləri ................. 169
**Aytac Əlizadə**
Telekommunikasiyada müasir layihələndirmə .................... 172
**Ərzuman Əlizadə**
Rotor-stator sistemlərinin enerji effektivliyi və neft-qaz sektorunda tətbiqi ............................................................... 175

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: bek.tedqiqat@aem.az

İmzalandı: 24.04.2025
Onlayn çap: 01.05.2025
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 11,5 ç.v.
Sifariş: 39

aem.az saytında çap edilmişdir
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

Signed: 24.04.2025
Online publication: 01.05.2025
Format: 60x84, 1/16
Stock issuance: 11,5 p.s.
Order: 39

It has been published on aem.az
Address: Baku city, Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru